OPEN SOURCE CLUB

Camal Şahverdiyev
Açıq qaynaqlı müasir həllər

Müəllif: Camal Şahverdiyev

Oxucuya müraciət:

Bu sahə üzrə Azərbaycan dilində kitab ilk dəfə nəşr olunduğundan istifadə edilən termin və sözlər məlumatın daha anlaşıla bilən olması üçün tətbiq edilmişdir. Kitabın daxilində səhv aşkar etsəniz, xahiş edirik, sərt şəkildə tənqid etməyəsiniz. Yalnış söz və ya sintaksis səhvini gördüyünüz halda, bookcorrector@gmail.com mail ünvanına yazmağınız xahiş olunur. Bununla növbəti kitabların daha mükəmməl edilməsinə yardımçı olarsınız.

ISBN: 978-9952-8290-2-0

Kitabdan istifadə qaydaları

Aşağıdakı açıqlamalar kitabın mütaliəsində oxucuya yardımçı olacaq:
Əsas başlıq - **Bold və böyük hərflər**
Əsas başlığa 1-ci dərəcəli alt başlıq - **Arxa fon qara, şrift ağ**
Əsas başlığa 2-ci dərəcəli alt başlıq - Altdan xətt

Əmrlər bold qeyd olunub. Əgər hansısa faylın içərisində olan sintaksisdən danışılırsa, öncədən faylın adı və tərkibinə əlavə ediləcək sətirlər bildirilir.

Qeydlər altdan xətt və bold edilmişdir - **Qeyd**:

- İstənilən UNIX/Linux əməliyyat sistemində faylların içində şərh üçün istifadə edilir.
Simvoldan sonrakı sözlər oxunmur.
/* şərh */ - DNS BİND-da və PHP proqramlaşdırma dilində yazılmış kodlarda göstərilən simvolların daxilində olan istənilən yazı şərhdir.
// - DNS BİND-da və PHP proqramlaşdırma dilində yazılmış kodlarda göstərilən simvollardan
sonra olan ixtiyari yazı şərhdir.
; - DNS BIND-da sətirin sonu deməkdir.

Oxucu tərəfindən kitabın başa düşülməsi üçün tələb edilən biliklər:
1. UNİX/Linux əməliyyat sistemlərində biliklərə sahib olmalı
2. CCNA şəbəkə səviyyəsinə sahib olmalıdır
3. Windows MCITP səviyyəsinə sahib olmalıdır

BÖLÜM 1

Proyektlərin idarə edilməsi sistemləri

- **Ubuntu 14.04 Redmine 3.0.1 yüklənməsi və quraşdırılması**
- **Ubuntu 14.04 x64 xWiki yuklənməsi və quraşdırılması**
- **xWiki Domain Controller ilə inteqrasiya edilməsi**

Hər hansısa bir proyektin bir neçə şöbə və ya bir neçə şirkətlə birgə kollektiv şəklində aparılmasında müəyyən problemlər ortaya çıxa bilər. Bunlardan bir neçəsini misal olaraq deyə bilərik. Məsələn sifarişçi yerinə yetirilən işin düzgün olmamasını, sifarişi qəbul edən tərəf isə əksinə görülən işin doğru olmasını bildirir və mübahisə yaranır. Bu problemlərin həlli üçün avtomatlaşdırılmış iş axını olmalıdır ki, hər iki tərəf özünə aid olan işin yazılı sübutuna sahib olsun. Başlığımız belə sistemlərin qurulmasını açıqlayır.

Ubuntu 14.04 Redmine 3.0.1 yüklənməsi və quraşdırılması

Redmine - proyektlərin və tapşırıqların idarə edilməsi(eynilə də səhvlərin izlənilməsi) üçün açıq qaynaqlı WEB proqram təminatıdır. WEB mühiti Ruby on Rails-ə əsaslır və Ruby-də yazılmışdır. Rəsmi saytı http://www.redmine.org/

Aşağıdakı bacarıqlara sahibdir:

- Proyekt və alt proyektlərin yaradılması
- Rollara əsaslanan dinamik hüquqlar sistemi
- Səhvlərin izlənilməsi sistemi
- Gantt diaqramları və təqvim
- Proyektin xəbərləri, sənədləri və fayllarının idarə edilməsinə imkan
- RSS axınlar və elektron məktubun köməkliyi ilə dəyişikliklər haqqında xəbərdarlıq
- Hər proyekt üçün wiki
- Hər proyekt üçün forum
- Müvəqqəti xərclərin hesabatı
- İnsidentlər, müvəqqəti xərclər, proyektlər və istifadəçilər üçün idarə edilən təsadüfi sütunlar
- Versiyanin idarə edilməsi(SVN, CVS, Git, Mercurial, Bazaar və Darcs) sistemləri ilə asan inteqrasiya
- Əldə edilmiş məktubların əsasında səhvlər haqqında yazıların yaradılması
- Çoxsaylı LDAP qeydiyyat metodu
- Yeni istifadəçilərin sərbəst qeydiyyatı imkanı
- Çoxdilli interfeys(həmçinin rus)
- Verilənlər bazası MySQL, Microsoft SQL Server [1], PostgreSQL, SQLite, Oracle-ın dəstəyi.

Qurulmasına başlayaq

Sistem yüklədikdə **sudo** istifadəçisi yaradılır və nəzərimizdə tuturuq ki, həmin istifadəçi adi **sysuser** və təyin etdiyimiz şifrəsini bilirik. Mütləq şəkildə bütün yüklənmə və quraşdırmaları sudo istifadəçisi adından etməliyik. Nəzərdə tutulur ki, siz Redmine-i daxili şəbəkənizdə qurursunuz və bu səbəbdən də PhpMyAdmin rahatçılıq üçün yüklənir(Əgər Public-də istifadə edəcəksinizsə, qətiyyən PhpMyAdmin yükləməyin).

Sistemi yeniləyirik:

```
sysuser@redmine:~$ sudo apt-get update && sudo apt-get upgrade -y
```

LAMP üçün tələb olunan paketləri və asılılığında olan bütün paketləri yükləyirik(Yalnız sizin halda PhpMyAdmin tələb edilməyə də bilər):

```
sysuser@redmine:~$ sudo apt-get install apache2 php5 libapache2-mod-php5
mysql-server php5-mysql phpmyadmin libapache2-mod-perl2 libcurl4-openssl-dev
libssl-dev apache2-prefork-dev libapr1-dev libaprutil1-dev libmysqlclient-dev
```

libmagickcore-dev libmagickwand-dev curl git-core patch build-essential bison zlib1g-dev libssl-dev libxml2-dev libxml2-dev sqlite3 libsqlite3-dev autotools-dev libxslt1-dev libyaml-0-2 autoconf automake libreadline6-dev libyaml-dev libtool imagemagick apache2-utils

Yüklənmə zamanı bizdən MySQL üçün root şifrəsinin təyin edilməsi istəniləcək(Şəkildə göstərildiyi kimi):



şifrəni təkrar daxil edirik:



PhpMyAdmin qurulması üçün WEB server apache seçirik:



PhpMyAdmin-in bazasını dbconfig-common ilə quraşdırırıq:



root istifadəçi üçün şifrəni daxil edirik ki, phpmyadmin adlı baza yaradıb lazımı cədvəl və sxemləri qurulsun.

Subversion yüklənməsi və quraşdırılması

```
sysuser@redmine:~$ sudo apt-get install subversion libapache2-svn
```

SVN üçün qovluq yaradırıq, həmin qovluq üçün web serverimizə yetki veririk və dav_svn modulunu aktivləşdiririk:

```
sysuser@redmine:~$ sudo mkdir -p /var/lib/svn
sysuser@redmine:~$ sudo chown -R www-data:www-data /var/lib/svn
sysuser@redmine:~$ sudo a2enmod dav_svn
```

Faylı açırıq:

```
sysuser@redmine:~$ sudo nano /etc/apache2/mods-enabled/dav_svn.conf
```

Və aşağıdakı sətirlərin qarşısından şərhi silirik:

```
<Location /svn>
    DAV svn
    SVNParentPath /var/lib/svn
    AuthType Basic
    AuthName "My repository"
    AuthUserFile /etc/apache2/dav_svn.passwd
    AuthzSVNAccessFile /etc/apache2/dav_svn.authz
    <LimitExcept GET PROFIND OPTIONS REPORT>
    Require valid-user
    </LimitExcept>
</Location>
```

SVN qeydiyyat modulunu aktivləşdiririk:

```
sysuser@redmine:~$ sudo a2enmod authz_svn
```

redmine istifadəçisini əlavə edirik ki, bu repository-dən oxuya bilsin:
sysuser@redmine:~$ sudo htpasswd -c /etc/apache2/dav_svn.passwd redmine
New password: **şifrə**
Re-type new password: **şifrə_tekrar**
Adding password for user **redmine**

Apache servisini yenidən işə salırıq:
sysuser@redmine:~$ sudo service apache2 restart
 * Restarting web server apache2   [OK]

Repository yaradırıq:
sysuser@redmine:~$ **sudo svnadmin create --fs-type fsfs /var/lib/svn/my_repository**
sysuser@redmine:~$ **sudo chown -R www-data:www-data /var/lib/svn**

Repository yetkisinin quraşdırılması üçün faylı açın:
sysuser@redmine:~$ **sudo nano /etc/apache2/dav_svn.authz**

redmine-in repository-ə yetki alması üçün quraşdırma faylında əlavə edirik(faylı yadda saxlayaraq çıxırıq):
[my_repository:/]
redmine = r

Ruby və Ruby on Rails-i yükləyirik
sysuser@redmine:~$ **sudo apt-get install ruby1.9.3 ruby1.9.1-dev ri1.9.1 libruby1.9.1 libssl-dev zlib1g-dev**

sysuser@redmine:~$ **sudo update-alternatives --install /usr/bin/ruby ruby /usr/bin/ruby1.9.1 400 **
**> --slave   /usr/share/man/man1/ruby.1.gz ruby.1.gz **
**> /usr/share/man/man1/ruby1.9.1.1.gz **
**> --slave   /usr/bin/ri ri /usr/bin/ri1.9.1 **
**> --slave   /usr/bin/irb irb /usr/bin/irb1.9.1 **
> --slave   /usr/bin/rdoc rdoc /usr/bin/rdoc1.9.1

Redmine-in yüklənməsi

Hal-hazırda yüklədiyimiz versiya 3.0.1-dir amma siz öz istədiyiniz versiyaya dəyişə bilərsiniz.

sysuser@redmine:~$ **cd /usr/share**
sysuser@redmine:/usr/share$ **sudo wget http://www.redmine.org/releases/redmine-3.0.1.tar.gz**

sysuser@redmine:/usr/share$ **sudo tar xvfz redmine-3.0.1.tar.gz**
sysuser@redmine:/usr/share$ **sudo rm redmine-3.0.1.tar.gz**
sysuser@redmine:/usr/share$ **sudo mv redmine-3.0.1/ redmine**
sysuser@redmine:/usr/share$ **sudo chown -R root:root /usr/share/redmine**
sysuser@redmine:/usr/share$ **sudo chown www-data /usr/share/redmine/config/environment.rb**

```
sysuser@redmine:/usr/share$ sudo ln -s /usr/share/redmine/public
/var/www/html/redmine
```

MySQL

RedMine qoşulub məlumatlarını yaza bilməsi üçün MySQL verilənlər bazası, istifadəçi adı və şifrə yaradırıq.

MySQL console-a daxil oluruq:

```
sysuser@redmine:/usr/share$ mysql -uroot -p'mysqlpass'
```

MySQL console-unda aşağıdakı əmrləri yerine yetiririk:

```
mysql> CREATE DATABASE redmine character SET utf8;
Query OK, 1 row affected (0.00 sec)

mysql> CREATE user 'redmine'@'localhost' IDENTIFIED BY 'redminedbpass';
Query OK, 0 rows affected (0.00 sec)

mysql> GRANT ALL privileges ON redmine.* TO 'redmine'@'localhost';
Query OK, 0 rows affected (0.00 sec)

mysql> FLUSH PRIVILEGES;
Query OK, 0 rows affected (0.00 sec)

mysql> \q
```

Redmine-in bazaya qoşulmasını konfiqurasiya edək:

```
sysuser@redmine:/usr/share$ sudo cp redmine/config/database.yml.example
redmine/config/database.yml
```

Verilənlər bazası quraşdırma faylını açırıq:

```
sysuser@redmine:/usr/share$ sudo nano redmine/config/database.yml
```

İstifadəçi adı, şifrə və verilənlər bazasının şifrəsini yaratdığımıza uyğun olaraq aşağıdakı şəkildəki kimi dəyişirik:

```
production:
  adapter: mysql2
  database: redmine
  host: localhost
  username: redmine
  password: "redminedbpass"
  encoding: utf8
```

Qururuq:

```
sysuser@redmine:/usr/share$ cd /usr/share/redmine/
sysuser@redmine:/usr/share/redmine$ sudo gem install bundler
sysuser@redmine:/usr/share/redmine$ sudo bundle install --without development
test postgresql sqlite
```

```
sysuser@redmine:/usr/share/redmine$ sudo rake generate_secret_token
sysuser@redmine:/usr/share/redmine$ sudo RAILS_ENV=production rake db:migrate
sysuser@redmine:/usr/share/redmine$ sudo RAILS_ENV=production rake
redmine:load_default_data
Select language: ar, az, bg, bs, ca, cs, da, de, el, en, en-GB, es, et, eu,
fa, fi, fr, gl, he, hr, hu, id, it, ja, ko, lt, lv, mk, mn, nl, no, pl, pt,
pt-BR, ro, ru, sk, sl, sq, sr, sr-YU, sv, th, tr, uk, vi, zh, zh-TW [en]ENTER

sysuser@redmine:/usr/share/redmine$ sudo mkdir public/plugin_assets
sysuser@redmine:/usr/share/redmine$ sudo chown -R www-data:www-data files log
tmp public/plugin_assets
sysuser@redmine:/usr/share/redmine$ sudo chmod -R 755 files log tmp
public/plugin_assets
```

Phusion Passenger yüklənilməsi

Phusion Passenger Ruby-nin dəstəklədiyi WEB serverdir. Dizayn edilmişdir ki, apache və nginx web serverlə birlikdə işləyə bilsin.

Phusion Passenger üçün Repository əlavə edirik:

```
sysuser@redmine:/usr/share/redmine$ sudo apt-key adv --keyserver
keyserver.ubuntu.com --recv-keys 561F9B9CAC40B2F7
sysuser@redmine:/usr/share/redmine$ sudo apt-get install apt-transport-https
ca-certificates
```

Yeni repository qquraşdırma faylını açırıq:

```
sysuser@redmine:/usr/share/redmine$ sudo nano
/etc/apt/sources.list.d/passenger.list
```

Aşağıdakı sətiri fayla əlavə edib yadda saxlayaraq çıxırıq:

```
deb https://oss-binaries.phusionpassenger.com/apt/passenger trusty main
```

Fayla uyğun olan yetkiləri təyin edirik:

```
sysuser@redmine:/usr/share/redmine$ sudo chown root:
/etc/apt/sources.list.d/passenger.list
sysuser@redmine:/usr/share/redmine$ sudo chmod 600
/etc/apt/sources.list.d/passenger.list
```

Yükləyirik

```
sysuser@redmine:/usr/share/redmine$ sudo apt-get update
sysuser@redmine:/usr/share/redmine$ sudo apt-get install libapache2-mod-
passenger
```

Qurulması:

passenger konfiqruasiya faylını açırıq:

```
sysuser@redmine:/usr/share/redmine$ sudo nano /etc/apache2/mods-
available/passenger.conf
```

PassengerDefaultUser www-data sətirini passenger quraşdırma faylına aşağıdakı şəkildə əlavə edirik:

```
<IfModule mod_passenger.c>
  PassengerRoot /usr/lib/ruby/vendor_ruby/phusion_passenger/locations.ini
  PassengerDefaultRuby /usr/bin/passenger_free_ruby
  PassengerDefaultUser www-data
</IfModule>
```

apache2 quraşdırma faylını açırıq:

```
sysuser@redmine:~$ sudo nano /etc/apache2/sites-available/000-default.conf
```

faylı aşağıdakı şəklə gətiririk (Faylda edilən dəyişikliklər yaşıl, əlavələr isə qırmızı rəngdə qeyd edilmişdir):

```
<VirtualHost *:80>
        ServerAdmin server.admin@email.com
        DocumentRoot /var/www/html/redmine
        ErrorLog ${APACHE_LOG_DIR}/error.log
        CustomLog ${APACHE_LOG_DIR}/access.log combined
</VirtualHost>
<Directory /var/www/html/redmine>
    RailsBaseURI /redmine
    PassengerResolveSymlinksInDocumentRoot on
</Directory>
```

Modulu aktivləşdiririk və apache servisi yenidən işə salırıq ki, dəyişikliklər işə düşə bilsin:

```
sysuser@redmine:~$ sudo a2enmod passenger
Module passenger already enabled
sysuser@redmine:~$ sudo service apache2 restart
 * Restarting web server apache2        [ OK ]
```

Redmine-i işə salırıq

Artıq redmine-in web səhifəsinə http://server_IP/ yazmaqla daxil ola bilərsiniz.



Login: **admin**
Pass: **admin**

eMail quraşdıraq

SMTP və şifrələnmə üçün fayl yaradırıq

Quraşdırma faylını açırıq:

```
sysuser@redmine:~$ sudo nano /usr/share/redmine/config/configuration.yml
```

Aşağıdakı sətirləri yaratdığımız redmine email quraşdırma faylına əlavə edirik:

```
production:
  email_delivery:
    delivery_method: :smtp
    smtp_settings:
      enable_starttls_auto: true
      address: "smtp.gmail.com"
      port: '587'
      domain: "smtp.gmail.com"
      authentication: :plain
      user_name: "redmine@gmail.com"
      password: "remineemailpass"
```

Siz email-in işlənməsini WEB interfeysdə yoxlaya bilərsiniz. Haqqında ətraflı aşağıda danışacayıq.

Subversion repository-sinə baxışın avtomatik yenilənməsi

Web interfeys üzərindən proyektin arxiv quraşdırmalarında aktivləşdirilməsinə və api açarın generasiya edilməsinə gərək var.

Göstərilən crontab redmine-i hal-hazırkı subversion-a hər 15 dəqiqədən bir yenileyir. Aşağıdakı əmrlə istifadəçinin cron faylına daxil oluruq:
sysuser@redmine:~$ **sudo crontab -e**

cron sətirini fayla əlavə edirik:
***/15 * * * * curl "http://server_IP/sys/fetch_changesets?key=APIKEY" > /dev/null**

Redmine WEB interfeysin ilkin quraşdırmaları

Web səhifəmizə admin istifadəçi adı və admin şifrəsi ilə daxil olduqdan sonra, ilk işimiz şifrənin dəyişdirilməsidir. Bunun üçün **Administration** -> **Users** -> **admin** seçirik və aşağıdakı şəkildəki kimi şifrəni iki dəfə təkrar daxil etdikdən sonra, **Save** düyməsinə sıxırıq (Həmçinin admin istifadəçisi üçün vaxt enliyi, email və dil kimi imkanları da seçə bilərsiniz):



Email-in göndərilməsini sınaqdan keçirmək üçün bəzi səliqə işləri görmək lazımdır. Bunun üçün WEB səhifədə **Administration** -> **Settings** -> **Geteral** Tab altında öz WEB ünvanınızı daxil edib **Save** düyməsinə sıxmalısınız.

Sonra WEB interfeysdə **Administration** -> **Settings** -> **Email notifications** unvanına daxil oluruq və **Send a test email** düyməsinə sıxmaqla hansı istifadəçi adı ilə sistemə daxil olmuşduqsa o istifadəçinin quraşdırmalarında olan email ünvanına aşağıdakı mətn-lə məktub yollanacaq:

```
This is a test email sent by Redmine.
Redmine URL: http://redmine.opensource.az/
```

Redmine Active Directory Integration

Deyək ki, sizin şirkətinizin daxilində artiq mövcud DC quraşdırılmışdır və şirkətin tələbi ondan ibarətdir ki, istənilən portala giriş eyni istifadəçi hesabları mənbəsindən götürülməlidir(Single Sign On). Bu halda siz RedMine-i Active Directory ilə inteqrasiya etməlisiniz. Həmçinin tələb ondan ibarətdir ki, Redmine-a yalnız seçilmiş DC qrupda olan istifadəçilər daxil ola bilərlər. Gəlin işimizə başlayaq. Sınaqlarımızda Windows 2012 server R2 Standart x64 istifadə edilmişdir.

DC FQDN: **domain.lan**

Öncə bir OU yaradırıq ki, müəssisəmizə aid olan qruplar həmin qrupda cəmlənsin. Sonra həmin OU-nin içində bir qrup yaradaq ki, yalnız bu qrup üzvlüyündə olan istifadəçilər redmine-a daxil ola bilsinlər. Windows serverdə **Server Manager** -> **Active Directory Users and Computers** -> DC FQDN üstündə sağ düyməni sıxırıq (yəni **domain.lan**) -> **New** -> **Organizational Unit** və aşağıdakı şəkildəki kimi, **OpSO Groups** adlı **OU** yaradırıq.



Sonra bu **OpSO Groups** OU üstündə sağ düyməni sıxırıq **New** -> **Group** və şəkildəki kimi, qrupun adını **RemineUsers** yazıb, **OK** düyməsini sıxırıq.

Sonra sınaqlarımızı keçirə bilməmiz üçün iki ədəd istifadəçi yaradırıq və bir istifadəçini həmin qrupun üzvü edirik, digərini isə yox.

Server Manager -> **Active Directory Users and Computers** -> DC FQDN üstündə sağ düyməni sıxırıq(yəni **domain.lan**) -> **New** -> **User** və şəkildəki kimi istifadəçiyə müəyyən ad və şifrə təyin edib **Next** düyməsini sıxırıq. Şifrəni daxil edirik və şifrənin vaxtının heç bir zaman bitməməsini seçiv **ok** düyməsini sıxırıq.



Eyni işi ikinci istifadəçi üçün edirik:



Sonra yaratdığımız **RedmineUser** qrupun üstündə sağ düyməni sıxırıq və **Properties** -> **Members** bölümünə daxil oluruq -> **Add** düyməsini sıxırıq və şəkildə göründüyü kimi, **reduser1** daxil edib, **Check Names** düyməsi ilə axtardıqdan sonra **Ok -> OK** düyməsini sıxırıq.



Redmine-in LDAP-la inteqrasiyasında qrup süzgəci üçün bizə qrupun Distinguised Name-i tələb olunacaq. Bunun üçün **Server Manager** -> **Active Directory Users and Computers** -> **View** -> **Advanced Features** bölümünə daxil olmaq lazımdır (şəkildəki kimi).



Sonra yaratdığımız **RedmineUser** qrupun üstündə sağ düyməni sıxıb **Properties** -> **Attribute Editor** bölümünə daxil olub, **distinguished Name** sətirini tapmaq lazımdır (Şəkildəki kimi).



distinguished Name sətirin üstündə iki defe sıxırıq və şəkildəki məzmuna uyğun məlumatı nüsxələyirik:



Nüsxələdiyimiz məlumat aşağıdakından ibarətdir(Bu məlumat bizə qrupun süzgəcində tələb olunacaq):

CN=RedmineUsers,OU=OpSO Groups,DC=domain,DC=lan

Qeyd: Unutmayın Redmine DC-ni resolve etməsi üçün DC DNS-ni öz **/etc/resolv.conf** faylında yazmalıdır. Öz sınaqlarımda DC IP **10.50.3.158** idi və **resolv.conf** faylında **nameserver 10.50.3.158** idi.

Artıq gedirik redmine web səhifəsinin qurulmasına. http://server_IP/ ünvanına daxil oluruq. **Administration -> LDAP authentication -> New authentication mode** düyməsini sıxırıq və açılan pəncərədə xanaları şəkildəkinə uyğun olaraq doldurub, **Create** düyməsini sıxırıq (**LDAP Filter** xanasına fikir versəniz görəcəksiniz ki, bayaq nüsxələdiyimiz DN-i yazmışıq).



Uğurla yaradıldığı halda aşağıdakı şəkil çap edilir. Sınaq üçün **Test** düyməsini sıxıb yoxlaya bilərsiniz.

Uğurlu sınaq aşağıdakı cavabı verməlidir:



RedMine serverdə LDAP alətlərindən istifadə müəyyən sınaqları edə bilərsiniz. Bu paket vasitəsilə serverimizin LDAP-a uğurlu qoşulmasını və qrupun axtarışını sınaqdan keçirə bilərik.

```
root@redmine:~# apt-get install ldap-utils
```

Əgər DC-də **redmineusers** kriteriyasına əsaslanaraq axtarış etmək istəsək aşağıdakı əmrdən istifadə edirik:

```
root@redmine:~# ldapsearch -x -b  "dc=domain,dc=lan" -H ldap://domain.lan/ -D "DOMAIN\Administrator" -w A123456789a redmineusers
```

Nəticədə aşağıdakı sətirlər sizin ekrana çap edilməlidir:

```
# RedmineUsers, OpSO Groups, domain.lan
dn: CN=RedmineUsers,OU=OpSO Groups,DC=domain,DC=lan
```

Artıq yalnız DC-də təyin etdiyimiz qrupda olan istifadəçilər redmine-a daxil olub istifadə edə biləcəklər.

Ubuntu 14.04 x64 xWiki yuklənməsi və quraşdırılması

xWiki - Javada yazılmış açıq qaynaqlı genişlənə bilən dizayna sahib bir wiki proqram platformasıdır. Wiki proqramı olaraq, strukturlaşmış datanın saxlanılması və server tərəfdə olan scriptlərin wiki interfeysində işə salınması imkana sahibdir. Script dilləri wiki macros-ları istifadə edilərək, Velocity, Groovy, Python, Ruby və PHP daxil olmaqla birbaşa wiki səhifələrinin içində yazıla bilər.

Aşağıdakı imkanlara sahıbdir:

- Wiki proqramlarının ququrlmasın imkan yaradan strukturlaşmış mətn və

daxili script yazma.

- İstifadəçi hüquqlarının idarə edilməsi
- PDF export
- Tam-mətn axtarışı
- Versiya kontrolu
- Ofis sənədlərinin OpenOffice üzərindən wiki sintaksisinə İmport edilməsi
- Wiki-yə yetki almaq üçün çeşidli protokollar(WebDAV, REST, XmlRpc, GWT)
- Tərkib, sayt dizaynı, Export və Import
- Pluginlər, APİ
- Bütün imkanları rəsmi saytından http://www.xwiki.org/ əldə edilə bilər

Qurulmasına başlayaq

Öncədən qeyd edim ki, siz **Ubuntu-Tomcat7-http-https.docx** sənədi ilə tomcat7-ni yükləyib quraşdırmalısınız və yalnız bundan sonra xWiki yüklənməsinə baxmalısınız. Çünki xWiki **Tomcat7**, **MySQL** və **JDBC-MySQL-Connector** ilə işləyir. Həmçinin xWiki tomcat-in susmaya görə quraşdırmasında olduğu RAM həcmindən çox həcm istifadə etdiyine görə aşağıdakı quraşdırmanı mütləq etməlisiniz:

```
vi /etc/default/tomcat7 # Faylda JAVA_OPTS dəyişəninə qeyd qoyub aşağıdakı
                        dəyişəni əlavə edirik
JAVA_OPTS="-Xmx1024m -Xms1024m"

/etc/init.d/tomcat7 restart          # Servisi yenidən başladırıq ki,
                                     dəyişiklik işə düşsün
```

Yuxarıda göstərilən sənədi tam olaraq oxuyub lazım olanları quraşdırdıqdan sonra isə, MySQL-i serverimizə yükləyirik (root şifrəmizi iki dəfə daxil edirik):

```
apt-get install mysql-server-5.5
```





Sonra **mysql-connector-java-5.1.31-bin.jar** və **xwiki-enterprise-web-6.1.war** fayllarını serverimizə yükləyirik. **xwiki-enterprise-web-6.1.war** faylını **/var/lib/tomcat7/webapps** qovluğuna **xwiki.war** adı ilə köçürürük.

```
cp /home/jamal/xwiki-enterprise-web-6.1.war
/var/lib/tomcat7/webapps/xwiki.war
```

Ardınca isə **mysql-connector-java-5.1.31-bin.jar** faylını **/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/lib** ünvanına köçürürük.

```
cp /home/jamal/mysql-connector-java-5.1.31-bin.jar
/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/lib
```

CLI-dan xWiki üçün MySQL baza, login və şifrə yaradırıq:

```
mysql -u root -pfreebsd -e "create database xwiki default character set utf8
collate utf8_bin"
mysql -u root -pfreebsd -e "grant all privileges on xwiki.* to
xwiki@localhost identified by 'freebsd'"
```

Əmin olun ki, **/etc/hosts** faylında **127.0.0.1 localhost** sətiri mövcuddur.

Sonra **/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/hibernate.cfg.xml** faylında yaratdığımız MySQL istifadəçi, şifrəsini və bazasını quraşdırırıq. HSQLDB-ni şərh edirik. MySQL üçün isə şərhi silib lazımı baza, istifadəçi adı və şifrəni daxil edirik. Tomcat üçün şərh **<!--** ilə başlayır **-->** ilə bitir.

```
    <property name="connection.url">jdbc:mysql://localhost/xwiki</property>
    <property name="connection.username">xwiki</property>
    <property name="connection.password">freebsd</property>
    <property name="connection.driver_class">com.mysql.jdbc.Driver</property>
    <property
name="dialect">org.hibernate.dialect.MySQL5InnoDBDialect</property>
    <property name="dbcp.ps.maxActive">20</property>
    <mapping resource="xwiki.hbm.xml"/>
    <mapping resource="feeds.hbm.xml"/>
    <mapping resource="activitystream.hbm.xml"/>
    <mapping resource="instance.hbm.xml"/>
```

Admin istifadəçi və şifrəni təyin etmək üçün isə **/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/xwiki.cfg** faylında aşağıdakı sətirdə olduğu kimi şərhi silib, **superadmin** istifadəçisinə şifrə yazırıq (Şifrəmiz **freebsd** olacaq):

```
xwiki.superadminpassword=freebsd
```

```
/etc/init.d/tomcat7 restart          # Sonda tomcat7-ni restart edirik
```

https://server-ip-address/xwiki/ # xWiki interfeysimizə daxil oluruq. Aşağıdakı şəkil çap ediləcək



CONTINUE seçirik.



INSTALL seçirik.

Şəkildə göründüyü kimi yüklənmə bitir və **CONTINUE** seçirik:



Sonda yüklənmə bitdikden sonra sessiya bizi atacaq və yeniden login olmağı təklif edəcək. Şəkildəki kimi **Yes** sıxırıq:



Aşağıdakı kimi səhifə çap olunacaq. **superadmin** istifadəçi adı və şifrəni daxil edirik.



Sonda bir dənə yenidən şəkil çap ediləcək, orda da **CONTINUE** sıxırıq və aşağıdakı şəkil çap edilir:



Yenidən **CONTINUE** sıxırıq və yüklənmə bitir.
Uğurlu nəticədə aşağıdakı şəkil çap edilməlidir:



xWiki Domain Controller ilə inteqrasiya edilməsi

xWiki serverimizi DC ilə inteqrasiya eləmək üçün biz aşağıdakı quraşdırmaları etməliyik.

DC haqqında öncədən lazımı məlumatları verək:
DC Name: **DOMAİN.LAN**
xWiki GROUP Name: **xWikiMembers**
DC Auth User: **Administrator**
DC Auth Pass: **A123456789a**

DC-mizdə lazımı istifadəçiləri xWikiMembers qrupuna əlavə edirik ki, daxil ola bilsinlər.

/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/xwiki.cfg # Faylda aşağıdakı sətirləri uyğun olaraq quraşdırırıq

```
xwiki.authentication.authclass=com.xpn.xwiki.user.impl.LDAP.XWikiLDAPAuthServiceImpl
xwiki.authentication.ldap=1
xwiki.authentication.ldap.server=domain.lan
xwiki.authentication.ldap.port=389
xwiki.authentication.ldap.bind_DN=domain\\{0}
xwiki.authentication.ldap.bind_pass={1}
xwiki.authentication.ldap.base_DN=DC=domain,DC=lan
xwiki.authentication.ldap.user_group=CN=xWikiMembers,
OU=OpSO Groups,DC=domain,DC=lan
xwiki.authentication.ldap.UID_attr=sAMAccountName
xwiki.authentication.ldap.fields_mapping=name=sAMAccountName,last_name=sn,first_name=givenName,fullname=displayName,email=mail,ldap_dn=dn
xwiki.authentication.ldap.update_user=1
xwiki.authentication.ldap.trylocal=0
```

/var/lib/tomcat7/webapps/xwiki/WEB-INF/xwiki.properties # Faylda aşağıdakı sətirləri uyğun olaraq quraşdırırıq(Qovluqlar yoxdursa yaradırıq və tomcat7 user,qrup üzvü edirik)

```
environment.permanentDirectory=/var/cache/tomcat7/Catalina/localhost/xwiki/
solr.embedded.home=/var/cache/tomcat7/Catalina/localhost/xwiki/solr
```

/etc/init.d/tomcat7 restart # Sonda tomcat7-ni restart edirik

BÖLÜM 2

Bulud sistemləri

- **FreeBSD 10.2 x64 server üzərində OwnCloud yüklənməsi və qurulması**
- **OwnCloud-un Domain Controller ilə integrasiya edilməsi**
- **FreeBSD 10.1 x64 Pydio Cloud qurulması**

Şirkətin daxili tələbləri genişləndikcə, informasiya önəmliliyi və təhlükəsizliyi tələbləri böyüməyə başlayır. Eynilə istifadəçilərin arasıda informasiya paylaşımı komfortu tələbi də yaranır. Misal üçün paylaşım Domain Controllerdə olan istifadəçi və qruplar arasında seçimə görə, xüsusi keşlə generasiya edilmiş URL-ə(Bu URL-lə şifrə təyin edilməsi imkanı var) görə, paylaşılmış ünvana paylaşım vaxtının bitməsi tarixinin təyin edilməsinə görə və vaxtın bitməsi zamanı məktubla xəbərdarlığın edilməsinə görə bacarıqlara sahibdir. Bu tip tələbləri qarşılayan tanıdığımız DropBox və GoogleDrive mövzuddur. Başlığımızım mövzuları eyni tələbləri qarşılayan açıq qaynaqlı proqram təminatları haqqındadır.

FreeBSD 10.2 x64 server üzərində OwnCloud yüklənməsi və qurulması

ownCloud — məlumatların sinxronlaşdırması, faylların paylaşılması və sənədlərin uzaq serverdə saxlanılması üçün açıq qaynaqlı web proqram təminatıdır.

ownCloud PHP və JavaScript proqramlaşdırma dillərində yazılmışdır. OwnCloud serveri SQLite, MariaDB, MySQL, Oracle və PostgreSQL məlumat bazalarıyla inteqrasiya edilib işlədilə bilər.

KDE yaradıcılarından biri, Karliçek Frank məlumatların saxlanılması üçün ticari xidmətlərinə pulsuz alternativ kimi 2010-cu ilin yanvarında ownCloud-un hazırlanmasına başladı. Ticari fayl mübadiləsi xidmətlərindən fərqli olaraq, ownCloud-u əlavə xərclər tələb etmədən, şəxsi serverə yükləmək olar.

Məlumatların sinxronlaşdırmasında Windows, Mac OS, Linux və həmçinin iOS, Android mobil əməliyyat sistemləri üçün müştəri proqramlarına sahibdir. Eynilə saxlanılmış məlumatlar OwnCloud web-interfeysinin köməyi ilə istifadə edilə bilər.

ownCloud artıq Debian GNU Linux anbarına əlavə edilmiş və Gnome iş stoluna inteqrasiya edilmişdir.

İmkanları:

- Faylların adi qovluqlar strukturunda ya da WebDAV istifadə edilərək saxlanılması.
- Şifrələnmə
- İstənilən Windows(Windows XP, Vista, 7 və 8), Mac OS X (10.6 və ya daha yeni) ya da Linux desktoplar arasında sinxronizasiya
- Təqvim(Həmçinin CalDAV)
- Məsələlərin planlaşdırıcısı
- Ünvan kitabçası(Həmçinin CardDAV)
- Axınlı multimedia(Ampache istifadə edilir)
- İstifadəçi və qrupların idarə edilməsi(OpenID ya da LDAP istifadə edərək)
- Kontentin qruplar, istifadəçilər ya da dünya URL vasitəsilə paylaşdırılması
- Sintaksis göstəricisi və qatlanmayla onlayn mətn redaktoru
- Əlfəcinlər
- URL-in qısaldılması mexanizmi
- Şəkil qalereyası
- PDF sənədlərə baxış(PDF.js istifadə edilir)
- ODF faylllara baxış(.odt, .odp, .ods)
- Jurnallanma modulu

İndi isə biz FreeBSD OS-da bu proqram təminatını yükləyib quraşdıracayıq. Clientlər isə şifrələnmiş kanal üzərindən öz məlumatlarını serverə yükləyəcəklər.

192.168.11.200 - Serverimizin IP ünvanı
owncloud.az - Serverimizin HostName-i

Qeyd: Mütləq **/etc/hosts** faylına nəzərinizdə tutduğunuz adı uyğun IP ilə əlavə edin. Əks halda errorlar çap
ediləcək.

```
cat /etc/hosts          # Hosts faylimiz
127.0.0.1               localhost localhost.my.domain
192.168.11.200          owncloud.az owncloud
```

Öncə Web Serveri və PHP-ni yükləyək.

```
cd `whereis apache22 | awk '{ print $2 }'`# Apache-ın portuna daxil oluruq.
make config                               # Lazımı modulları seçirik.
```




```
make install                              # Yükləyirik.
```

```
cd `whereis php5 | awk '{ print $2 }'`    # PHP5 portuna daxil oluruq.
make config                               # Lazımı modulları seçirik.
```



make install # Yükləyirik

Ümumiyyətlə OwnCloud üçün tələb edilən bütün php genişlənmələri tampaq üçün öncə ona aid olan Makefile-ın içini mütləq oxumaq lazımdır. Tünd qara simvollar tələb edilən modullardır.

```
root@owncloud:/usr/local/etc # cat /usr/ports/www/owncloud/Makefile
# $FreeBSD: www/owncloud/Makefile 336609 2013-12-16 05:57:04Z kevlo $

PORTNAME=       owncloud
PORTVERSION=    6.0.0a
CATEGORIES=     www
MASTER_SITES=   http://download.owncloud.org/community/

MAINTAINER=     kevlo@FreeBSD.org
COMMENT=        Personal cloud which runs on your own server

LICENSE=        AGPLv3

BUILD_DEPENDS=  mp3info:${PORTSDIR}/audio/mp3info
RUN_DEPENDS:=   ${BUILD_DEPENDS}

USE_BZIP2=      yes
USE_PHP=        ctype curl dom fileinfo filter gd hash iconv json ldap \
                mbstring openssl pdo session simplexml xml xmlreader \
                xsl wddx zip zlib
WANT_PHP_WEB=   yes

WRKSRC=         ${WRKDIR}/${PORTNAME}
NO_BUILD=       yes
SUB_FILES=      pkg-message

OPTIONS_MULTI=  DB
OPTIONS_MULTI_DB=       MYSQL PGSQL SQLITE
OPTIONS_DEFAULT=        SQLITE
MYSQL_USE=      MYSQL=client PHP=mysql,pdo_mysql
PGSQL_USE=      PGSQL=yes PHP=pdo_pgsql,pgsql
SQLITE_USE=     PHP=pdo_sqlite,sqlite3
```

```
do-install:
        @${MKDIR} -m 0755 ${STAGEDIR}${WWWDIR}
        @cd ${WRKSRC} && ${COPYTREE_SHARE} . ${STAGEDIR}${WWWDIR}

.include <bsd.port.mk>
```

PHP üçün Lazımı genişlənmələri yükləyək.

```
cd `whereis php5-extensions | awk '{ print $2 }'`      # Portuna daxil oluruq.
make config                                            # Lazımı modulları seçirik.
```


```
make -DBATCH install                                   # Yükləyirik
```

OwnCloud-u yükləyək.

```
cd `whereis owncloud | awk '{ print $2 }'` # OwnCloud-un ünvanına daxil oluruq
make install                               # Yükləyirik.
```

Servislərimizi Startup-a əlavə edək və işə salaq.

```
echo 'apache22_enable="YES"' >> /etc/rc.conf
echo 'apache22ssl_enable="YES"' >> /etc/rc.conf

cd `whereis mysql55-server | awk '{ print $2 }'`       # MySQL-i yükləyək
make config                                            # Lazımı modulları seçək
```



```
make install                                    # Yükləyirik

echo 'mysql_enable="YES"' >> /etc/rc.conf       # Startup-a əlavə edək


/usr/local/etc/rc.d/mysql-server start    # MySQL-i işə salırıq.
/usr/local/etc/rc.d/apache22 start        # Apache22-ni işə salırıq.
```

Aşağıdakı sətirləri WEB Serverimizin configinə əlavə edək ki, həm PHP işləsin həmdə VirtualHost-ları aktiv edək.

```
echo 'AddType application/x-httpd-php .php' >> /usr/local/etc/apache22/httpd.conf
echo 'AddType application/x-httpd-php-source .phps' >> /usr/local/etc/apache22/httpd.conf

echo 'Include /usr/local/domen/*' >> /usr/local/etc/apache22/httpd.conf
```

Həmçinin **'/usr/local/etc/apache22/httpd.conf'** faylından **DirectoryIndex** sətirinin qarşısına **index.php** əlavə edirik ki, PHP scriptlər ilk index edənlərdən olsun.

```
mkdir -p /usr/local/domen/          # VirtualHost-lar üçün qovluq yaradaq.
```

OwnCloud üçün VirtualHost faylı yaradaq və aşağıdakıları içinə əlavə edək

```
cat /usr/local/domen/owncloud.az
<VirtualHost *:80>
        RewriteEngine on
        ReWriteCond %{SERVER_PORT} !^443$
        RewriteRule ^/(.*) https://%{HTTP_HOST}/$1 [NC,R,L]
</VirtualHost>
<VirtualHost *:443>
        SSLEngine on
        SSLCertificateFile /usr/local/etc/apache22/ssl/owncloud.pem
        SSLCertificateKeyFile /usr/local/etc/apache22/ssl/owncloud.key
        DocumentRoot /usr/local/www/owncloud/
<Directory "/usr/local/www/owncloud">
 AllowOverride All
 order allow,deny
 Allow from all
</Directory>
</VirtualHost>

mkdir /usr/local/etc/apache22/ssl/  # Sertifikatımız üçün qovluq yaradaq.
cd /usr/local/etc/apache22/ssl/     # Ünvana daxil oluruq ki, sertifikatı
                                    orda yaradaq.
```

Sertifikatı aşağıdakı verilənlərlə generasiya edirik.

```
openssl req -new -x509 -days 365 -nodes -out
/usr/local/etc/apache22/ssl/owncloud.pem -keyout
/usr/local/etc/apache22/ssl/owncloud.key
Generating a 1024 bit RSA private key
.........++++++
```

```
.............++++++
writing new private key to '/usr/local/etc/apache22/ssl/owncloud.key'
-----
You are about to be asked to enter information that will be incorporated
into your certificate request.
What you are about to enter is what is called a Distinguished Name or a DN.
There are quite a few fields but you can leave some blank
For some fields there will be a default value,
If you enter '.', the field will be left blank.
-----
Country Name (2 letter code) [AU]:AZ
State or Province Name (full name) [Some-State]:Baku
Locality Name (eg, city) []:Xatai
Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:OpSO
Organizational Unit Name (eg, section) []:IT
Common Name (e.g. server FQDN or YOUR name) []:owncloud.az
Email Address []:admin.admin@owncloud.az
```

Lazımı unvanlara lazımı yetkiləri verək.

```
chown -R www:www /usr/local/etc/apache22/ssl/
chown -R www:www /usr/local/www/owncloud/
chmod -R 600 /usr/local/etc/apache22/ssl/
chown -R www:www /usr/local/domen/
```

/usr/local/etc/apache22/httpd.conf faylında da 443-cü port üçün Listen əlavə edib restart edin ki, https işləsin.

```
Listen 80
Listen 443
```

Qeyd: Əgər siz apache24-den istifadə edirsınızsə, **/usr/local/etc/apache24/httpd.conf** faylında aşağıdakı sətirlərin qarşısından şərhi silməyi unutmayın:

```
LoadModule rewrite_module libexec/apache24/mod_rewrite.so
LoadModule ssl_module libexec/apache24/mod_ssl.so
LoadModule dav_module libexec/apache24/mod_dav.so
LoadModule vhost_alias_module libexec/apache24/mod_vhost_alias.so
```

Qeyd: Həmçinin apache24-də **/usr/local/dome/bvimcloud.domain.az** vhost config faylı aşağıdakı kimi olacaq:

```
<VirtualHost *:80>
        RewriteEngine on
        ReWriteCond %{SERVER_PORT} !^443$
        RewriteRule ^/(.*) https://%{HTTP_HOST}/$1 [NC,R,L]
</VirtualHost>
<VirtualHost *:443>
        SSLEngine on
        SSLCertificateFile /usr/local/etc/apache24/ssl/bvimcloud.pem
        SSLCertificateKeyFile /usr/local/etc/apache24/ssl/bvimcloud.key
        DocumentRoot /usr/local/www/owncloud/
<Directory "/usr/local/www/owncloud">
```

```
 AllowOverride All
 Require all granted
</Directory>
</VirtualHost>
```

```
cp /usr/local/etc/php.ini-production /usr/local/etc/php.ini # php quraşdırma
                                                            faylını düzəldək
```

/usr/local/etc/php.ini faylın içində aşağıdakı sətiri uyğun olaraq edək:

```
date.timezone = 'Asia/Baku'
```

OwnCloud üçün MySQL-de baza istifadəçi adı və şifrə yaradaq.

```
mysqladmin -u root -h localhost password 'freebsd' # MySQL-in root
                                                     istifadəçisi üçün şifrə
                                                     təyin edək.
```

```
mysql -uroot -p'freebsd'              # MySQL-e daxil olaq ve baza yaradaq.
mysql> CREATE DATABASE owncloud;      # Bazanı yaradırıq.
```

owncloud istifadəçisini yaradırıq və owncloud bazasına localhost-dan yetki veririk.

```
mysql> GRANT ALL PRIVILEGES ON owncloud.* TO 'owncloud'@'localhost'
IDENTIFIED BY "freebsd";
```

Yetkiləri FLUSH edək ki, aktivləşsin

```
mysql> FLUSH PRIVILEGES;
```

Sonra OWNCLOUD-un istifadəçiləri üçün Global qovluq yaradırıq və web server üçün yetki veririk.

```
mkdir /home/owncloud_data
chown -R www:www /home/owncloud_data
```

Sonra Windows maşınımızda test üçün **c:\windows\system32\drivers\etc\hosts** faylına Aşağıdakı sətiri əlavə edirik.

```
192.168.11.200 owncloud.az
```

Windows maşınımızın Browserinde http://owncloud.az daxil edirik və görürük ki, https linkinə forward edilirik. Şəkildə gorunduyu kimi, admin user və parol, həmçinin MySQL bazası üçün verilənlərini daxil edib **Finish setup** düyməsinə sıxırıq.

Mənim halımda 7.2.1 release idi və aşağıdakı fayl tələb edilirdi:

```
touch /home/owncloud_data/.ocdata
```

Həmçinin OwnCloud üçün nəzərdə tutduğumuz data qovluğu üçün **www** istifadəçisi və qrupuna yetki veririk:

```
chown -R www:www /home/owncloud_data/
```

Eynilə **php5-bcmath** modulu tələb edilirdi:

```
cd /usr/ports/math/php5-bcmath            # Port ünvanına daxil oluruq
make install                              # Yükləyirik
```



Sonra isə aşağıdakı şəkil çıxdısa demək hərşey əladır.



Artıq istifadəçiləri yaradaq və sinxronizasiya üçün yer verək. Sağ tərəfdə **admin -> Users** düyməsinə sıxırıq.



Sonra **Groups -> add group** düyməsini sıxırıq və istifadəçilər adlı qrup yaradırıq. Həmin səhifədə **kamil** adli istifadəçisi və **parol** daxil edib **istifadəçilər** qrupunu seçirik və **Create** düyməsinə sıxırıq.



Sonra **kamil** adli istifadəçiyə 1GB yer istifadə etmək imkani veririk.



Sonra isə Windows maşınımızda Client proqramını yükləyək və sınaqdan keçirək. Yüklənmə proseduru çox asandır. Sadəcə **Full install** seçirik və **Next** düyməsinə sıxırıq. Sonda **'Run owncloud'** seçib **Finish** edirik. Açılan səhifədə serverimizin adını vəya IP ünvanını daxil edirik(Bizim halda **https://owncloud.az**).

Çixan səhifədə **'Trust Certificate anyway'** seçib **OK** düyməsinə sıxırıq. Şəkildəki kimi.



İstifadəçi adı və **şifrəni** daxil edib **Next** düyməsinə sıxırıq.



Uyğun qovluğumuzu seçirik və **Connect** düyməsinə sıxırıq. Şəkildəki kimi.



Sonda aşağıdakı şəkildəki kimi nəticə əldə etmiş olacağıq. Artıq kamil adlı istifadəçi öz kompunda, **F:\Owncloud** adlı folderə nə informasiya atsa o avtomatik olaraq https://192.168.11.200 serverine sinxronizasiya ediləcək.



Sinxronizasiya aşağıdakı şəkildeki kimi gedəcək.



Nəhayət sonda müəyyən sinxronizasiya bitdikdən sonra aşağıdakı şəkil çap ediləcək. Bununla da OwnCloud serverimiz test edilmiş olacaq.



WebDav qoşub Browser Clientlərdən istifadə eləmək istəsəniz bu linkdən http://doc.owncloud.org/server/5.0/user_manual/files/files.html yararlana bilərsiniz.

OwnCloud-un Domain Controller ilə integrasiya edilməsi

OwnCloud-u FreeBSD maşına yüklədikdən sonra, WEB ilə lazımı linkə daxil olursunuz və sol tərəf aşağıda **Apps** düyməsinə sıxırsınız(Şəkildəki kimi):



Sonra isə LDAP üçün lazım olan App-ı enable eləmək lazımdır. Mənim halımda artıq Enable etdiyimə görə şəkildə disable düyməsi aktiv formada görünəcək.



Sonra isə sistemi yüklədiyimizdə yaratdığımız **ownadmin** userin **Admin** interfeysinə daxil oluruq(Şəkildəki kimi).



Bizim Domain Controllerimiz üçün verilənlər aşağıdakılardır:

DC: **DOMAIN.LAN (Port Ldap: 389)**
Domain Admin: **DCADM**
Domain Admin Pass: **freebsd**
Cloud istifadəçilər üçün qrup: **OwnCloudMembers**

Öncə **Server** başlığında Şəkildə göstərildiyi kimi məlumatları yerləşdiririk və **Continue** düyməsinə sıxırıq(Şəkildəki kimi).
domain.lan 389
CN=DCADM,CN=Users,DC=DOMAIN,DC=lan
Shifre
DC=DOMAIN,DC=lan

Sonra **User Filter** TAB-ına daxil oluruq və heç bir class seçmədən sadəcə bizə lazım olan istifadəçilərin yerləşdiyi qrupu seçirik. Yeni **OwnCloudMembers** qrupunu(Şəkildəki kimi):



yada ki, **Edit raw filter instead** düyməsini sıxıb, lazımı LDAP filteri özünüz yaza bilərsiniz.
Misal üçün **(memberOf=CN=OwnCloudMembers,OU=Company Groups,OU=Company,DC=domain,DC=lan)** sintaksisi ilə **domain.lan** DC-də **Company Groups, Company** OU-da olan və yalnız **OwnCloudMembers** qrupunun bütün üzvlərinin Cloud-dan istifadəsinə izin veririk. Misal üçün Domain.LAN DC-sində aşağıdaki şəkildəki kimi edirik:



Login Filter bölümündə **LDAP Username**-i seçmirik və **Other Attributes**-de **sAMAccountName** seçirik(Şəkildəki kimi):



Group Filter-de **Object Flass** olaraq **group** seçirik və **only from those groups**-da **OwnCloudMembers** qrupunu seçirik(Şəkildəki kimi):



Advanced-e daxil oluruq və **Connections Settings**-de **Configuration Active** və **Turn off SSL certificate validation** seçirik



Advanced bölümündə **Directory Settings**-de şəkilde göstərilən verilənlər seçilir və mütləq **Group-Member association: uniqueMember** seçilir:



Advanced-de Special Attributes-də heç bir şey əlavə edilmir və boş qalır. **Exterpt**-e də daxil olmadan **Save** və **Test Configuration** düyməsi sıxılır.

FreeBSD 10.1 x64 Pydio Cloud qurulması

Pydio(əvvəl Ajaxplorer) - ayrılmış serverdə məlumatların sinxronizasiya edilməsi üçün, açıq qaynaqlı proqram təminatıdır. Proyekt 2009-cu ildə Charles du Jeu tərəfindən yaradılmışdır. Php dilində yazılmışdır. İdarəetmə üçün MySQL verilənlər bazası istifadə edilir. İstənilən tip desktop(Windows, MAC və Linux) və mobil əməliyyat sistemləri(Android, iOS) üçün müştəri proqram təminatına malikdir. Məlumatlar eynilə WEB interfeys vasitəsilə də idarə edilə bilər.

İmkanları:

- Faylların qovluq ağac strukturunda saxlanılması(WebDAV vasitəsilə)
- Məlumatların SSL/TLS vasitəsilə şifrələnməsi
- Desktop proqramından sinxronizasiya
- İstifadəçi rollarının idarəedilməsi(LDAP istifadəçi bazası ilə inteqrasiya)
- Digər istifadəçilərlə qovluq və faylların paylaşılması
- Sintaksis göstəricisi ilə mətn redaktoru
- Şəkil fayllarının redaktoru
- Audio və video faylların işə salınması
- Kənar anbarlarla inteqrasiya. Amazon S3, FTP ya da MySQL verilənlər bazası.
- Mobil platformalar üçün proqram təminatı

Məqsədimiz FreeBSD10.1 üzərində Cloud serverin qurulmasıdır. Nəzərdə tutulur ki, artıq FreeBSD serverimizdə portlarla paketlər yenilənib, Apache PHP MySQL yüklənmiş və qurulmuşdur. Ancaq **/usr/port/lang/php56-extensions** ünvanından php genişlənmələri yüklədikdə, mütləq **bcmath, bz2, calendar, Core, ctype, curl, date, dom, ereg, exif, fileinfo, filter, gd, gettext, hash, iconv, imap, json, ldap, libxml, mbstring, mcrypt, mhash, mysql, mysqli, mysqlnd, openssl, pcre, PDO, Phar, posix, pspell, Reflection, session, SimpleXML, snmp, SPL, standard, tokenizer, xml, xmlreader, xmlrpc, xmlwriter, xsl, Zend OPcache, zip, zlib** modullarını seçmək lazımdır.

Pydio-nun PHP üçün tələb elədiyi dəyişiklikləri edirik. Bunlar upload dəyişənləri və **session.save_path** ilə sessiyaların saxlanılması ünvanıdır:

```
root@pydio:~ # cd /usr/local/etc/
root@pydio:/usr/local/etc # cp php.ini-production php.ini
```

/usr/local/etc/php.ini faylında aşağıdakı dəyişənləri uyğun olaraq edirik:

```
upload_max_filesize = 1024M
post_max_size = 1024M
output_buffering = Off
session.save_path = "/tmp"
```

Serverimizin adı **pydio.opensource.az** olacaq. Buna görə də serverimizi VirtualHost-la ad prinsipinə uyğun olaraq qurmaq lazımdır.

Apache serverimizə yeni quraşdırma fayllarının işləyəcəyi qovluğu təyin edirik.

```
root@pydio:~ # echo "Include /usr/local/domen/*" >>
/usr/local/etc/apache24/httpd.conf

root@pydio:~ # mkdir /usr/local/domen
```

/usr/local/domen/pydio.opensource.az faylı yaradırıq və tərkibinə aşağıdakı sətirləri əlavə edirik ki, virtual hostumuz işləsin. Faylda olan SSL sertifikatı ardıcıl yaradacağıq çünki, pydio ilk yüklənməsində bu sertifikatı tələb edir:

```
<VirtualHost *:80>
        RewriteEngine on
        ReWriteCond %{SERVER_PORT} !^443$
        RewriteRule ^/(.*) https://%{HTTP_HOST}/$1 [NC,R,L]
        ServerAdmin webmaster@email.com
        ServerName pydio.opensource.az
</VirtualHost>
<VirtualHost *:443>
        SSLEngine on
        SSLCertificateFile /usr/local/etc/apache24/ssl/pydio.pem
        SSLCertificateKeyFile /usr/local/etc/apache24/ssl/pydio.key
        DocumentRoot /usr/local/www/pydio/
        CustomLog "/var/log/pydio_access.log" common
        ErrorLog /var/log/pydio_error.log
        <Directory "/usr/local/www/pydio">
                AllowOverride all
                Require all granted
        </Directory>
</VirtualHost>
```

Qeyd: Unutmayın **/usr/local/etc/apache24/httpd.conf** faylında mütləq **rewrite_module** və **ssl_module** sətirlərinin qarşısından şərhləri silmək və **Listen 443** sətirini yazimaq lazımdır ki, port qulaq assın.

Jurnal fayllarını yaradaq:

```
root@pydio:~ # touch /var/log/pydio_access.log /var/log/pydio_error.log
```

SSL qovluğu yaradıb içinə daxil oluruq və ardınca **pydio** https-lə işləyə bilməsi üçün sertifikat yaradırıq:

```
root@pydio:~ # mkdir /usr/local/etc/apache24/ssl/
root@pydio:~ # cd /usr/local/etc/apache24/ssl/
root@pydio~ # openssl req -new -x509 -days 365 -nodes -out pydio.pem -keyout
pydio.key
Country Name (2 letter code) [AU]:AZ
State or Province Name (full name) [Some-State]:Baku
Locality Name (eg, city) []:Narimanov
Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:OpSO
Organizational Unit Name (eg, section) []:IT
Common Name (e.g. server FQDN or YOUR name) []:pydio.opensource.az
Email Address []:admin@opensource.az
```

MySQL verilənlər bazası yaradırıq və istifadəçiyə hüquq təyin edirik:

```
root@pydio:~ # mysql -uroot -p
```

```
mysql> create database pydiodb;
Query OK, 1 row affected (0.02 sec)

mysql> GRANT ALL ON pydiodb.* TO pydiouser@localhost IDENTIFIED BY 'freebsd';
Query OK, 0 rows affected (0.00 sec)

mysql> flush privileges;
Query OK, 0 rows affected (0.00 sec)

mysql> \q
Bye
```

Pydio-nun son versiya mənbə kodlarını Internetdən endirib açırıq:

```
root@pydio:~ # pkg install wget
root@pydio:~ # wget
http://sourceforge.net/projects/ajaxplorer/files/pydio/stable-
channel/6.0.8/pydio-core-6.0.8.zip
root@pydio:~ # unzip pydio-core-6.0.8.zip
```

Pydio üçün **PUBLIC_HTML** qovluğu yaradaq və data qovluğuna lazımı yetkiləri təyin edək:

```
root@pydio:~ # mv pydio-core-6.0.8 /usr/local/www/pydio
root@pydio:~ # chown -R www:www /usr/local/www/pydio/
root@pydio:~ # chmod -R 777 /usr/local/www/pydio/data/
```

Öncədən **/usr/local/www/pydio/conf/bootstrap_conf.php** faylında aşağıdakına uyğun olaraq **define** sətirlərinin qarşısına **setlocal** ilə **UTF-8** kodirovkasını dəyişirik:

```
setlocale(LC_ALL, "en_US.UTF-8");
//define("AJXP_LOCALE", "en_EN.UTF-8");
//define("AJXP_LOCALE", "");
```

Web serverimizi yenidən işə salırıq ki, dəyişikliklər işə düşsün:

```
root@pydio:~ # /usr/local/etc/rc.d/apache24 restart
```

Artıq istənilən desktop maşında hansısa browser açırıq və http://pydio.opensource.az/ səhifəsinə daxil oluruq.

Qeyd: Əgər sizdə DNS yoxdursa və web səhifəyə adla daxil olmaq istəyirsinizsə istənilən Windows maşında **C:\Windows\System32\drivers\etc\hosts** faylına və istənilən UNIX/Linux maşında **/etc/hosts** faylına aşağıdakı sintaksislə sətiri əlavə etməniz yetər:

XX.XX.XX.XX pydio.opensource.az pydio

WEB səhifə qırmızı açılacaq çünki sertifikatınız Self Signed(Özünüz özünüzü imzalamışsınız. Normaldir)-dir. Web səhifənizdə **Pydio** yoxlanışlarının nəticəsini yaşıl rəngli **OK** sətirləri ilə görəcəksiniz. Mövcud versiya üçün heç bir səhv çap edilməyəcək ancaq, gələcək versiyalarda səhvlər səhifədə görünəcək və onlari həll etməlisiniz. Əks halda yükləməni davam etmək mümkün olmayacaq.

Aşağıdakı kimi, **English** seçirik və **Start Wizard** düyməsinə sıxırıq:



Növbəti səhifədə hər bir seksiyanı ardıcıllıqla quraşdırırıq:



Pydio WEB inzibatçı üçün istifadəçi adı və şifrə təyin edirik(Şifrə çətin olmalıdır. Əks halda növbəti səhifəyə izin verməyəcək):



Qlobal quraşdırmaları edirik:



Verilənlər bazası üçün quraşdırmaları edirik. Öncə yaratdığımız MySQL istifadəçi, baza və şifrəsini daxil edib, **Try connecting to the database** düyməsinə sıxırıq ki, qoşulmanı yoxlayaq:



Uğurlu nəticə aşağıdakı kimi yaşıl rəngdə olmalıdır:



Sınaq üçün **bookcorrector** adlı yeni bir istifadəçi verilənləri daxil edirik və **Install Pydio Now** düyməsini sıxırıq ki, yükləməmiz davam etsin:



Aşağıdakı şəkildəki kimi bir neçə saniyə vaxt keçəcək:



Son nəticə aşağıdakı şəkildəki kimi olacaq. Istifadəçi adı **admin** və şifrəni yazıb, səhifəyə daxil oluruq:



Daxil olduqdan sonra **My Files** düyməsini sıxıb özümüzə aid olan admin fayllarına baxa bilərik:



Açılan səhifə aşağıdakı kimi olacaq:



Pydio bütün platformalar üçün pulsuz client proqramları təklif edir. Bu proqramları Android və iOS üçün öz reposlarından və Windows, Linux/UNIX, MAC üçün isə https://pyd.io/apps/pydio-sync/ linkindən əldə edə bilərsiniz.

Adroid üçün reposlardan Pydio adlı proqramı yükləməlisiniz(Şəkildəki kimi):



Yüklədikdən sonra yaratdığımız istifadəçi adı ilə pydio cloud-umuza https protokolu ilə qoşuluruq:



Uğurlu nəticə aşağıdakı kimi olacaq:



Windows üçün isə platformaya uyğun olan PydioSync versiyasını yükləmək lazımdır. Yüklədikdən sonra, ilk quraşdırmalar aşağıdakı kimi olacaq:



SSL səhvi çap ediləcək və şəkildəki kimi seçirik:



Sonra uzaq serverdə iş yerini təyin edib, **Next** düyməsini sıxırıq:



Öz desktopumuzda sinxronizasiya ediləcək qovluğu təyin edib, **Next** düyməsinə sıxırıq:



Növbəti səhifəni olduğu kimi qəbul edib **Next** düyməsinə sıxırıq:



Son nəticə aşağıdakı kimi olacaq(**FIRE THE ROCKET!** düyməsinə sıxırıq):



Həm Android və həm də Windows-da qovluqlara hansısa faylları yerləşdirdikdən sonra WEB serverimizdə gördüyümüz nəticə aşağıdakı kimi olacaq:



BÖLÜM 3

Daxili resursların planlaşdırılması sistemləri(ERP)

- **Dolibarr ERP CRM qurulması yüklənməsi və qurulması**
- **Ubuntu 14.04 üzərində OpenERP oDoo-nun qurulması**

Müəyyən sayda daxili işçi tərkibinə sahib olan şirkətin bir neçə şöbəsi olur. Şirkət ən azı təchizat, insan resursları, anbar, mühasibatlıq və İT şöbələrindən ibarət olarsa bu şöbələr arasında rəsmi sənədlərin axını istər-istəməz yaranacaq. Bu halda kağızla işləmək axının qeyri düzgün işləməsi və narahatçılığa gətirib çıxaracaq. Başlığımız bu axının avtomatlaşdırılmasını açıqlayır.

Dolibarr ERP CRM qurulması yüklənməsi və qurulması

Dolibarr ERP CRM – tərkibində resursların planlamasını(ERP) və müştərilərlə qarşılıqlı əlaqənin idarəetməsinə sahib olan, kiçik və orta biznes üçün pulsuz modullu proqram təminatıdır. Funksiyalar tələbdən asılı olaraq işə salına və ya dayandırıla bilər.

Dolibarr verilənlərinin saxlanılması üçün MySQL, PostgreSQL ve SQLite3 istifadə edilə bilər. Bu bolümdə biz Dolibarr proqram təminatının FreeBSD OS üzərində PostgreSQL verilənlər bazasının istifadəsi ilə qurulmasını açıqlayırıq.

Nəzərdə tutulur ki, artıq şəbəkə qurulmuş və portlar yenilənmişdir. Hər hal üçün paketləri yeniləyirik:

```
root@dolibarr:~ # pkg update -f
```

Server **dolibarr.opensource.az** adı ilə işleyəcək.

Istifadəçimizin ev qovluğuna dolibarr-i endiririk:

```
root@dolibarr:~ # pkg install wget
root@dolibarr:~ # cd ~
root@dolibarr:~ # wget --no-check-certificate
https://github.com/Dolibarr/dolibarr/archive/develop.zip
```

Arxivi açırıq:

```
root@dolibarr:~ # unzip develop.zip
```

Arxiv **dolibarr-develop** adlı qovluğa açılır.

Ardınca Apache2.4-u portlardan yükləyirik:

```
root@dolibarr:~ # cd /usr/ports/www/apache24
root@dolibarr:/usr/ports/www/apache24 # make -DBATCH all install clean
```

Sonra PostgreSQL9.4 verilənlər bazasını portlardan yükleyirik:

```
root@dolibarr:~ # cd /usr/ports/databases/postgresql94-server
root@dolibarr:/usr/ports/databases/postgresql94-server # make all install
clean
```

Yüklədikdən sonra bazanın inisializasiyasını edirik. Öncə PostgreSQL-i startup-a əlavə edirik ki, inisializasiya edə bilək. Inisializasiyadan sonra işə salırıq:

```
root@dolibarr:~ # echo 'postgresql_enable="YES"' >> /etc/rc.conf
root@dolibarr:~ # /usr/local/etc/rc.d/postgresql initdb
root@dolibarr:~ # /usr/local/etc/rc.d/postgresql start
```

Bundan sonra PHP5.6-nı portlardan yükləyirik(IPv6-dan başqa qalan hər şey susmaya görə qalır):

```
root@dolibarr:~ # cd /usr/ports/lang/php56
root@dolibarr:/usr/ports/lang/php56 # make -DBATCH all install clean
```

PHP5.6-nın genişlənmələrini portlardan yükləyirik:
root@dolibarr:~ # **cd /usr/ports/lang/php56-extensions**
root@dolibarr:/usr/ports/lang/php56-extensions # **make config**

Açılan dialoq pəncərəsində bu modulları seçirik: **BCMATH BZ2 CALENDAR CTYPE CURL DOM FILTER GD HASH ICONV JSON MBSTRING MCRYPT PGSQL**
root@dolibarr:/usr/ports/lang/php56-extensions # **make -DBATCH all install**

Həmçinin portlardan apache-in modulunu yükləyirik(IPv6-dan başqa hər şey susmaya gore qalır):
root@dolibarr:~ # **cd /usr/ports/www/mod_php56**
root@dolibarr:/usr/ports/www/mod_php56 # **make all install clean**

Yükləmələrimizdən sonra quraşdırmalara başlayaq. Php üçün ini faylını nusxeleyek və teleb edilən huquqları verək.
root@dolibarr:~ # **cd /usr/local/etc/**
root@dolibarr:/usr/local/etc # **cp php.ini-production php.ini**
root@dolibarr:/usr/local/etc # **chmod u+w php.ini**

Ardınca php genişlənmələrin apache-imizdə tanına bilməsi üçün **/usr/local/etc/apache24/Includes** qovluğunda fayl yaradaq.
root@dolibarr:~ # **cd /usr/local/etc/apache24/Includes**
root@dolibarr:/usr/local/etc/apache24/Includes # **touch php-application.conf**

Yaratdıqımız **/usr/local/etc/apache24/Includes/php-application.conf** faylının tərkibinə aşaqıdakı sətirləri əlavə edək:
AddType application/x-httpd-php .php
AddType application/x-httpd-php-source .phpsXsource

/etc/hosts faylına aşaqıdakı sətirləri əlavə edirik ki, apache işə düşdükdə heç bir səhv çap eləməsin:
127.0.0.1 localhost localhost.my.domain
XX.XX.XX.XX dolibarr.opensource.az dolibarr

VirtualHost-ların işləməsi üçün apache-in **httpd.conf** faylina **Include** əlavə edirik:
root@dolibarr:~ # **echo "Include /usr/local/domen/*" >> /usr/local/etc/apache24/httpd.conf**

VirtualHost qovluqu yaradırıq:
root@dolibarr:~ # **mkdir /usr/local/domen/**

/usr/local/domen/dolibarr.opensource.az faylının tərkibinə aşaqidakı sətirləri əlavə edirik:

```
<VirtualHost *>
        ServerAdmin webmaster@email.com
        ServerName dolibarr.opensource.az
        CustomLog "/var/log/dolibarr_access.log" common
        ErrorLog /var/log/dolibarr_error.log
        DocumentRoot /usr/local/www/dolibarr/htdocs
<Directory "/usr/local/www/dolibarr/htdocs">
        AllowOverride All
        Require all granted
```

```
</Directory>
</VirtualHost>
```

/usr/local/etc/apache24/httpd.conf faylında **DirectoryIndex** sətirinin qarşısına **index.php** əlavə edirik:

```
DirectoryIndex index.php index.html
```

Dolibarr-i endirdiyimiz qovluğu **/usr/local/www** ünvanına **dolibarr** adi ilə köçürürük:

```
root@dolibarr:~ # mv /root/dolibarr-develop /usr/local/www/dolibarr
```

Indi **/usr/local/www/dolibarr/documents** adı ilə qovluq yaradaq. Apache üçün yazilma və huquqları təyin edək:

```
root@dolibarr:~ # mkdir /usr/local/www/dolibarr/documents
root@dolibarr:~ # chown -R www:www /usr/local/www/dolibarr/documents
root@dolibarr:~ # chmod 777 /usr/local/www/dolibarr/documents
```

Eyniylə növbəti qovluqlari yaradib hər kəs tərəfindən yazila bilən edirik:

```
root@dolibarr:~ # mkdir /usr/local/www/dolibarr/documents/doctemplates
root@dolibarr:~ # mkdir /usr/local/www/dolibarr/documents/propale
root@dolibarr:~ # mkdir /usr/local/www/dolibarr/documents/ficheinter
root@dolibarr:~ # mkdir /usr/local/www/dolibarr/documents/facture
root@dolibarr:~ # chmod 777 /usr/local/www/dolibarr/documents/doctemplates
root@dolibarr:~ # chmod 777 /usr/local/www/dolibarr/documents/propale
root@dolibarr:~ # chmod 777 /usr/local/www/dolibarr/documents/ficheinter
root@dolibarr:~ # chmod 777 /usr/local/www/dolibarr/documents/facture
```

Həmçinin apache-ın qovluğuna yetki veririk:

```
root@dolibarr:~ # chown -R www:www /usr/local/www/dolibarr/htdocs
```

Tələb edilən faylları nüsxələyirik:

```
root@dolibarr:~ # cp -R /usr/local/www/dolibarr/htdocs/install/doctemplates/*
/usr/local/www/dolibarr/documents/doctemplates/
```

Sonra apache servisi StartUP-a əlavə edib, işe saliriq:

```
root@dolibarr:~ # echo 'apache24_enable="YES"' >> /etc/rc.conf
root@dolibarr:~ # /usr/local/etc/rc.d/apache24 start
```

Sonra **/usr/local/pgsql/data/pg_hba.conf** faylinda olan **host all all 127.0.0.1/32 trust** sətirini dəyişib aşağıdakı şəklə gətiririk:

```
host    all             all             127.0.0.1/32            md5
```

Həmçinin **/usr/local/pgsql/data/postgresql.conf** faylında aşağıdakı sətrin qarşısından şərhi silmək lazımdır:

```
isten_addresses = 'localhost'
```

PostgreSQL-i yenidən işə salırıq ki, dəyişiklikləri götürsün:

```
root@dolibarr:~ # /usr/local/etc/rc.d/postgresql restart
```

PostgreSQL istifadəçisi üçün şifrə təyin edirik:

```
root@dolibarr:~ # passwd pgsql
Changing local password for pgsql
```

New Password: **şifrə**
Retype New Password: **şifrə_təkrar**

PostgreSQL istifadəçi adından daxil olub, **dolibarr** adlı istifadəçi və verilənlər bazası yaradırıq:
root@dolibarr:~ # **passwd pgsql**
Changing local password for pgsql
New Password:
Retype New Password:
root@dolibarr:~ # **su pgsql**
$ **createuser -sdrP dolibarr**
Enter password for new role: **db_şifrə**
Enter it again: **db_şifrə_tekrar**
$ **createdb dolibarr --owner=dolibarr**
$ **exit**

Artiq server hazırdır. Istənilən desktop maşının browserində http://dolibarr.opensource.az/install/ linkini daxil edirik və şekildəki sehifeni aciriq(**Next step** duyməsini sıxırıq):



Acilan pəncərədə **Start** düyməsinə sıxırıq:



Açılan pəncərədə verilənlər bazası üçün istifadəçi adi şifrə və verilənlər bazasının adını daxil edirik və **Next step** düymesini sıxırıq:



Dolibarr admin paneli üçün istifadəçi adı və şifrə təyin edib, **Next** step düyməsini sıxırıq:



Nəticə aşağıda şəkildəki kimi olacaq. **Go to Dolibarr(setup area)** düyməsinə sıxırıq:



Istifadəçi adı və şifrəsini təyin edib, şəkildəki kimi **Connection** düyməsinə sixiriq:



Əgər aşağıdakı səhifəni görürüksə artıq hazırdır:



Ubuntu 14.04 üzərində OpenERP oDoo-nun qurulması

Odoo(Həmişəki TinyERP, OpenERP) – Belçika şirkəti OpenERP tərəfindən yaradılmış açıq kodlu ERP ve CRM sistemdir. xml-rpc protocol üsulu ilə işləyən Python proqram dilində yazılmış client-server tipli proqram təminatıdır. Server tərəf üçün PostgreSQL verilənlər bazası istifadə edilir.

Sistemdə Realizasiya edilmiş modullardan – mühasibatlıq, CRM, şəxsiyyətin idarəedilməsi, istehsal, satış, alış, anbarın idarəedilməsi, proyektlərin idarəedilməsi, nəqliyyatın idarəedilməsi, prezentasıyaların idarəedilməsi, POS və social şəbəkələrlə inteqrasiya edilə bilən modulu var.

Bu məqalədə biz Odoo sevrerin Ubuntu 14.04 server əməliyyat sistemi üzərində yüklənməsinə baxacağıq.

Bütün işləri görməzdən öncə nəzərdə tutulur ki, serverdə artıq şəbəkə qurulmuşdur və internet mövcuddur.

Ilk işimiz odoo istifadəçisini sistemə elavə edirik(Bütün işlər sudo istifadəçisi vasitəsilə görülür):

```
sysuser@redmine:~$ sudo adduser --system --home=/opt/odoo --group odoo
sysuser@redmine:~$ sudo su - odoo -s /bin/bash
odoo@redmine:~$ exit
```

PostgreSQL verilənlər bazasını yükləyirik:

```
sysuser@redmine:~$ sudo apt-get install postgresql
```

PostgreSQL quraşdırmasında dəyişiklik edirik:

```
sysuser@redmine:~$ sudo nano /etc/postgresql/9.3/main/postgresql.conf
```

Bu **#listen_addresses = 'localhost'** sətiri tapırıq və qarşısından şərhi silirik:

```
      listen_addresses = 'localhost'
```

Indi konsol-a postgres istifadəçi adı ilə daxil oluruq və orda **openerp** adlı istifadəçi yaradırıq(Eynilə **odoo** adlı DB yaradıb üzvünü **openerp** təyin edirik):

```
sysuser@redmine:~$ sudo su - postgres
postgres@redmine:~$ createuser -sdrP openerp
Enter password for new role: şifre
Enter it again: şifre_tekrar
postgres@redmine:~$ createdb odoo —owner=openerp
postgres@redmine:~$ exit
```

Artıq Python-a tələb edilən komponentlər və GIT-i yükləyirik:

```
sysuser@redmine:~$ sudo apt-get install python-cups python-dateutil python-
decorator python-docutils python-feedparser python-gdata python-geoip python-
gevent python-imaging python-jinja2 python-ldap python-libxslt1 python-lxml
python-mako python-mock python-openid python-passlib python-psutil python-
psycopg2 python-pybabel python-pychart python-pydot python-pyparsing python-
pypdf python-reportlab python-requests python-simplejson python-tz python-
```

```
unicodecsv python-unittest2 python-vatnumber python-vobject python-werkzeug
python-xlwt python-yaml wkhtmltopdf

sysuser@redmine:~$ sudo apt-get install git
```

Artıq **odoo** istifadəçi adı ilə daxil olub, Odoo-nu yükləyəcəyik:

```
sysuser@redmine:~$ sudo su - odoo -s /bin/bash
odoo@redmine:~$ git clone https://www.github.com/odoo/odoo --depth 1 --branch
8.0 --single-branch
odoo@redmine:~$ exit
```

Quraşdırma faylı yaradaq və ona odoo istifadəçi hüququnu vərək:

```
sysuser@redmine:~$ sudo touch /etc/odoo-server.conf
sysuser@redmine:~$ sudo chown odoo: /etc/odoo-server.conf
sysuser@redmine:~$ sudo chmod 640 /etc/odoo-server.conf
```

Faylı açırıq:

```
sysuser@redmine:~$ sudo nano /etc/odoo-server.conf
```

Verilənlərin tərkibinə aşağıdakı sətirləri əlavə edirik:

```
[options]
; Bu şifrə verilənlər bazası üzərində əməliyyatlar aparmaqa icazə verir:
; admin_passwd = admin
db_host = localhost
db_port = 5432
db_user = openerp
db_password = rumburak
addons_path = /opt/odoo/odoo/addons
logfile = /var/log/odoo/odoo-server.log
```

Bundan sonra **odoo** istifadəçi adı ilə daxil oluruq:

```
sysuser@redmine:~$ sudo su - odoo -s /bin/bash
```

WEB serverin işləməsini yoxlayırıq:

```
odoo@redmine:~$ /opt/odoo/odoo/openerp-server
2015-09-30 02:54:38,347 9784 INFO ? openerp: OpenERP version 8.0
2015-09-30 02:54:38,347 9784 INFO ? openerp: addons paths:
['/opt/odoo/.local/share/Odoo/addons/8.0', u'/opt/odoo/odoo/openerp/addons',
u'/opt/odoo/odoo/addons']
2015-09-30 02:54:38,347 9784 INFO ? openerp: database hostname: localhost
2015-09-30 02:54:38,347 9784 INFO ? openerp: database port: 5432
2015-09-30 02:54:38,347 9784 INFO ? openerp: database user: odoo
2015-09-30 02:54:38,699 9784 INFO ? openerp.service.server: HTTP service
(werkzeug) running on 0.0.0.0:8069
```

Əgər console-da uzun müddət dayanarsa **Ctrl+C** əmri ilə durdura bilərsiniz.

Konsol-dan çıxırıq:

```
odoo@redmine:~$ exit
```

Artıq **/etc/init.d/odoo-server** işə salma skriptini yaradaq:
sysuser@redmine:~$ **sudo touch /etc/init.d/odoo-server**

Faylı açırıq:
sysuser@redmine:~$ **sudo nano /etc/init.d/odoo-server**

Tərkibinə aşağıdakı sətrləri əlavə edirik:

```
#!/bin/sh

### BEGIN INIT INFO
# Provides:             odoo-server
# Required-Start:       $remote_fs $syslog
# Required-Stop:        $remote_fs $syslog
# Should-Start:         $network
# Should-Stop:          $network
# Default-Start:        2 3 4 5
# Default-Stop:         0 1 6
# Short-Description:    Complete Business Application software
# Description:          Odoo is a complete suite of business tools.
### END INIT INFO

PATH=/bin:/sbin:/usr/bin
DAEMON=/opt/odoo/odoo/openerp-server
NAME=odoo-server
DESC=odoo-server

# Specify the user name (Default: odoo).
USER=odoo

# Specify an alternate config file (Default: /etc/odoo-server.conf).
CONFIGFILE="/etc/odoo-server.conf"

# pidfile
PIDFILE=/var/run/$NAME.pid

# Additional options that are passed to the Daemon.
DAEMON_OPTS="-c $CONFIGFILE"

[ -x $DAEMON ] || exit 0
[ -f $CONFIGFILE ] || exit 0

checkpid() {
    [ -f $PIDFILE ] || return 1
    pid=`cat $PIDFILE`
    [ -d /proc/$pid ] && return 0
    return 1
}

case "${1}" in
        start)
                echo -n "Starting ${DESC}: "

                start-stop-daemon --start --quiet --pidfile ${PIDFILE} \
                        --chuid ${USER} --background --make-pidfile \
                        --exec ${DAEMON} -- ${DAEMON_OPTS}
```

```
                echo "${NAME}."
                ;;

        stop)
                echo -n "Stopping ${DESC}: "

                start-stop-daemon --stop --quiet --pidfile ${PIDFILE} \
                        --oknodo

                echo "${NAME}."
                ;;

        restart|force-reload)
                echo -n "Restarting ${DESC}: "

                start-stop-daemon --stop --quiet --pidfile ${PIDFILE} \
                        --oknodo

                sleep 1

                start-stop-daemon --start --quiet --pidfile ${PIDFILE} \
                        --chuid ${USER} --background --make-pidfile \
                        --exec ${DAEMON} -- ${DAEMON_OPTS}

                echo "${NAME}."
                ;;

        *)
                N=/etc/init.d/${NAME}
                echo "Usage: ${NAME} {start|stop|restart|force-reload}" >&2
                exit 1
                ;;
esac

exit 0
```

root istifadəçisi üçün fayla hüquq veririk və faylı yerinə yetirilən edirik:

```
sysuser@redmine:~$ sudo chown root: /etc/init.d/odoo-server
sysuser@redmine:~$ sudo chmod 755 /etc/init.d/odoo-server
```

Sonra jurnallar üçün qovluq yaradırıq:

```
sysuser@redmine:~$ sudo mkdir /var/log/odoo
sysuser@redmine:~$ sudo chown odoo:root /var/log/odoo
```

Serverimizi yenidən yükləyirik:

```
sysuser@redmine:~$ sudo shutdown -r now
```

Sistem qalxdiqdan sonra odoo-server servisini əlimizlə işə salırıq:

```
sysuser@redmine:~$ sudo service odoo-server start
Starting odoo-server: odoo-server.
```

Servisi StartUP-a əlavə etmək üçün aşağıdakı əmri işə salmaq lazımdır(artıq sistemi reboot etsəniz odoo servisi avtomatik işə düşəcək):

```
sysuser@redmine:~$ sudo update-rc.d odoo-server defaults
Adding system startup for /etc/init.d/odoo-server ...
   /etc/rc0.d/K20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc1.d/K20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc6.d/K20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc2.d/S20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc3.d/S20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc4.d/S20odoo-server -> ../init.d/odoo-server
   /etc/rc5.d/S20odoo-server -> ../init.d/odoo-server
```

Yükləməni bitirdik və artıq istənilən Desktop maşından http://server_IP:8069 ünvanına müraciət etsək, aşağıdakı səhifəni görə bilərik:



Bu səhifədə cıxan formanı aşağıda açıqlayırıq.

Master Password – Susmaya görə daxil olma səhifəsində olan E-Mail istifadəçi hesabının adı **admin** və şifrəsi **admin** olur. Burda həmin istifadəçinin **admin** şifrəsi yazılır.

Select a database name – Odoo özü üçün biraz öncə yaratdığımız PostgreSQL istifadəçi adını **/etc/odoo-server.conf** faylından oxuyub, tamam fərqli adlı bir baza yaradacaq bu sütünda həmin bazanın adı yazılır(**openerp** adlı baza yaradılmasını deyirik). Yaradılan verilənlər bazası üçün **create**, **delete**, **dump** ya da **restore** etmək hüququ olmalıdır.

Default language – WEB səhifənın susmaya görə olan dilini seçirik(**English(US)**).

Choose a password – **admin** istifadəçi hesabı üçün yeni şifrə

Confirm password – **admin** istifadəçi hesabı üçün yeni şifrə təkrar

Nəticədə aşağıdakı səhifəni əldə etmiş olacağıq:



Nida simvolu time zone-un səhv olmasını deyir və onu düzəltmək üçün həmin düyməyə sıxmaq lazımdır. Daxil olub dəyişiklikləri edirik və **Save** düyməsinə sıxırıq.



Sonra sağ tərəfdə olan **Administrator** -> **Preferences** -> **Change Password** və şəkildəki kimi köhnə şifrə və iki dəfə yeni şifrəni daxil edirik:



oDoo ERP sisteminizin müəsisenizin Active Directory-si ilə inteqrasiya etmək istəsəniz, öncə **python-ldap** paketini resposlardan yükləmək və sonra oDoo web interfeysdən **user_ldap** modulunu yükləmək lazımdır:
sysuser@redmine:~$ **sudo apt-get install python-ldap**

Sonra gedirik **Modules** -> **Local Modules** və əgər **Search** olan xanada **Apps** varsa onu silib, **auth_ldap** axtarırıq. Açılan pəncərədə şəkildəki kimi, Install düyməsinə sıxırıq:



Eynilə Search-də **address_book** yazıb, aşağıdakı şəkildəki kimi yükləyirik:



Sonra panelin yuxarısında **Settings** -> **General Settings** -> **Configure your company data**



Açılan pəncərədə **Edit** düyməsinə sıxırıq:



Sonra **Configuration**-a daxil oluruq və **LDAP Parameters** altında **Add a item** düyməsinə sıxırq:



Sonra aşağıdakı parametrləri şəkildəki kimi öz DC-mizə uyğun olaraq yazırıq:
LDAP Server address: **domain.lan**
LDAP Server port: **3268**
LDAP binddn: **domain\Administrator**
LDAP password: **DC_nin_admin_Şifrəsi**
LDAP base: **DC=domain,DC=lan**
LDAP filter: **sAMAccountName=%s**
Create user: **Yes**
Template User: **Oz yaratdiqiniz hansisa şablonu secin**



Sonra ümumi səhifədə də **Save** düyməsinə sıxırıq ki, dəyişiklik yadda qalsın:



oDoo serverdə LDAP alətlərindən istifadə müəyyən sınaqları edə bilərsiniz. Bu paket vasitəsilə serverimizin LDAP-a uğurlu qoşulmasını və qrupun axtarışını sınaqdan keçirə bilərik.

```
root@redmine:~# apt-get install ldap-utils
```

Aşağıdakı əmrlə DC-nizdə olan bütün domain strukturunu darta bilərsiniz:

```
root@redmine:~# ldapsearch -x -b  "dc=domain,dc=lan" -H ldap://domain.lan/ -D "DOMAIN\Administrator" -w A123456789a
```

Artıq http://server_İP_Address:8069/ unvanına daxil olduqdan sonra aşağıdakı səhifəyə DC istifadəçi adı və şifrə ilə daxil ola bilərsiniz. Misal üçün bizim halda **odoo1** adlı istifadəçi artıq DC-mizdə yaradılmışdır:



BÖLÜM 4

Wireless şəbəkəsində olan tələblərin qarşılanması

- **FreeBSD 10.1 üzərində Freeradiusun portlardan yüklənməsi və LDAP-la inteqrasiyası**
- **FreeBSD 10.1-də FreeRadiusun NTLM-MSCHAP vasitəsi ilə AD ilə inteqrasiyası**
- **CentOS üzərində DaloRadius qurulması**
- **FreeBSD FreeRADİUS EAP-TLS**
- **FreeBSD 10.1 x64 WiFi Hotspot**

Müasir zamanda hər şirkətin Wireless şəbəkəsi mövcud olur. Lakin wireless şəbəkəsinin təhlükəsizliyi adi ethernet-dən daha təhlükəli olur. Həmçinin istifadəçi qeydiyyatıda şirkətin eyni bazasına baxılması tələbi yaranır ki, hər kəs öz Domain Controller istifadəçi adı və şifrəsindən istifadə eləsin. Ya da digər tələb ola bilər ki, qonaqlar üçün müvəqqəti bir istfiadəçi adı və şifrə olmalıdır. Bu başlıqda istifadəçilərin wireless şəbəkəsinə sertifikatla, active reictory istifadəçi adı və şifrə ilə, qonaqlar üçün ayrılmış istifadəçi adları ilə qoşulma üsullarının qurulması açıqlanır.

FreeBSD 10.1 üzərində Freeradiusun portlardan yüklənməsi və LDAP-la inteqrasiyası

Məqsədimiz FreeRADİUS-a LDAP-dan istifadəçi bazasını ötürməkdir.

 # cd /usr/ports/net/freeradius2 => Port ünvanına daxil oluruq

 # make config => LDAP protokolunu seçib OK düyməsini sıxırıq



 # make install clean -DBATCH **=>** Freeradius2-ni portlardan yükləyirik

 # rehash => bu əmri daxil edib binar fayllarının bazasını yeniləyirik

/etc/rc.conf startup faylına aşağıdakı sətiri əlavə edirik ki, daemonumuz yenidən yüklənmədən sonra avtomatik işə düşsün:
radiusd_enable="YES"

/usr/local/etc/rc.d/radiusd start - Daemonu işə salırıq

Freeradius-u əməliyyat sisteminə yüklədikdən sonra LDAP-la inteqrasiya edək

 # cd /usr/local/etc/raddb/ => Freeradiusun quraşdırma fayllarının yerləşdiyi qovluğa daxil oluruq

 # ee /usr/local/etc/raddb/modules/ldap => LDAP modulunu quraşdırırıq

"**ldap {**" bölməsinin altında aşağıdakı kimi LDAP serverimizə uyğun dəyişiklikləri edirik.

```
ldap {
        # LDAP serverinin İP ünvanı ya da adı
        server = "kofe.az"

        # "identity" qarşısına Ldap serverindən istifadəçilərini oxumaq üçün
izin
        # verilmiş hər hansı bir istifadəçinin LDAP serverdəki ünvanını
yazırıq
        identity = "CN=Administrator,CN=Users,DC=kofe,DC=az"

        # Həmin istifadəçinin şifrəsini qeyd edirik
        password = Zxcasdqwe123

        # basedn bölməsində isə Domainimizin LDAP serverindəki ünvanını
yazırıq
        basedn = "DC=kofe,DC=az"

        # Aşağıdakıları da burada olduğu kimi eynilə qeyd edin
        filter = "(sAMAccountName=%{Stripped-User-Name:-%{User-Name}})"
        base_filter = "(objectclass=radiusprofile)"
        chase_referrals = yes
        rebind = yes
        ldap_connections_number = 5
        max_uses = 0
        port = 389
        timeout = 4
        timelimit = 3
        net_timeout = 1
        tls {
                start_tls = no
        }

        keepalive {
                idle = 60
                probes = 3
                interval = 3
        }
}
```

 # ee /usr/local/etc/raddb/sites-available/default => quraşdırma faylına daxil oluruq

Faylda aşağıda göstərilən bölmələrdə göstərilən sətrlərin qarşısındakı şərhləri silirik.

```
authorize {
      ...
        #
        ldap
        #
        #
      ...
```

```
}

authenticate {
      ...
      Auth-Type LDAP {
                  ldap
          }
      ...
}
```

 # ee /usr/local/etc/raddb/clients.conf => Radiusa qoşulmaq üçün klientlərə izni buradan veririk

Freeradius susmaya görə localhost-u klient kimi özünə qoşulmağa izin verir. Bunu **clients.conf** faylının içində görə bilərsiniz.

```
client localhost {
      ipaddr = 127.0.0.1
      secret          = testing123
      require_message_authenticator = no
      nastype     = other     # localhost isn't usually a NAS...
}
```

Buna görə də elə freeradius quraşdırdığımız maşından Radiusun Ldap-la inteqrasiyasını test edə bilərik.

Bir konsolda
 # service radiusd stop => FreeRadius serveri əgər işlək vəziyyətdədirsə dayandırırıq.
 # radiusd -fX => əmrini yığıb gözləyirik. Bu əmr FreeRadius-u debug etmək üçün bizə kömək edir. Əmri daxil etdikdən sonra əgər heç bir səhv çıxartmadan aşağıdakı kimi nəticə göstərirsə demək ki, quraşdırma faylların sintaksisində heç bir problem yoxdur.

```
.....
Listening on authentication address * port 1812
Listening on accounting address * port 1813
Listening on command file /var/run/radiusd/radiusd.sock
Listening on authentication address 127.0.0.1 port 18120 as server inner-
tunnel
Listening on proxy address * port 1814
Ready to process requests.
```

FreeRadiusun Ldap-la düzgün inteqrasiyasını isə ikinci konsolda **"radtest** *istifadeciadi "şifrə" freeradius-server-ip* **10** *pre-shared-secret-key"* Yəni bizim vəziyyətimizdə aşağıdakı kimi əmri daxil edirik.
 # radtest camal "Zxcasdqwe123" 127.0.0.1 10 testing123
Nəticədə əgər aşağıdakı kimi **Access-Accept** gördüksə bu o deməkdir ki, hər şey işləyir.

```
Sending Access-Request of id 137 to 127.0.0.1 port 1812
        User-Name = "camal"
        User-Password = "Zxcasdqwe123"
        NAS-IP-Address = 127.0.53.53
```

```
        NAS-Port = 10
        Message-Authenticator = 0x00000000000000000000000000000000
rad_recv: Access-Accept packet from host 127.0.0.1 port 1812, id=137,
length=20
```

 # radiusd -fX əmrini yazdığımız konsolda isə nəticə aşağıdakı kimi olmalıdır.

```
.......
Found Auth-Type = LDAP
# Executing group from file /usr/local/etc/raddb/sites-enabled/default
+group LDAP {
[ldap] login attempt by "camal" with password "Zxcasdqwe123"
[ldap] user DN: CN=camal shahverdiyev,OU=test,DC=kofe,DC=az
  [ldap] (re)connect to kofe.az:389, authentication 1
  [ldap] bind as CN=camal shahverdiyev,OU=test,DC=kofe,DC=az/Zxcasdqwe123 to
kofe.az:389
  [ldap] waiting for bind result ...
  [ldap] Bind was successful
[ldap] user camal authenticated succesfully
++[ldap] = ok
+} # group LDAP = ok
# Executing section post-auth from file /usr/local/etc/raddb/sites-
enabled/default
+group post-auth {
++[exec] = noop
+} # group post-auth = noop
Sending Access-Accept of id 243 to 127.0.0.1 port 41919
Finişəd request 3.
Going to the next request
Waking up in 4.9 seconds.
Cleaning up request 3 ID 243 with timestamp +753
Ready to process requests.
```

Hər şeyin işlədiyinə əmin olduqdan sonra FreeRADİUS-u əməliyyat sisteminin yenidən yüklənməsindən sonra işə düşməsi üçün **/etc/rc.conf** faylına aşağıdakı sətirləri əlavə edirik.

 # echo 'radiusd_enable="YES"' >> /etc/rc.conf

 # /usr/local/etc/rc.d/radiusd start **=>** FreeRadiusu işə salırıq

Freebsd 10.1-də FreeRadiusun NTLM-MSCHAP vasitəsi ilə AD ilə inteqrasiyası

Windows 2008 R2-də AD və DNS servis qaldırmalıyıq. Bu sənəddə biz test olaraq qaldırdığımız serverin və Freeradius FreeBSD maşının məlumatları aşağıdakı kimidir.

AD (Active Directory) və DNS: **VELO.LAN**
AD hostname: **DC.VELO.LAN**
AD İp address: **10.0.0.10**

Freeradius İP address **10.0.0.1**
Freeradius hostname: **FREERADIUS.VELO.LAN**

 # hostname FREERADIUS.VELO.LAN => Hostname-i domain adına uyğun olaraq təyin
edirik

 # ee /etc/rc.conf => Startup faylına hostname adını əlavə edirik

```
hostname="FREERADIUS.VELO.LAN"
```

 # ntpdate 10.0.0.10 => Vaxtı AD serverinə uyğun yeniləyirik
 # ee /etc/resolv.conf => DNS serverimizin məlumatlarını **resolv.conf**
faylına əlavə edirik

```
search VELO.LAN
nameserver 10.0.0.10
```

 # ee /etc/hosts => **hosts** faylına öz maşınımızın hostname və
interfeys İP-i aşağıdakı kimi əlavə edirik

```
10.0.0.1                FREERADIUS.VELO.LAN FREERADIUS
```

 # ee /etc/sysctl.conf => bu fayla aşağıdakı sətrləri əlavə edirik

```
kern.maxfiles=25600
kern.maxfilesperproc=16384
net.inet.tcp.sendspace=65536
net.inet.tcp.recvspace=65536
```

 # pkg update => Repozitorları yeniləyirik
 # pkg install samba41 => Samba 4.1 paketini quraşdırırıq
 # rehash => Binar fayllar bazasını yeniləyirik

 # ee /etc/krb5.conf => **krb5.conf** faylı yaradıb aşağıdakı sətrləri əlavə
edirik

```
[libdefaults]
        default_realm = VELO.LAN
        dns_lookup_realm = true
```

```
        dns_lookup_kdc = true
        ticket_lifetime = 24h
        renew_lifetime = 7d
        forwardable = yes
```

 # ee /etc/nsswitch.conf => **nsswitch.conf** faylında sarı fondakı sətrləri
yeniləyirik

```
group: files winbind
group_compat: nis
hosts: files dns
networks: files
passwd: files winbind
passwd_compat: nis
shells: files
services: compat
services_compat: nis
protocols: files
rpc: files
```

 # ee /usr/local/etc/smb4.conf => **smb4.conf** faylı yaradıb aşağıdakı sətrləri əlavə
edirik (sarı fondakı adlara diqqət yetiririk)

```
[global]
        workgroup = VELO
        server string = Samba Server Version %v
        security = ads
        realm = VELO.LAN
        domain master = no
        local master = no
        preferred master = no
        socket options = TCP_NODELAY IPTOS_LOWDELAY SO_RCVBUF=131072
        use sendfile = true

        idmap config * : backend = tdb
        idmap config * : range = 100000-299999
        idmap config VELO : backend = rid
        idmap config VELO : range = 10000-99999
        winbind separator = +
        winbind enum users = yes
        winbind enum groups = yes
        winbind use default domain = yes
        winbind nested groups = yes
        winbind refresh tickets = yes
        template homedir = /home/%D/%U
        template shell = /bin/false
```

 # net ads join -U administrator => Samba-nı VELO.LAN domainində qoşuruq
Enter administrator's password: ****** => Çıxan sətrdə domainimizin Administrator

şifrəsini daxil edirik. Aşağıdakı sətr kimi
bir şey çıxarsa hər şey qaydasındadır.

```
Using short domain name -- VELO
Joined 'FREERADIUS' to dns domain 'VELO.LAN'
```

 # net ads testjoin => Qoşulmanı bir də test edirik. Bizə "Join is OK"
yazısını qaytarmalıdır

 # ee /etc/rc.conf => Aşağıdakı sətrləri startup faylına əlavə edirik

```
samba_server_enable="YES"
winbindd_enable="YES"
smbd_enable="YES"
nmbd_enable="YES"
```

 # service samba_server start => Samba servisini işə salırıq

 # kinit administrator => Kerberos vasitəsi ilə Domainə giriş
üçün bilet əldə edirik.

administrator@VELO.LAN's Password:****** => Çıxan sətrə Domain Admin şifrəsini
daxil edirik

 # klist => Bileti aldığımızı yoxlayırıq.
Aşağıdakı kimi hesabat çıxmalıdır.

```
Credentials cache: FILE:/tmp/krb5cc_0
        Principal: administrator@VELO.LAN

  Issued                Expires               Principal
May  5 10:33:43 2015  May  5 20:33:43 2015  krbtgt/VELO.LAN@VELO.LAN
```

Sonra Winbind-i test edirik

 # wbinfo -u => Bu əmr sizə Domain-də olan istifadəçi adlarını çıxartmalıdır

 # wbinfo -g => Bu əmr sizə Domain-də olan qrup adlarını çıxartmalıdır

 # wbinfo -a istifadeciadi%shifre => Domaində olan hər hansı bir istifadəçi adını və
şifrəsini bu şəkildə daxil edib test etsək aşağıdakı kimi nəticə verməlidir.

```
plaintext password authentication succeeded
challenge/response password authentication succeeded
```

 # service samba_server restart => Samba servisini yenidən işə salırıq

Domainimizə qoşulma uğurla həyata keçdikdən sonra Freeradius-un NTLM (NT Lan Manager) modulu vasitəsi ilə Domainlə inteqrasiyasına keçək.

Qeyd: NTLM modulu LDAP modulundan fərqli olaraq PAP qeydiyyat üsulundan başqa MSCHAP,EAP kimi digər şifrələmə metodikasını dəstəkləyir. Yəni qeydiyyat daha təhlükəsiz şəkildə həyata keçirilir.

 # pkg install freeradius => freeradius: 2.2.7 paketini quraşdırırıq
 # rehash => Binar fayllar bazasını yeniləyirik
 # ntlm_auth --request-nt-key --username=administrator => NTLM qeydiyyatını test edirik
Password:****** => Çıxan sətrə domain admin şifrəsini daxil edirik. Bizə "NT_STATUS_OK: Success (0x0)" hesabatını qaytarırsa NTLM qeydiyyatı işləyir
 # cd /usr/local/etc/raddb/ => Freeradiusun quraşdırma fayllarının yerləşdiyi qovluğa daxil oluruq

MSCHAP modulunun quraşdırma faylını açırıq və sarı fonda qeyd olunmuş sətri tapıb qarşısında olan şərhi ("#"-nı) silirik və **/path/to/ntlm_auth** yerinə ntlm_auth binar faylının tam ünvanını yazırıq. **ntlm_auth** binar faylının tam ünvanını tapmaq üçün isə "**# whereis ntlm_auth**" yazaraq çıxan nəticədə görə bilərik.

 # whereis ntlm_auth => ntlm_auth binar faylının tam ünvanını tapmaq üçün bu əmrdən istifadə edirik və nəticədə tam ünvanı görürük.

```
ntlm_auth: /usr/local/bin/ntlm_auth
```

 # ee modules/mschap => **mschap** modulunun quraşdırma faylına daxil oluruq, şərhi silirik və yalnız **/path/to/ntlm_auth** olan yeri sarı fonda gördüyünüz kimi düzgün ünvana dəyişirik və digər yerləri olduğu kimi saxlayırıq.

```
ntlm_auth = "/usr/local/bin/ntlm_auth --request-nt-key --
username=%{%{Stripped-User-Name}:-%{%{User-Name}:-None}} --
challenge=%{%{mschap:Challenge}:-00} --nt-response=%{%{mschap:NT-Response}:-
00}"
```

Sonra test etmək üçün bizə 2 konsol pəncərəsi lazım olacaq.

1-ci konsol pəncərəsində

 # radiusd -fX => FreeRadiusun debug əmrini daxil edirik. Aşağıdakı sətrlər
kimi sətrlər çıxır və gözləyirik

```
.........
Sending Access-Accept of id 198 to 127.0.0.1 port 56224
        MS-CHAP-MPPE-Keys =
0x00000000000000000f1eef4a31ec3792beebab6d25e82b72a0000000000000000
        MS-MPPE-Encryption-Policy = 0x00000001
        MS-MPPE-Encryption-Types = 0x00000006
Finished request 0.
Going to the next request
Waking up in 4.9 seconds.
Cleaning up request 0 ID 198 with timestamp +4
Ready to process requests.
```

2-ci konsol pəncərəsində isə
"radtest *istifadeciadi "şifrə" freeradius-server-ip* **10** *pre-shared-secret-key"*
Yəni bizim vəziyyətimizdə aşağıdakı kimi əmri daxil edirik.
 # radtest -t mschap camal "C123456789c" localhost 0 testing123
Nəticədə əgər aşağıdakı kimi **Access-Accept** gördüksə bu o deməkdir ki, hər şey işləyir.

```
Sending Access-Request of id 33 to 127.0.0.1 port 1812
        User-Name = "camal"
        NAS-IP-Address = 10.0.0.1
        NAS-Port = 0
        Message-Authenticator = 0x00000000000000000000000000000000
        MS-CHAP-Challenge = 0x106f51f972e17124
        MS-CHAP-Response =
0x000100000000000000000000000000000000000000000000000024c9483ba63f967effa5e49
9715e679c5d1f0f942a36420b
rad_recv: Access-Accept packet from host 127.0.0.1 port 1812, id=33,
length=84
        MS-CHAP-MPPE-Keys =
0x00000000000000000f1eef4a31ec3792beebab6d25e82b72a0000000000000000
        MS-MPPE-Encryption-Policy = 0x00000001
        MS-MPPE-Encryption-Types = 0x00000006
```

1-ci konsol pəncərəsində isə nəticə aşağıdakı kimi olmalıdır.

```
.........
....
....
Found Auth-Type = MSCHAP
# Executing group from file /usr/local/etc/raddb/sites-enabled/default
+group MS-CHAP {
[mschap] Client is using MS-CHAPv1 with NT-Password
[mschap]        expand: %{Stripped-User-Name} ->
[mschap]        ... expanding second conditional
[mschap]        expand: %{User-Name} -> camal
[mschap]        expand: %{%{User-Name}:-None} -> camal
[mschap]        expand: --username=%{%{Stripped-User-Name}:-%{%{User-Name}:-
None}} -> --username=camal
```

```
[mschap]  mschap1: 58
[mschap]        expand: %{mschap:Challenge} -> 5872c80af597f400
[mschap]        expand: --challenge=%{%{mschap:Challenge}:-00} -> --
challenge=5872c80af597f400
[mschap]        expand: %{mschap:NT-Response} ->
bd785869e3086f6f8af55af3ac177b59e925e2a8bafe1f9f
[mschap]        expand: --nt-response=%{%{mschap:NT-Response}:-00} -> --nt-
response=bd785869e3086f6f8af55af3ac177b59e925e2a8bafe1f9f
Exec output: NT_KEY: F1EEF4A31EC3792BEEBAB6D25E82B72A
Exec plaintext: NT_KEY: F1EEF4A31EC3792BEEBAB6D25E82B72A
[mschap] Exec: program returned: 0
[mschap] adding MS-CHAPv1 MPPE keys
++[mschap] = ok
+} # group MS-CHAP = ok
# Executing section post-auth from file /usr/local/etc/raddb/sites-
enabled/default
+group post-auth {
++[exec] = noop
+} # group post-auth = noop
Sending Access-Accept of id 133 to 127.0.0.1 port 38369
        MS-CHAP-MPPE-Keys =
0x0000000000000000f1eef4a31ec3792beebab6d25e82b72a0000000000000000
        MS-MPPE-Encryption-Policy = 0x00000001
        MS-MPPE-Encryption-Types = 0x00000006
Finished request 3.
Going to the next request
Waking up in 4.9 seconds.
Cleaning up request 3 ID 133 with timestamp +295
Ready to process requests.
```

Hər şeyin işlədiyini gördükdən sonra Freeradiusu startup faylına əlavə edirik və sonra da işə salırıq

```
# echo 'radiusd_enable="YES"' >> /etc/rc.conf
# service radiusd start
```

CentOS üzərində DaloRadius qurulması

daloRADIUS - Əsasən İSP yükləmələrini qarşılayan və HotSpot idarəetməsi üçün nəzərdə tutulan qabaqcıl RADİUS web idarəetmə proqramıdır. Istifadəçilərin idarəedilməsi, qrafik hesabatların hazırlanması, hesablar, billing motoru və coğrafi təyinat üçün GoogleMaps-lə inteqrasiya imkanına sahibdir.

Öncə sistemin reposlarını və yüklənmiş paketlərlə kernel yeniləyirik:

```
yum update
yum upgrade
```

Sonra FreeRADIUS, MySQL və PHP serveri və mysql-ə qoşulma üçün digər paketləri yükləyək:

```
yum install freeradius freeradius-mysql freeradius-utils mysql-server mysql
php-mysql php

chkconfig mysqld on            # MySQL serveri startup servislərə əlavə edirik
/etc/init.d/mysqld start       # MySQL serveri işə salırıq

/usr/bin/mysql_secure_installation  # root şifrəsi təyin edirik, anonim
                                    qoşulmanı söndürürük, test bazanı silirik
                                    və uzaqdan root istifadəçi ilə qoşulmağa
                                    qadağa təyin edirik.

mysql -uroot -pfreebsd              # MySQL-ə root istifadəçi ilə daxil
                                    oluruq
```

RADIUS bazası, istifadəçisi, şifrəsi yaradıb uzaqdan qoşulmağa izin veririk.

```
CREATE DATABASE radius;
GRANT ALL PRIVILEGES ON radius.* TO radius@localhost IDENTIFIED BY "freebsd";
FLUSH PRIVILEGES;
exit
```

RADIUS bazası üçün FreeRADIUS sxemini qururuq

```
mysql -uradius -pfreebsd radius < /etc/raddb/sql/mysql/schema.sql

service iptables stop   # IPTABLES-i söndürürük(şəxsi istəyinizə baxır)
chkconfig --level 0123456 iptables off
chkconfig --level 0123456 ip6tables off
```

Və şəxsi praktikamda daloradius-un php ilə bağlı çoxlu yükləmələrini gördükdən sonra php-yə aid bütün paketləri yüklədim. Ancaq siz bunu süzgəcdən keçirib yalnız öz tələbinizə uyğun olanı seçə bilərsiniz:

```
yum install `yum search php- |grep php- | grep -v === | awk '{ print $1 }'`
pear install DB          # Mütləq bu paketi yükləyirik ki, Daloradius DB-yə
                         qoşula bilsin
```

/etc/ raddb/sql.conf faylını aşağıdakı kimi quraşdırırıq:

```
sql {
        database = "mysql"
        driver = "rlm_sql_${database}"
        server = "localhost"
        port = 3306
        login = "radius"
        password = "freebsd"
        radius_db = "radius"
        acct_table1 = "radacct"
        acct_table2 = "radacct"
        postauth_table = "radpostauth"
        authcheck_table = "radcheck"
        authreply_table = "radreply"
        groupcheck_table = "radgroupcheck"
        groupreply_table = "radgroupreply"
        usergroup_table = "radusergroup"
        deletestalesessions = yes
        sqltrace = no
        sqltracefile = ${logdir}/sqltrace.sql
        num_sql_socks = 5
        connect_failure_retry_delay = 60
        lifetime = 0
        max_queries = 0
        nas_table = "nas"
        $INCLUDE sql/${database}/dialup.conf
}
```

/etc/raddb/radiusd.conf faylının içində aşağıdakı sətiri tapıb qarşısından şərhi silirik:

```
$INCLUDE sql.conf
```

/etc/raddb/sites-available/default faylının içində isə **'authorize {}'**, **'accounting {}'** və **'session {}'** bölmələrinin içində **sql** sətirini tapıb qarşısından şərhi silin.

Həmçinin uyğun olaraq **/etc/raddb/sites-available/inner-tunnel** faylında da **'authorize {}'** və **'session {}'** bölmələrinin içində **sql** sətirini tapıb qarşısından şərhi silin.

Sonra **/etc/raddb/clients.conf** faylının içinə istədiyiniz client-i əlavə edin. Mən test üçün **localhost**-u əlavə etdim. Aşağıdakı kimi:

```
client localhost {
        ipaddr = 127.0.0.1
        secret = freebsd
        require_message_authenticator = no
```

```
        shortname = localhost
        nastype = other
}

service radiusd start          # RADIUS serveri işə salırıq
chkconfig radiusd on           # RADIUS servisini starupa əlavə edirik

radius -fX  # RADIUS serveri debug etmək üçün bu rejimdə işə sala bilərsiniz
```

Sonra FreeRADIUS-un WEB management alətini quraşdırırıq, yəni Daloradius-u:

```
cd /tmp/           # TEMP qovluğuna daxil oluruq və daloradius paketini
                   endiririk
wget
http://sourceforge.net/projects/daloradius/files/latest/download?source=files
mv download\?source\=files daloradius-0.9-9.tar.gz
tar zxvf daloradius-0.9-9.tar.gz
```

Daloradius bazasının strukturunu MySQL-ə import edirik:

```
mysql -uradius -pfreebsd radius < /tmp/daloradius-0.9-9/contrib/db/fr2-mysql-
daloradius-and-freeradius.sql
```

/tmp/daloradius-0.9-9/library/daloradius.conf.php faylında aşağıdakı sətirləri uyğun olaraq config edirik:

```
$configValues['DALORADIUS_VERSION'] = '0.9-9';
$configValues['FREERADIUS_VERSION'] = '2';
$configValues['CONFIG_DB_ENGINE'] = 'mysql';
$configValues['CONFIG_DB_HOST'] = 'localhost';
$configValues['CONFIG_DB_PORT'] = '3306';
$configValues['CONFIG_DB_USER'] = 'radius';
$configValues['CONFIG_DB_PASS'] = 'freebsd';
$configValues['CONFIG_DB_NAME'] = 'radius';
```

Sonda quraşdırdığımız qovluğu artıq WEB serverimizin işlək public_html qovluğuna köçürürük:

```
mv /tmp/daloradius-0.9-9 /var/www/html/daloradius
```

Öncədən aşağıdakı qovluq və faylları yaradırıq ki, daloradius şikayət etməsin. Mənim halımda gileylənirdi və ona görədə istədiyi hər şeyi etdim ki, işləsin:

```
mkdir /var/www/html/themes
mkdir /var/www/html/themes/blue
mkdir /var/www/html/themes/blue/css
touch /var/www/html/themes/blue/css/auto-complete.css
chown -R apache:apache /var/www/html/
touch /tmp/daloradius.log
```

/etc/php.ini faylında ölkə ərazimizi aşağıdakı sətirdəki kimi təyin edirik:

```
date.timezone = 'Asia/Baku'
```

```
service apache2 restart        # Apache-ni restart edirik ki,
                               quraşdırmalarımız işə düşsün
```

Çıxan səhvləri təyin etmək üçün **/var/log/httpd/error.log** faylında WEB serverin verdiyi səhvlərə baxırıq.

Sonda **http://10.50.3.202/daloradius/** linkinə aşağıdakı istifadəçi adı və şifrə ilə daxil oluruq(şəkildəki kimi):
login: **Administrator**
password: **radius**

Əgər uğurla daxil olsanız aşağıdakı şəkil çap edilməlidir:



FreeBSD FreeRADİUS EAP-TLS

Bu başlıqda biz FreeRADIUS vasitəsilə WiFi qoşulmasını Sertifikatla edəcəyik. Yeni istifadəçi FreeRADIUS Server tərəfindən generasiya edilmiş CA sertifikatını və həmin CA ilə imzalanmiş açarı öz Desktop-unda yüklədikdən sonra WiFi-ya qoşula biləcək.
Bütün işlər FreeBSD 9.2 x64 və FreeRADIUS 2.2.2 üzərində görülmüşdür.

Yada mobil telefonlar sadəcə istifadəçi adı və şifrə ilə qoşulacaq.

cd /usr/ports/security/openssl
make config



make install

```
root@backupbsd:~ # tar -zxf CA_scritps.tgz      # TGZ paketi açırıq.
root@backupbsd:~ # chmod -R +x scritps/         # Sertifikatları yaratmaq
                                                üçün yetki veririk
root@radius:~ # cd scritps/   # Scriptin ünvanına daxil oluruq. İşə salırıq.
root@owncloud:~/scritps # ./CA_root.sh ROOTPASSWORD
Generating a 1024 bit RSA private key
.....................................++++++
...++++++
writing new private key to 'pem/newreq.pem'
-----
You are about to be asked to enter information that will be incorporated
into your certificate request.
What you are about to enter is what is called a Distinguished Name or a DN.
There are quite a few fields but you can leave some blank
For some fields there will be a default value,
If you enter '.', the field will be left blank.
-----
```

```
Country Name (2 letter code) [AU]:AZ
State or Province Name (full name) [Some-State]:BAKU
Locality Name (eg, city) []:Narimanov
Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:DOMAIN
Organizational Unit Name (eg, section) []:IT
Common Name (e.g. server FQDN or YOUR name) []:RADIUS Root Certificate
Email Address []:jamal.shahverdiyev@domain.az
MAC verified OK
```

Server sertifikatlarını yaradırıq.

```
root@backupbsd:~/scritps # echo "01" > ./demoCA/serial
root@backupbsd:~/scritps # touch ./demoCA/index.txt
root@owncloud:~/scritps # ./CA_server.sh server.name.local SERVERPASSWORD
ROOTPASSWORD
Generating a 1024 bit RSA private key
.............++++++
.......++++++
writing new private key to 'pem/newreq.pem'
-----
You are about to be asked to enter information that will be incorporated
into your certificate request.
What you are about to enter is what is called a Distinguished Name or a DN.
There are quite a few fields but you can leave some blank
For some fields there will be a default value,
If you enter '.', the field will be left blank.
-----
Country Name (2 letter code) [AU]:AZ
State or Province Name (full name) [Some-State]:BAKU
Locality Name (eg, city) []:Narimanov
Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:DOMAIN
Organizational Unit Name (eg, section) []:IT
Common Name (e.g. server FQDN or YOUR name) []:server.name.local
Email Address []:user@gmail.com

Please enter the following 'extra' attributes
to be sent with your certificate request
A challenge password []:SERVERPASSWORD
An optional company name []:
Using configuration from /etc/ssl/openssl.cnf
Check that the request matches the signature
Signature ok
Certificate Details:
        Serial Number: 1 (0x1)
        Validity
            Not Before: Dec  9 05:25:17 2013 GMT
            Not After : Dec  7 05:25:17 2023 GMT
        Subject:
            countryName               = AZ
            stateOrProvinceName       = BAKU
```

```
            localityName              = Narimanov
            organizationName          = DOMAIN
            organizationalUnitName    = IT
            commonName                = server.name.local
            emailAddress              = user@gmail.com
        X509v3 extensions:
            X509v3 Extended Key Usage:
                TLS Web Server Authentication
Certificate is to be certified until Dec  7 05:25:17 2023 GMT (3650 days)
Sign the certificate? [y/n]:y


1 out of 1 certificate requests certified, commit? [y/n]y
Write out database with 1 new entries
Data Base Updated
MAC verified OK
```

Klientin sertifikatını yaradırıq.

```
root@owncloud:~/scritps # ./CA_client.sh client.name.local CLIENTPASSWORD
ROOTPASSWORD
Generating a 1024 bit RSA private key
.....................................................................++++++
.................++++++
writing new private key to 'pem/newreq.pem'
-----
You are about to be asked to enter information that will be incorporated
into your certificate request.
What you are about to enter is what is called a Distinguished Name or a DN.
There are quite a few fields but you can leave some blank
For some fields there will be a default value,
If you enter '.', the field will be left blank.
-----
Country Name (2 letter code) [AU]:AZ
State or Province Name (full name) [Some-State]:BAKU
Locality Name (eg, city) []:Narimanov
Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:DOMAINinfo
Organizational Unit Name (eg, section) []:IT
Common Name (e.g. server FQDN or YOUR name) []:client.name.local
Email Address []:admin@gmail.com

Please enter the following 'extra' attributes
to be sent with your certificate request
A challenge password []:CLIENTPASSWORD
An optional company name []:
Using configuration from /etc/ssl/openssl.cnf
Check that the request matches the signature
Signature ok
Certificate Details:
        Serial Number: 2 (0x2)
        Validity
```

```
            Not Before: Dec  9 05:36:15 2013 GMT
            Not After : Dec  7 05:36:15 2020 GMT
        Subject:
            countryName               = AZ
            stateOrProvinceName       = BAKU
            localityName              = Narimanov
            organizationName          = DOMAINinfo
            organizationalUnitName    = IT
            commonName                = client.name.local
            emailAddress              = admin@gmail.com
        X509v3 extensions:
            X509v3 Extended Key Usage:
                TLS Web Client Authentication
Certificate is to be certified until Dec  7 05:36:15 2020 GMT (2555 days)
Sign the certificate? [y/n]:y

1 out of 1 certificate requests certified, commit? [y/n]y
Write out database with 1 new entries
Data Base Updated
MAC verified OK
```

Diffie-Hellman açarı yaradırıq.

```
root@backupbsd:~/scritps # openssl dhparam -out dh1024.pem 1024
```

Təsüdufi uzunluqda 1024 bayt yazırıq.

```
root@backupbsd:~/scritps # dd if=/dev/urandom of=random count=2
2+0 records in
2+0 records out
1024 bytes transferred in 0.000061 secs (16843009 bytes/sec)
```

FreeRADIUS 2.2 versiyasını yükləyək.

```
cd `whereis freeradius2 | awk '{ print $2 }'`    # FreeRADIUS2 portuna daxil
                                                 oluruq.
make config                                      # Lazımi modulları seçirik.
```




```
make install                                     # Yükləyirik.
```

Növbəti açarları **'/usr/local/etc/raddb/certs'** ünvanına nüsxələyək.

```
root@radius:/usr/ports/net/freeradius2 # cd /root/scritps/  # sertifikatların
                                                            qovluğuna daxil
                                                            olaq
root@owncloud:~/scritps # cp ./pem/root.pem /usr/local/etc/raddb/certs/
root@owncloud:~/scritps # cp ./pem/server.name.local.pem
/usr/local/etc/raddb/certs/
root@owncloud:~/scritps # cp ./dh1024.pem /usr/local/etc/raddb/certs/
root@owncloud:~/scritps # cp ./random /usr/local/etc/raddb/certs/
```

'/usr/local/etc/raddb/clients.conf' faylına aşağıdakı sətirləri əlavə edirik.

```
client accessp {
        secret          = qwerty                # WiFi ile RADIUS arasinda
olan Pre-Shared key
        ipaddr          = 10.50.12.200          # WiFI AP-nin IP adresi
        shortname       = Test Access point
}
```

Həmçinin **'/usr/local/etc/raddb/radiusd.conf'** faylında aşağıdakı sətirlərin şərhsiz olmasını yoxlayın.

```
modules {
........
        $INCLUDE ${confdir}/modules/
........
        $INCLUDE eap.conf
}
```

"**/usr/local/etc/raddb/eap.conf**" faylında **eap {** bölümündə aşağıdakı sətirləri quraşdırırıq.

```
default_eap_type = tls # EAP-TLS protokolu istifadə edirik.
........
tls {
        certdir = ${confdir}/certs
        cadir = ${confdir}/certs

        private_key_password = SERVERPASSWORD
        private_key_file = ${certdir}/server.name.local.pem
        certificate_file = ${certdir}/server.name.local.pem
        CA_file = ${cadir}/root.pem

        dh_file = ${certdir}/dh1024.pem
        random_file = ${certdir}/random
}
```

Ancaq şəxslər ola bilər ki, onların iPAD və Android olan telefonları ola bilər və onlara sertifikatları yükləyə bilmərik. Bunun üçün isə EAP-PEAP quraşdırmalıyıq. **/usr/local/etc/raddb/modules/mschap** faylında aşağıdakı dəyişikliyi edəcəyik.

```
mschap {
        use_mppe = yes                  # mppe alqoritmini istifadə et
        require_encryption = yes        # şifrələnmə istifadə et
        require_strong = yes            # Həmişə 128 bitlik açar tələb edir
```

```
        with_ntdomain_hack = yes        # Windows bizə istifadəçinin adını
        # DOMAIN\username, formasında yollayır, ancaq cavab olaraq yalnız
        # istifadəçi ilə qayıdır. Bu HACK həmin problemi həll edir.
```

Aşağıdakı sətirləri isə **/usr/local/etc/raddb/modules/realm** faylına əlavə edirik.

```
realm ntdomain {
        format = prefix
        delimiter = "\\"
        ignore_default = no
        ignore_null = no
}
```

/usr/local/etc/raddb/sites-available/default faylında aşağıdakı sətirləri dəyişdiririk.

```
authorize {
.........
#       suffix
        ntdomain
.........
}
```

/usr/local/etc/raddb/proxy.conf faylına aşağıdakı sətirləri əlavə edirik.

```
realm DEFAULT {
        type            = radius
        authhost        = LOCAL
        accthost        = LOCAL
}
```

Sonra **eap.conf** faylını açırıq və **eap {** başlığına peap artırdıqdan sonra bizim **TLS**-imizə həmçinin **PEAP** əlavə edirik. /usr/local/etc/raddb/eap.conf faylında aşağıdakı dəyişiklikləri edirik.

```
default_eap_type = tls peap
........
peap {
        default_eap_type = mschapv2
}
```

İndi isə FreeRADIUS üzərində istifadəçi bazasını yaratmaq lazımdır. FreeRADIUS istifadəçi bazası olaraq MySQL, LDAP, PgSQL və hətta sistemin passwd faylından istifadə edə bilər. Biz sadəcə adi fayldan götürəcəyik. /usr/local/etc/raddb/modules/files faylında aşağıdakı dəyişiklikləri edəcəyik.

```
files {
        usersfile = ${confdir}/users
        compat = no
}
```

/usr/local/etc/raddb/users faylına isə aşağıdakı istifadəçiləri əlavə edirik.

```
user1 Cleartext-Password := "user1pass"
```

```
user2 Cleartext-Password := "user2pass"
user3 Cleartext-Password := "user3pass"
user4 Cleartext-Password := "user4pass"
```

FreeRADIUS-u işə salaq və test edək.

```
echo 'radiusd_enable="YES"' >> /etc/rc.conf      # FreeRADIUS-u Startup-a
                                                  əlavə edirik.

chown freeradius:freeradius /usr/local/etc/raddb/certs/*      #
                                        Sertifikatlarının Ownerini təyin edirik
                                        Artıq ADSL modemə gələn müraciətləri
                                        FreeBSD RADIUS serverimizə
                                        yönləndiririk.

radiusd -fX              # RADIUS-u debug rejimdə işə salırıq.
```

AP-nin quraşdırılması və qoşulması

Access Point - quraşdırdıqda, sadəcə NAT rejimdə özü DHCP vasitəsilə IP paylayacaq. Qalanı isə istifadəçi adı, şifrə üçün ünvanı RADIUS-a yönləndirməkdir. Məsələn ZyXel üçün qurqaşdırma aşağıdakı şəkildəki kimi olacaq.



Clientin quraşdırılması və qoşulması.

Hər bir clientin quraşdırılması və qoşulması üçün biz ayrıca sertifikat generasiya etməliyik. Bunlardan birini öncə generasiya etmişdik. Client sertifikatlarını **'/root/scripts/p12'** qovluğundan və root sertifikatı isə **'/root/scripts/der'** qovluğundan **'/mnt'** qovluğuna **nüsxələyirik**. Və **WinSCP** vasitəsi ilə ordan götürürük. Sonra isə həmin sertifikatı WiFi vermək istədiyimiz istifadəçinin Desktop-una yükləyirik. Sözsüz ki, öncə root sertifikatı və sonra isə **P12** genişlənməsində olan istifadəçi sertifikatını yükləmək lazımdır.

```
root@owncloud:~ # cp /root/scritps/der/root.der /mnt/
root@owncloud:~ # cp /root/scritps/p12/client.name.local.p12 /mnt/
```

Windows7-də və Windows8-də sertifikatın yüklənməsi və quraşdırılması.

Deyək ki, Windows8 maşını üçün COMMON NAME-də olan adla camal.client.local adlı client sertifikatını RADIUS Root Ceritifacate vasitəsilə **CLIENTPASSWORD** şifrəsi ilə imzalamışıq. Ona görə öncə dediyimiz kimi, həmin **root** açarı və **camal.client.local.p12** açarını həmin **windows8** maşına upload edirik. Windows8 maşında mütləq öncə root sertifikatı **'Trusted root certificates'** bölməsinə yükləyirik. Aşağıdakı ardıcıllıqda göstərilir. **root** sertifikatın üstündə iki dəfə sıxılır və **Install certificate** düyməsinə sıxılır.













Finish -> OK -> OK

İndi isə Client **client.name.local.p12** sertifikatını yükləyək.









FINISH -> OK

Öncə seçdiyimiz Access Point-in Properties-ni aşağıda formada quraşdırırıq.







Sonra aşağıdakı şəkildən **Advanced Settings** bölməsinə keçirik.







Sonda **OK** -> **OK**

Sonra Windows8 maşından qoşulaq Access Point-imizə.









Client sertifikatının revoke edilməsi

Sizdə işdə elə bir meqamlar ola bilər ki, kimsə işdən çıxar və ehtiyac olacaq ki, həmin işçinin sertifikatlarını sıfırlayasınız. Bu ona görədir ki, həmin istifadəçi artıq sizin WiFi şəbəkəsinə ümumiyyətlə daxil ola bilməsin(İşdən azad edilmənin adi prosedurudur)

Öncə açdığınız arxivin içində **CA_revoke.sh** adlı script mövcuddur hansı ki, bu işdə bizə kömək edəcək.
Misal üçün **client.namel.local** adlı istifadəçinin sertifikatını revoke edirik.

```
root@owncloud:~ # echo "01" >> /root/scritps/demoCA/crlnumber
root@owncloud:~/scritps # ./CA_revoke.sh client.name.local ROOTPASSWORD

rm: revoke/root-revoked.pem: No such file or directory      # Fikir verməyin
                                                            indi yaradılacaq.
rm: revoke/revoke.crl: No such file or directory            # Fikir verməyin
                                                            indi yaradılacaq.
Using configuration from /etc/ssl/openssl.cnf
Revoking Certificate 02.
Data Base Updated
```

```
Using configuration from /etc/ssl/openssl.cnf
pem/client.name.local.pem:
/C=AZ/ST=BAKU/L=Narimanov/O=DOMAINinfo/OU=IT/CN=client.name.local/emailAddres
s=admin@gmail.com
error 23 at 0 depth lookup:certificate revoked
```

/root/scritps/revoke/ qovluğunda **root-revoked.pem** adlı fayl yaranacaq. Bu açarı **/usr/local/etc/raddb/certs** qovluğuna nüsxələyirik.

```
root@owncloud:~/scritps # cp /root/scritps/revoke/root-revoked.pem
/usr/local/etc/raddb/certs/
```

/usr/local/etc/raddb/eap.conf faylında isə aşağıdakı formada dəyişiklik edirik.

```
tls {
.........
#       CA_file = ${cadir}/root.pem # dəyişirik aşağıdakına

        CA_file = ${cadir}/root-revoked.pem
.........
#### əlavə edirik.
        check_crl = yes
}
```

```
root@owncloud:~/scritps # /usr/local/etc/rc.d/radiusd restart # Sonda
                                                    FreeRADIUS-u restart edirik
```

FreeBSD 10.1 x64 WiFi Hotspot

Məqsədimiz FreeBSD server üzərində aeroport-larda və otellərdə olduğu kimi, Captive Portalın qurulmasıdır. Loru dildə desək qonaq wifi-a istifadəçi adı və şifrə daxil etmədən qoşulur amma, internet resurslarından istifadə etməyə çalışdıqda onun veb browserinə istifadəçi adı və şifrənin daxil edilməsi çıxacaq. Əgər daxil edilən istifadəçi adı və şifrəsi döğru olarsa, qonaq internetdən istifadə edə biləcək.

Şəbəkə quruluşu aşağıdakı kimi olacaq:



Nəzərdə tutulur ki, siz artıq FAMP qurmusunuz və artıq Apache PHP stabil işləyir. Apache web serverimiz öncədən sistemdə yaratdığımız **jamal** istifadəçi adı və qrupu adından işləyir(Yəni **httpd.conf** faylında bu direktivlər mövcuddur: **User jamal** və **Group jamal**). Bütün AP-lərdə İP ünvanlar şəkildəki kimi, qurulmuş və DHCP server ilə ROUTER, FreeBSD Serverimizin daxili şəbəkə kartının İP ünvanı göstərilmişdir. Apache-da VirtualHost yaradılmışdır və **wifi.domain.az** domain adında işləyir. **wifi.domain.az** VirtualHost-un PUBLIC_HTML qovluğu **/usr/local/www/wifi/** ünvanıdır və qovluğun uzvluk, qrup yetkisi **jamal** təyin edilib. Eynilə **/usr/local/etc/apache24/httpd.conf** quraşdırma fayllında **Listen 80** və **Listen 443** təyin edilmişdir. **/usr/local/domen/wifi.domain.az** virtualhost faylının tərkibi isə aşağıdakı kimidir:

```
<VirtualHost *:80>
        RewriteEngine on
        ReWriteCond %{SERVER_PORT} !^443$
        RewriteRule ^/(.*) https://%{HTTP_HOST}/$1 [NC,R,L]
</VirtualHost>
<VirtualHost *:443>
        SSLEngine on
        SSLCertificateFile /usr/local/etc/apache24/ssl/wifi.pem
        SSLCertificateKeyFile /usr/local/etc/apache24/ssl/wifi.key
        DocumentRoot /usr/local/www/wifi/
<Directory "/usr/local/www/wifi">
        AllowOverride All
        Require all granted
</Directory>
</VirtualHost>
```

php üçün **pear** yükləmək və MySQL-də lazım olan verilənlər bazası ilə istifadəçini yaratmaq gərəkdir.

Pear yükləyirik və PHP üçün quraşdırırıq:

```
# cd `whereis pear | awk '{ print $2 }'`  - Port ünvanına daxil oluruq
# make -DBATCH install                    - Yükləyirik
```

php.ini faylını nüsxələyirik və göstərilən dəyişənləri məzmununda uyğun olaraq dəyişirik:

```
# cp /usr/local/etc/php.ini-production /usr/local/etc/php.ini
```

/usr/local/etc/php.ini faylinda aşağıdakı dəyişiklikləri edirik:

```
date.timezone = 'Asia/Baku'
include_path = '.:/usr/local/share/pear'
```

MySQL verilənlər bazasını yaradaq, həmin bazaya istifadəçi təyin edək və wifi istifadəçilər üçün cədvəli yaradaq:

```
mysql> CREATE database wifi;
mysql> grant all privileges on wifi.* to wifidbuser@localhost identified by
'wifidbpassword';
mysql> use wifi;
mysql> CREATE TABLE `users` (
  `id` int(10) unsigned NOT NULL auto_increment,
  `username` varchar(50) default NULL,
  `password` varchar(50) default NULL,
  `created` timestamp NOT NULL default CURRENT_TIMESTAMP on update
CURRENT_TIMESTAMP,
  `time_begin` timestamp NOT NULL default '0000-00-00 00:00:00',
  `time_end` timestamp NOT NULL default '0000-00-00 00:00:00',
  `status` tinyint(4) NOT NULL default '0',
  `rule_num` smallint(5) unsigned NOT NULL,
  PRIMARY KEY  (`id`),
  KEY `rule_num` (`rule_num`)
```

```
) ENGINE=MyISAM AUTO_INCREMENT=6 DEFAULT CHARSET=cp1251 AUTO_INCREMENT=6 ;
```

/etc/rc.conf quraşdırma faylımız aşağıdakı kimi olacaq:

```
hostname="wifinat.domain.az"
ifconfig_em0="inet 88.8.9.10 netmask 255.255.255.0"
ifconfig_em1="inet 10.10.10.1 netmask 255.255.255.0"
defaultrouter="88.8.9.1"
sshd_enable="YES"
dumpdev="NO"

#### Local Disabled Services ####
sendmail_enable="NO"
sendmail_submit_enable="NO"
sendmail_outbound_enable="NO"
sendmail_msp_queue_enable="NO"
sendmail_rebuild_aliases="NO"
syslogd_enable="YES"
syslogd_program="/usr/sbin/syslogd"
syslogd_flags="-ss"

#### Local worked services ####
tcp_drop_synfin="YES"
icmp_drop_redirects="YES"
dhcpd_enable="YES"
dhcpd_ifaces="em1"
dhcpd_conf="/usr/local/etc/dhcpd.conf"
gateway_enable="YES"
natd_enable="YES"
natd_interface="em0"
firewall_enable="YES"
firewall_type="UNKNOWN"
firewall_script="/etc/ipfw.conf"

#### Third Party Services ####
apache24_enable="YES"
mysql_enable="YES"
```

/etc/ipfw.conf faylına firewall quraşdırmalarımızın reboot-dan sonra işləməsi üçün, aşağıdakı sətirləri fayla əlavə edirik(Görünən qaydalarda NAT edilir, istənilən istifadəçinin **80** və **443**-cü portlara etdiyi müraciətləri daxili WEB serverimizə yönləndirilir ki, qeydiyyatdan keçsinlər və uğurlu halda **400**-dən başlayaraq qayda əlavə ediləcək):

```
ipfw add 00200 divert 8668 ip from any to any via em0
ipfw add 10800 allow ip from any to 85.132.57.58
ipfw add 10900 allow ip from 85.132.57.58 to any
ipfw add 11000 allow ip from any to 85.132.57.59
ipfw add 12000 allow ip from 85.132.57.59 to any
ipfw add 60000 fwd 10.10.10.1,80 tcp from any to any dst-port 80 via em1
ipfw add 60001 fwd 10.10.10.1,443 tcp from any to any dst-port 443 via em1
ipfw add 65000 allow ip from any to any
ipfw add 65535 deny ip from any to any
```

Sistemimizin kernel minimallaşdırılmış və aşağıdakı opsiyalar əlavə edilib kompilyasiya edilmişdir:

```
options         IPDIVERT
options         IPFIREWALL
options         IPFIREWALL_VERBOSE
options         IPFIREWALL_VERBOSE_LIMIT=3
options         DUMMYNET
options         IPFIREWALL_FORWARD
options         IPFIREWALL_NAT
options         LIBALIAS
```

Portlardan DHCP-ni yükləyirik:

```
# cd /usr/ports/net/isc-dhcp42-server/     - Port ünvanına daxil oluruq.
# make config                              - Tələb edilən modulları seçirik
```




```
# make -DBATCH install          - Yükləyirik
```

/usr/local/etc/dhcpd.conf quraşdırma faylının tərkibini aşağıdakı şəklə gətiririk:

```
option domain-name "wifiofis.domain.az";
option domain-name-servers ns1.domain.az, ns2.domain.az;
default-lease-time 3600;
max-lease-time 86400;
ddns-update-style none;
authoritative;
subnet 10.10.10.0 netmask 255.255.255.0 {
        range 10.10.10.26 10.10.10.254;
        option routers 10.10.10.1;
}
# Access Pointləri şəkildəki İP ünvanlara görə rezerv edirik
host Wifi-1f.1 {
        hardware ethernet 04:18:76:8c:9a:a3;
        fixed-address 10.10.10.10;
}
host Wifi-1f.2 {
        hardware ethernet 04:18:66:43:11:11;
        fixed-address 10.10.10.2;
}
host Wifi-1f.3 {
        hardware ethernet 04:18:36:68:a9:9b;
        fixed-address 10.10.10.3;
}
```

DHCP üçün jurnal faylı yaradırıq və Syslog-dan süzgəcdən keçiririk(DHCP arenda jurnallarına **/var/db/dhcpd/dhcpd.leases** faylında baxa bilərsiniz):

```
# touch /var/log/dhcp.log
```

/etc/syslog.conf faylının sonuna aşağıdakı sətirləri əlavə edirik:

```
!dhcpd
*.*                                             /var/log/dhcp.log
```

DHCP-ni işə salırıq və qulaq asmasını yoxlayırıq:

```
# /usr/local/etc/rc.d/isc-dhcpd start
# sockstat -l|grep dhcp
dhcpd    dhcpd      4695  7  udp4   *:67                  *:*
dhcpd    dhcpd      4695  20 udp4   *:8997                *:*
```

Portlardan sudo-nu yükləyirik:

```
# cd `whereis sudo | awk '{ print $2 }'`   - Port ünvanına daxil oluruq
# make config                              - Tələb edilən modulları seçirik
```




```
# make -DBATCH install                     - Yükləyirik
```

/usr/local/etc/sudoers faylına aşağıdakı sətiri əlavə edirik(Bu web serverimizin firewall-a yetki alması üçün tələb edilir):

```
jamal ALL=(ALL) NOPASSWD: SETENV: ALL
```

/usr/local/www/wifi/config.php quraşdırma faylının tərkibi aşağıdakı kimi olacaq(istifadəçilərin qeydiyyatı və dayandırılması, İPFW qaydaların əlavə edilməsi/silinməsi vasitəsi ilə yerinə yetirilir):

```
# cat /usr/local/www/wifi/config.php
<?php

define('DEBUG', true);

define('conf_DB_HOST', 'localhost');            //Bazanin IP-si
define('conf_DB_USER', 'wifidbuser');           //Bazanin istifadeci adi
define('conf_DB_PASS', 'wifidbpassword');       //Bazanin shifresi
define('conf_DB_NAME', 'wifi');                 //Bazanin adi
define('RULE_NUM_MIN', 400);
define('RULE_NUM_MAX', 600);

define('CLIENTS_IP_BEGIN', '10.10.10.26'); // Mushterilen hansi IP unvandan bashlayacaqlar
define('CLIENTS_IP_COUNT', '200');
```

```
define('CLIENTS_TIME', '3600'); // Mushterinin Internet istifade ede bileceyi
zaman (1 saat)

define('RULE_ADD_IP', 'sudo ipfw add %s allow ip from any to %s');
define('RULE_ADD_IP2', 'sudo ipfw add %s allow ip from %s to any');
define('RULE_DEL_IP', 'sudo ipfw del %s');
define('RULE_DEL_IP2', 'sudo ipfw del %s');

/*
        STATUS:
        0 - Qoshulmanin melumati, duzdurse qoshulmusuz, eks halda qayda elave
edilmedi!
        1 - Artiq qoshulmusunuz
        2 - Istifadeci adi artiq istifade edilmishdir
        3 - Istifadeci dondurulmushdur
*/

$db_link = mysql_connect(conf_DB_HOST, conf_DB_USER, conf_DB_PASS);

if (!$db_link) return cms_errors('Verilenler bazasina qoshulmaq mumkun
olmadi!');

if (!mysql_select_db(conf_DB_NAME, $db_link)) return cms_errors('Verilenler
bazasina qoshulmaq mumkun olmadi!!!');

function cms_errors($text)
{
        if (DEBUG) echo $text;
        return false;
}

function dumpVarX(&$Var, $Var_s = null)
{
        echo "<div align='left' class='debug'>";
        dumpVar($Var, 0, $Var_s);
        echo "<div>";
        return true;
}

function dumpVar(&$Var, $Level = 0, $Var_s = null)
{
        if ($Level > 4)
        {
                echo "<b>...</b> LEVEL > 4<br>\n";
                return;
        }
        $is_ob_ar = false;
        $Type = gettype($Var);
        if (is_array($Var)) {$is_ob_ar = true; $Type =
"Array[".count($Var)."]";}
        if (is_object($Var)) $is_ob_ar = true;
        if ($Level == 0)
```

```
        {
                if ($Var_s) echo "\n<br>\n<b><span
style=\"color:#ff0000\">".$Var_s." = {</span></b>";
                if ($is_ob_ar && count($Var)) echo "<pre>\n";
                else echo "\n<tt>";
                $Level_zero = 0;
        }
        if ($is_ob_ar)
        {
                echo "<span style=\"color:#05a209\">$Type</span>\n";
                for (Reset($Var), $Level++; list($k, $v)=each($Var);)
                {
                        if (is_array($v) && $k==="GLOBALS") continue;
                        for ($i=0; $i<$Level*3; $i++) echo " ";
                        echo "<b>".HtmlSpecialChars($k)."</b> => ";
                        dumpVar($v, $Level);
                }
        }
        else
        {
                if (is_string($Var) && strlen($Var)>400)
                        echo '('.$Type.') <span style="color:#35BBFA">strlen
= '.strlen($Var).'</span>'."\n";
                else echo '('.$Type.') "<span
style="color:#0000FF">',HtmlSpecialChars($Var),'</span>"'."\n";
        }
        if (isset($Level_zero))
        {
                if ($is_ob_ar && count($Var)) echo "</pre>";
                else echo "</tt>";
                if ($Var_s) echo "<b><span
style=\"color:#ff0000\">}</span></b><br>\n";
        }
        return true;
}

?>
```

İstifadəçilərin qeydiyyatı skripti yəni **/usr/local/www/wifi/add.php** faylı aşağıdakı kimi olacaq:

```
# cat /usr/local/www/wifi/add.php
<?php

require_once('config.php');

$user = get_user($_GET['login'], $_GET['pass']);

if ($user)
{
        switch ($user['status'])
        {
                case 0:
```

```
                        if (add_rule($user)) echo '<h2>Siz
qoshulmusunuz!</h2>';
                                else echo 'Yalnish qayda elave edilmedi!';
                        break;
                case 1: echo '<h2>Siz artiq qoshulmusunuz</h2>'; break;
                case 2: echo '<h2>Username artiq istifade edilmishdir</h2>';
break;
                case 2: echo '<h2>Istifadeci adi dondurulmushdur</h2>';
break;
                default: echo 'Error'; break;
        }
} else echo '<h2>istifadeci/shifre yalnishdir!</h2>';

// Qeydiyyat

function get_user($login, $pass)
{
        $user = null;
        if (!$login || !$pass) return null;
        $login = addslashes($login);
        $sql = 'SELECT * FROM users WHERE username="'.$login.'" AND
password="'.$pass.'" LIMIT 1';
        $res = mysql_query($sql);
        if ($res) $user = mysql_fetch_assoc($res);
        return $user;
}

// Qaydanin elave edilmesi

function add_rule($user)
{
        $user_ip = $_SERVER['REMOTE_ADDR'];
        $current_date = time();

        if (!checkip($user_ip)) return false;
        $temp = 0;
        $sql = 'SELECT rule_num FROM users WHERE status=1 ORDER BY rule_num';

        $res = mysql_query($sql);
        if ($res)
        {
                $t = mysql_fetch_array($res);
                if (!$t) $rule_num = RULE_NUM_MIN;
                else {
                        while ($temp = mysql_fetch_array($res))
                        {
                                if (($t[0]+1) < $temp[0]) break;
                                $t = $temp;
                        }
                        if ($t[0] < RULE_NUM_MAX) $rule_num = $t[0]+1; else
return false;
                }
        } else return false;
```

```
        $command = sprintf(RULE_ADD_IP, $rule_num, $user_ip);
        exec($command);

        $command2 = sprintf(RULE_ADD_IP2, $rule_num+100, $user_ip);
        exec($command2);

        $sql = 'UPDATE users SET status=1, time_begin=NOW(),
rule_num='.$rule_num.' WHERE id='.$user['id'];
        mysql_query($sql);

        return true;
}

function checkip($ip)
{
        if (!$ip) return false;
        $user_ip = explode('.', $ip);
        $check_ip = explode('.', CLIENTS_IP_BEGIN);
        if (($check_ip[0] != $user_ip[0]) && $check_ip[0] != "*") return
false;
        if (($check_ip[1] != $user_ip[1]) && $check_ip[1] != "*") return
false;
        if (($check_ip[2] != $user_ip[2]) && $check_ip[2] != "*") return
false;
        if (!(($check_ip[3] <= $user_ip[3] && ($check_ip[3] +
CLIENTS_IP_COUNT) >= $user_ip[3])) && $check_ip[3] != "*") return false;
        return true;
}
?>
```

Vaxtın bitməsinə görə istifadəçinin bağlanışı skripti(Yəni /usr/local/www/wifi/cron.php faylı):

```
# cat /usr/local/www/wifi/cron.php
<?php

require_once('config.php');

check_users();

function check_users()
{
        $sql = 'SELECT * FROM users WHERE status=1 AND time_begin > 0 AND
(TIME_TO_SEC(TIMEDIFF(NOW(), time_begin)) > '.CLIENTS_TIME.')';
        $res = mysql_query($sql);
        if ($res)
        {
                while ($user = mysql_fetch_assoc($res))
                {
                        $command = sprintf(RULE_DEL_IP, $user['rule_num']);
                        exec($command);
                        $command2 = sprintf(RULE_DEL_IP2,
$user['rule_num']+100);
```

```
                        exec($command2);
                        $sql = 'UPDATE users SET status=2, time_end=NOW()
WHERE id='.$user['id'];
                        mysql_query($sql);
                }
        }
        return true;
}

?>
```

Qeyd: Fayllarda olan hərflərin tam Azərbaycan dilində görsənməsini istəsəniz, İnternetdə "**azerbaijan html unicode characters**" başlığı ilə axtarış edib, simvolların kodlraını tapa bilərsiniz. Məsələn: http://usefulwebtool.com/en/characters_azerbaijani.php

İstifadəçi adı və şifrənin daxil edilməsi üçün forma(Yəni **index.html** faylı):

```
# cat /usr/local/www/wifi/index.html
<!DOCTYPE html PUBLIC "-//W3C//DTD XHTML 1.0 Strict//EN"
    "http://www.w3.org/TR/xhtml1/DTD/xhtml1-strict.dtd">
<html xmlns="http://www.w3.org/1999/xhtml" xml:lang="en" lang="en">
<head>
        <meta http-equiv="Content-Type" content="text/html; charset=UTF-8" />
        <title>Inzibachtiliq</title>
        <link rel="stylesheet" type="text/css" href="admin.css" />

        <!--[if lt IE 7]><link rel="stylesheet" type="text/css" href="style-
ie.css" /><![endif]-->
</head>

<body>

<div class="login">

<div class="form">
<form method="get" action="add.php">
        <p><label>Login:</label><input class="text" name="login" type="text"
size="17"/></p>
        <p><label>Parol:</label><input class="text" name="pass"
type="password" size="16"/></p>
        <p><input class="submit" type="submit" value="Her shey doqrudur!"/>
</form>
</div>
<div class="rules">
        <h1>Wi-Fi istifadesi qaydasi</h1>
        <ol>
                <li>Qonaqlar ucun WiFi odenishsizdir!</li>
                <li>Reseption-a yaxinlashin</li>
                <li>Istifadeci adi ve shifre alib</li>
                <li>WiFi-dan yararlanin</li>
        </ol>

</div>
```

```
</div>
</body>
</html>
```

Admin paneli **/usr/local/www/wifi/admin** qovluğunda olacaq. Təhlükəsizlik üçün həmin qovluğu **htpasswd** ilə qorumanız lazımdır.
/usr/local/www/wifi/admin/admin.php faylının tərkibi aşağıdakı kimi olacaq:

```
<!DOCTYPE html PUBLIC "-//W3C//DTD XHTML 1.0 Strict//EN"
  "http://www.w3.org/TR/xhtml1/DTD/xhtml1-strict.dtd">
<html>
        <head>
        <title>Inzibatci.paneli</title>
        <link type="text/css" rel="stylesheet" href="style.css">
        </head>
<body>
<form method="post" action="admin.php">
        Istifadecilerin sayi: <input type="text" value="" name="num" size=2>
eded.<br><br>
        <input type="submit" value="Generasiya et">
</form><hr>

<?php
        require_once('/usr/local/www/wifi/config.php');
        $n = (int) $_POST['num'];
        if ($n > 10) { echo 'Yaradila bilecek istifadeci sayi heddi
ashilmishdir!<br><br>'; $n=0; }
  function generate_password($number=10)
  {
    $arr = array('1','2','3','4','5','6',
                 '7','8','9','0');
    // Shifre generasiya edirik
    $pass = "";
    for($i = 0; $i < $number; $i++)
    {
      // Massivin tesadufi indeksini hesablayiriq
      $index = rand(0, count($arr) - 1);
      $pass .= $arr[$index];
    }
    return $pass;
  }

        for ($i=0; $i<$n; $i++)
        {
                $login = generate_password(4);
                $pass = generate_password(6);
                $sql = 'INSERT INTO users (username, password, status,
rule_num) VALUES("apt'.$login.'", "'.$pass.'", 0, 0)';
                $res = mysql_query($sql);
        }
        if ($res) echo 'Sayda istifadeci <b>'.$n.'</b> ed. elave
edilmishdir.<br><br>';
```

```
        $sql = 'SELECT * FROM users';
        $res = mysql_query($sql);
        echo '<table
width=\'30%\'><td><b>Ad</b></td><td><b>Shifre</b></td><td><b>Status</b></td><
td><b>Qayda</b></td>';
        while ($data = mysql_fetch_assoc($res))
        {
                echo '<tr>';
                echo '<td>'.$data['username'].'</td>';
                echo '<td>'.$data['password'].'</td>';
                if ($data['status'] == 0) { echo '<td class=\'blue\'>Aktiv
deyil</td>'; }
                if ($data['status'] == 1) { echo '<td
class=\'green\'>Istifade edilir</td>';
                echo '<td>'.$data['rule_num'].'</td>';}
                if ($data['status'] == 2) { echo '<td class=\'reds\'>Istifade
edilmishdir</td>'; }
                if ($data['status'] == 3) { echo
'<td><b>Durdurulmushdur</b></td>'; }
                echo '</tr>';
        }
        echo '</table>';
?>

</body>
</html>
```

/usr/local/www/wifi/admin/style.css faylını tərkibi aşağıdakı kimi olacaq:

```
.reds {color:#f30;}
.blue {color:#0000cc;}
.green {color:#0f0;}
```

/usr/local/www/wifi qovluğunda **.htaccess** adlı bir fayl yaradırıq və məzmununa aşağıdakı sətirləri əlavə edirik.

```
AuthUserFile /usr/local/www/wifi/.htpasswd
AuthName "Soft Admin"
AuthType Basic
Require valid-user
```

/usr/local/www/wifi ünvanında istifadəçi adı ilə şifrəni yaradırıq.

```
htpasswd -bc .htpasswd admin freebsd
```

- **.htpasswd** faylina **admin** istifadəçi adını **freebsd** şifrəsi ile yaz
-b - command line-dan istifadəçi adı ve şifrəni gotur.
-c – göstərilən faylı yarat və ona daxil et(eger varsa silib yeniden yazacaq)

CRON skriptimizin istifadəçi limitlərinin yoxlanılması üçün 1 dəqiqədən bir işə salmaq məqsədilə **/etc/crontab** faylına əlavə edib, daemon-u yenindən işə salırıq:

```
# echo "*/1    *    *    *    *    root    /usr/local/bin/php
/usr/local/www/wifi/cron.php" >> /etc/crontab

# /etc/rc.d/cron restart
```

/usr/local/www/wifi/admin.css faylının tərkibi aşağıdakı kimi olacaq(Bu fayl arxa fonda olan şəkilləri təyin edir. Şəkillər isə **/usr/local/www/wifi/img/** qovluğundan oxunur. Şəkillər **/usr/local/www/wifi/img/gp.gif** və **/usr/local/www/wifi/img/logo.png** fayllarıdır. Siz bu şəkilləri istədiyinizə dəyişə bilərsiniz):

```
.login {width:800px; height:540px; position:absolute; left:50%; top:50%;
margin:-250px 0 0 -400px; border:dashed 1px #ddd;
background:url(img/logo.png) 30px 30px no-repeat #fff;}
.login .form {margin:120px 0 0 450px;}
.login .form p {position:relative; margin:0 0 30px 0;}
.login .form label {font:normal 18px arial; position:absolute; margin:3px 0 0
0; color:#aaa;}
.login .form input {margin:0 0 0 100px; padding:2px; font:normal 18px arial;}
.login .form input.text {border-right:solid 1px #ccc; border-bottom:solid 1px
#ccc; border-left:solid 1px #888; border-top:solid 1px #888;}
.login .rules {padding:10px 20px; margin:50px 30px;
background:url(img/gp.gif) 420px 20px no-repeat #ececec;}
h1 {margin:10px 0; font:normal 20px tahoma; color:#c00;}
ol {margin:20px 0 0 30px; padding:0;}
ol li {margin:0 0 10px 15px; font: normal 16px arial; }
```

Bütün qovluqda olan yetkilər yeniləyirik ki, yeni fayllara da mənimsədilsin:

```
# chown -R jamal:jamal /usr/local/www/wifi/
```

Səhifəyə ilk Daxil olduğumuzda istifadəçi adı və şifrə istəniləcək(yaratdığımız **admin** istifadəçi adı və şifrəsini daxil edib **Enter** sıxırıq):



Sonda istifadəçi üçün ilk görünən səhifə belə olacaq:

İnzibatçı interfeysi isə aşağıdakı şəkildəki kimi olacaq:



BÖLÜM 5

Daxili və dünya DNS serveri

- **DNS məntiqi**
- **FreeBSD DNS-in Windows Active Directory ilə inteqrasiya edilməsi**

Başlığımız DNS-in dünyada işləmə prinsipini, xırda nəzəriyyələrini və ümumiyyətlə DNS serverlərin bir-birləri ilə neçə əlaqəyə girmələrini açıqlayır. Eynilə bu başlıqda FreeBSD serverin DNS BİND-ı ilə Windows Active Directory arasında əlaqə yaradılacaq.

DNS məntiqi

DNS bazasının individual yazılar olur hansı ki, **RR**(**Resource Records**) adındadır. DNS bazasının individual hissələrinə isə **zone**-lar deyilir. Misal üçün əgər biz 64.223.167.147 IP ünvanlı www.google.com saytını açmaq istəsək, aşağıdaki şəkildə olan ardıcıllıq gedəcək.

Şəkildə göstərildiyi kimi, www.google.com saytına girmək istədiyimiz andaca, DNS server sizə onun IP ünvanına yönləndirəcək. Bu adi halda, əgər DNS server işləmədiyi halda, adın əvəzinə IP ünvanın istifadə edilməsinə oxşayır. Bunu aşağıdaki kimi istifadə edə bilərik:

http://64.233.167.147

Yada email yollamaq lazımdır.

izmail@[64.233.167.147]

Domain quruluşu **root**, ikinci dərəcəli və sonrakı alt domainlər quruluşunda gedir. Misal üçün bizim **company.com** adlı ikinci dərəcəli domain-miz var. Həmin domainin billing ilə məşğul olan **bill.company.com** adlı alt domain-i və **sec.company.com** adlı təhlükəsizlik departamenti var.

Ad quruluşu ardıcıllığı aşağıdaki şəkildəki kimi gedəcək:



DNS sistemdə olan ad quruluşu 3 strukturda gedir

Aşağıdaki listdə bəzi **gTLDS**(**Generic Top-Level Domain**) səviyyənin domainlərini açıqlayırıq:

- **.org** domain-i kommersiya xarakteri olmayan ictimaiyyət-ə aiddir.
- **.aero** domain-i yalnız dünya aeroportları üçün rezerv edilmişdir.
- **.biz** domain-i biznes xarakterli işlər üçün rezerv edilmişdir.
- **.coop** domain-i kooperativ birləşmələr üçün nəzərdə tutulmuşdur.
- **.int** domain-i isə ölkələr arasında olan razilaşmalar üçün istifadə edilir.
- **.museum** domain-i isə dünya muzeyləri üçün rezerv edilmişdir.
- **.name** domain-i individual xarakterlə rezerv edilmişdir.
- **.pro** domain-i isə məhdudlaşdırılmışdır və yalnız professional xarakterli məqsədlərdə istifadə edilə bilər.

Name Syntax

Domain adı nöqtələrlə ayrılaraq bir neçə hissyə bölünə bilər. Sadə DNS standartlarına riayət edərək bu ardıcıllığı istədiyiniz qədər davam etdirə bilərsiniz(**abc.head.company.com** bir misaldır). Aşağıdaki misal kimi:

string.string.string ……**string.**

Bütün ad **255** simvoldan çox ola bilməz. Bir subdomain **63** simvoldan çox ola bilməz. Ad hərflərdən, rəqəmlərdən və defis-dən ibarət ola bilər. Defis domain-in əvvəlində və ya axırında ola bilməz. Həmçinin adlarda istfadə edilə biləcək digər spesifik simvollarda movcuddur ancaq, siz bu simvolları istifadə eləməsəniz daha yaxşı olar çünki, bu sumvollar bir çox programlar tərəfindən istifadə edilməyə bilər. Böyük və kiçik simvollar istifadə edilə bilər ancaq, bunu istifadə eləmək çox narahat olacaq. DNS bazasının əsasları ilə düşünsək, misal üçün **newyork.com** adı bazada **NewYork.com** və ya **NEWYORK.COM** kimi saxlana bilər.

Beləliklə ad IP ünvana translyasiya edildikdə, istifadəçi üçün adın böyük və ya kiçik simvollarla daxil edilməsinin fərqi olmur. Ancaq ad bazada böyük və kiçik simvollarla saxlana bilər. Beləliklə əgər biz **DNS** bazasında **NewYork.com** kimi saxlamışıqsa, onda müraciət edilən zaman verilənlər bazası bu adı "**NewYork.com.**" kimi qaytaracaq. Sondaki '.' nöqtə simvolu adın hissəsini göstərir.

Bəzi hallar ola bilər ki, biz domain-in sağ hissəsini istifadə etmədən istifadə edə bilərik. Bu adətən proqramçıların programlarında istifadə edilir. Domain adlarının verilənlərində bu vəziyyət xeyli çətindir:

- Demək olar ki, əksər hallarda son nöqtəni yazmamaq olar.
- Adətən domain-in sağ tərəfini o halda yazmamaq olur ki, domain-in ortada olan hissəsinin sonu IETF standartında olan ad ilə bitir. Yəni misal üçün, sizdə **DNS** adı **computer.ru.company.com**-dursa siz bu adın əvəzinə **computer.ru** yaza bilərsiniz çünki, hər iki adı son nəticə etibarilə eyni IP ünvana yönləndirmiş olacaqsınız.

Reverse domain-lər

Bəzi program təminatları olur ki, DNS adını IP ünvana əsaslanaraq tapmaq istəyirlər. Bu halda isə biz IP ünvanı ada çevirməliyik. Buna reverse dns yazısı deyilir. IP ünvanın ada şevrilməsinə isə **reverse translation** deyilir.

Domain adlarında olduğu kimi, IP ünvanlarında ağac tipli strukturu olur. IP ünvanlara əsaslanaraq yaradılmış domainlər reverse domainlər adlanır. Pseudo domainlər **in-addr.arpa IPv4** üçün və **IP6.arpa** isə **IPv6** üçündür. Bu domainlərin tarixi açıqlanması var hansı ki, **inverse addresses in the Arpanet** mənasını kəsb edir. in-addr.arpa domain-nin altında təyin etdiyinin IP ünvanın rəqəmi olur. Misal üçün **in-addr.arpa** domain-i üçün **0**-dan **255** aralığınadək subdomainlər. Məsələn əgər bizim **195.47.37.0/24** şəbəkəsi var və bu şəbəkənin subdomain-i **195.in-addr.arpa** olacaq. Və 47.195.in-addr.arpa onun subdomain-dir(Beləliklə sonadək belə gedəcək). Diqqət yetirin ki, burda yazılan SUBDOMAIN-lər, IP ünvan kimi geriyə doğru yazılır. 195.47.37.2 IP ünvanı üçün quruluş aşağıdaki kimi olacaq.



Bütün bu quruluş yalnız IP class **A,B** və ya **C**-də üçün işləyəcək. Bəs sizdə yalnız **C** class-ın özü olsa nə edəcəksiniz? Siz özünüz üçün reverse DNS qaldıra biləcəksinizmi? Bəli qaldıracaqsınız. Baxmayaraq ki, IP ünvan **4** bayt-dan ibarətdir və classic **PTR** subdomain adı **3** ardıcıl rəqəmdən ibarətdir(**4**-cü rəqəmin özü IP ünvanın əlaməti olacaq). Buna görə də **C class**-ı üçün subdomainlər **4** elementlə yazılır. Misal üçün **195.149.150.16/28** şəbəkəsi üçün biz **16.150.149.194.in-addr.arpa** adını istifadə edəcəyik. Bəs əgər IP ünvan 5 bayt-dan ibarət olsa necə olacaq? Düzdür bu DNS qurulduğu andan etibarən səhv fikirləşdirilmişdir. Ancaq sonra bu səhv praktik olaraq qəbul edildi və RFC standartına əlavə edildi. Biz bunu 7-ci başlıqda daha detallı açıqlayacayıq. Siz IPv6-nın reverse yazılışı haqqında 3-cü bölmədə baxacaqsınız.

Domain 0.0.127.in-addr.arpa

127.0.0.1 IP ünvanının maraqlı komplektasiyası vardır. **127** şəbəkəsi hər bir kompüter üçün **LoopBack** adapter kimi **rezerv** edilmişdir. Ancaq bütün digər IP ünvanlar internetdə birmənalı olurlar. Hər bir Name Server tanınmış domainlər üçün avtoritar olmurlar ancaq, **0.0.127.in-addr.arpa** domain-i üçün avtoritardır(primary name server). Unutmayın hətta adi cache-lənmə serveri bu domain üçün avtoritar olur. Windows 2000 özünü elə aparırdı ki, onda elə deyil ancaq, bu hətta bu onun üçün belə çətin deyil.

Zone

Gəlin **company.com** domain-nin istifadəçisini açıqlayaq. Misal üçün deyək ki, domain müəyyən qrup kompüterlər üçün ərazidir. Məhz bu qrupda olan kompüter adlarının sonu **company.com** ilə bitir. Ancaq company.com domain-i çoxlu əraziyə malikdir və özündə 10 ədəd subdomain təşkil edir(**bill.company.com**, **sec.company.com** və **sales.company.com** və.s). Biz bu domain-i özümüzə Name server qaldıraraq, heç kəsdən asılı olmadan administrasiya edə bilərik. Bu domain-in altında istənilən sayda alt domain yarada bilərik. Aşağıdakı şəkildə biz company.com domain altında yaratdığımız alt domainlərin siyahısını açıqlayırıq:



Spesifik Zone-lar

Adi klassik zonalar adi domain və ya subdomainlərdən ibarət olur. Həmçinin DNS realizasiyasında Spesifik Zone-lardan da istifadə edilir. Bunlar aşağıdakilardir:

- **Zone stub:** Bu sadece asılı zonadır hansı ki, özündə hansı domain vəya subdomain-in administrasiya edilə bilməsi üçün name server haqqında informasiyanı təşkil edir(Onda zona üçün **NS** yazılar olur).

Ona gore də **Zone Stub**-da bütün zone məlumatları olmur.

- **Zone cache/hint:** Bu zona-da root name serverlər haqqında məlumat olur(Name server start edilən kimi avtorizasiya edilməyən verilənlər yaddaşın içinə oxunur). Ancaq BIND8 və yeni versiyalarda bu zone üçün ad göstəricisi mövcuddur. Köhnə versiyalarda isə name cache zone istifadə edilirdi. Unutmayın **authoritar root name serverler**-i **noqte** '.' simvolu ilə qeyd edilmişdir.

Reserve edilmiş Domain və Pseudo Domain-lər

Sonra qərara alındı ki, domainlərin digər əraziləri də həmçinin TLD kimi istifadə edilə bilər və bəzi TLD-lər RFC2606-da rezerv edildi.

- Test üçün nəzərdə tutulmuş domainlər
- Sənəd və misalların yaradılması üçün example domain.
- Error statuslarını çağırmaq üçün invalid domain.
- software qayıdışları üçün **localhost** domain-i.

Internetə qoşulmayan hostlarda həmçinin Domain adlarına sahib ola bilərlər. Hətta onlar TCP/IP protokolundan istifadə etməyə bilərlər. Bu halda onlara pseudo domain-lər deyilir. Bunlar böyük əhəmiyyət kəsb edirlər, əsasəndə maillər üçün. Bunun sayəsində Mail vasitəsilə digər şəbəkələrə məlumat ötürmək olur və Internetlə pseudo domain sayəsində edilir(Məsələn **DECnet** yada **MS Exchange**). Kompaniya öz daxili şəbəkəsində öncə TCP/IP, sonra isə DECNet protokolu istifadə edə bilər. Misal üçün (Daniel@computer.company.com) istifadəçi Internet vasitəsilə TCP/IP vasitəsilə ünvanlanır. Bəs DECnet protokolu işləyən kompüter olan istifadəçilərdə necə edəcəksiniz? Bunun üçün biz yalançı dnet adlı ünvan əlavə edirik. Istifadəçi Daniel isə daniel@computer.dnet.company.com adını tapmaq üçün DNS-də təyin edilən mail serverin dnet.company.com domain-ə müraciət edəcək. O isə öz növbəsində DECnet protokolu olan Gateway-e yönləndiriləcək(company.com domain özü). Məhz burdada TCP/IP (SMTP) DECNet-e convert edilir.

Müraciətlər(Translyasiyalar)

Əksər vacib müraciətlər hostname-i IP ünvana translyasiya edir. Bu məlumatı həmçinin DNS vasitəsilə əldə eləmək olur. Müraciətlər resolver tərəfindən vasitəçilik edir. Resolver isə DNS clientdir və name serveri-i soruşur. DNS bazası bütün dünyada yayımlandığı üçün, yaxın name server-in son cavabı gözləməyə ehtiyacı olmur və o kömək üçün digər serverlərə də həmçinin müraciət yollaya bilər. Name server isə resolver-ə cavab verir və sonra

aldığı cavabı və ya cavabın olmaması haqqında məlumatı ona qaytarır. Bütün mesajlar müraciət və cavablardan ibarət olur.

Name server işə başlayan kimi, zone haqqında məlumatı öz cache yaddaşında axtarır. Primary name server isə datanı daxili diskdən oxuyur, secondary isə edilən müraciət cavabını primary-dən alır və onu öz cache yaddaşına saxlamaqla qənaət edir. Primary və Secondary name serverlərdə saxlanılan informasiyaya avtoriativ data deyilir. Həmçinin name server müəyyən məlumatları öz cache-indən oxuyur hansı ki, bu datalar onun local zonaları haqqında olan məlumatlar deyil və öz daxili diskində saxlanılmır ancaq, izin verir ki, bu verilənlər root name serverlərlə əlaqə saxlaya bilsinlər. Bu dataya qeyri rəsmi verilənlər deyilir. BIND 8,9 versiyasının terminalogiyasında biz onlar haqqında **primary** və **secondary** kimi yox, **master** və **slave** kimi danışırıq. Aşağıdakı şəkildə göstərildiyi qaydada, **Secondary** server **zone transfer data** müraciəti gələn kimi, **Primary** server bu datanı öz daxili diskindən cache-nə yükləyir ki, **Secondary** serverə ötürə bilsin.



Name serverlər öz cache-lərində pozitiv olan datanı saxlayırlar(bəzi hallarda neqativ olur) ki, onlara gələn real müraciətlərə tez cavab versinlər. Bizim name serverin misalında göstərildiyi kimi bu data digər name serverlərdən alınmışdı və avtoritar deyil. Həmçinin DNS clientlər özləridə öz cache-lərində müəyyən məlumatları saxlayırlar.



Translyasiya tələbatları istifadəçinin programı tərəfindən tələb edilir. İstifadəçinin programı translyasiya üçün əməliyyat sisteminin komponentindən, yəni resolverindən məlumat alır. Resolver isə transyasiya üçün müraciəti name serverə transfer edir. Kiçik sistemlərdə əksər hallarda ancaq, son resolver olur. Bu hallarda DNS protokolu tərəfindən gələn bütün tələbatları, resolver başqa bir name server işləyən kompyüterin üzərinə yönləndirir. **Cache yaddaşı olmayan resolverə stub resolver** deyilir. Windows maşında buna DNS client deyilir.(Son stub resolverin necə DNS client olmammasında özünüzü caşdırmayın). Bəzi kompüterlər ancaq resolverlerlə işləyirlər(stub yada cachelenmə), digərləri isə həm resolver həmdə name server kimi işləyirlər. Indiki dövrə çoxlu birləşmə metodları mövcuddur ancaq, prinsip eyni olaraq qalır:

1. Istifadəçi əmri yerinə yetirir sonra isə hostname-i IP ünvana translyasiya eləmək lazım olur.
2. Əgər resolver cache-in üzvüdürsə o nəticəni birbaşa almağa çalışacaq.
3. Əgər cavab resolverin cache-inde(yada stub-da) tapılmadısa, resolverlər müraciəti name servere yönləndirəcək.
4. Name server cavab üçün öz cache yaddaşına baxacaq.
5. Əgər name server müraciəti öz cache yaddaşında tapa bilmədisə, o kömək üçün digər name serverlərə müraciət edəcək.
6. Name server lazımi nəticə əldə edənədək kifayət qədər çox name serverlərlə əlaqə quracaq. İş baş verəcək müddətdə name server özüdə həmçinin avtoritar name server ilə əlaqə qurmağa çalışacaq. Avtoritar name server son filter edilmiş cavabını verəcək(əgər edilən müraciətdə qeyri düzgün ad olarsa mənfi cavab qayıdacaq)
7. Əgər öncə yazdığımız əməliyyatda, müraciət cavabı tez müddət ərzində qaytarmazsa, müraciət təkrarlanacaq. Əgər resolver quraşdırmasında 1-dən çox name server göstərilibsə o növbəti müraciəti növbəti name serverə yönləndirəcək. Name serverlərin direktoriyası dövr şəklində işə düşür. **Cycle** name serverin konkret müraciəti ilə başlayır hansı ki, öncə göstərilmişdir.



DNS müraciət/cavabların transport üçün həm **TCP** həmdə **UDP** protokollarından istifadə edir. O hər iki protocol üçün **53**-cü port-u istifadə edir(port **53/UDP** və **53/TCP**). Müraciətlərin çoxu translyasiya vaxtı UDP porotokolunu istifadə edir(Bütün adların IP ünvana və geriyə çevrilməsində). **UDP protokolu** ilə **ötürülən** verilənlərin uzunluğu **512Bayt** ilə **məhdudlaşdırılmışdır**(truncation flagi istifadə edilə bilər hansı ki, qayıdan cavabın **512Bayt**-dan artıq olmayacağını təyin edir və qayıdan cavabın **TCP** ilə olacağı təyin edilir). UDP paketlər 512Bayt ilə limitlənirlər ona görə ki, fragmentasiya böyük həcmli IP diagramlar üçün nəzərdə tutulur. DNS öz növbəsində UDP fragmentasiyanı məntiqli saymır. **Primary** və **Secondary serverlər** arasında baş verən **transpartirovka** isə **TCP** protokolu vasitəsilə həyata keçirilir. Ümumi müraciətlər(hansı ki, adın IP ünvana və geriyə) **UDP protocol datagramları** vasitəsilə həyata keçirilir. Translyasiyalar client(resolver) tərəfindən name serverlərə translyasiya edilir. Əgər name server nə cavab verəcəyini bilməsə o kömək üçün digər name serverlərə müraciət edəcək. Name serverlər bu müraciətin cavabını öz aralarında qərara alırlar hansı ki, adi halda root

name serverlərdən başlayırlar. Aşağıdaki şəkildə translyasiya üçün cavaba tələbat var:



Internetdə bir qayda var hansı ki, verilənlərin olan bazası ən azı iki(asılı olmayan name serverlər) serverdən ibarət olmalıdır ki, biri çökdükdə digəri işləyə bilsin. Ümumiyyətlə biz ümidlənə bilmərik ki, bütün name serverlərə qoşulmaq həmişə mümkün olacaq. Əgər məlumat ötürülməsində TCP protokolu istifadə edilirsə, o halda name serverin qoşulmaq istədiyi serverin özü cavab verməyərsə TCP-nin öz cavablarına əlavə gecikmələr səbəb olacaq. Bu problemin mədəni hell forması UDP protocolundadır. Müraciət datagramı translasiya üçün ilk serverə göndərilir. Əgər edilən müraciət qısa vaxt intervalı ilə qayıtmazsa, onda datagram digər serverə göndəriləcək həmçinin, yenədə cavab qayıtmazsa digər bir serverə yönləndiriləcək(sonadək belə davam edəcək). Əgər bütün mövcud olan serverlərin heç birindən cavab gəlmərsə, dövr ən əvvələ qayıdacaq və cavab yenidən qayıtmazsa, onda timeout baş verəcək.

Round Robin

Bu texnika serverlər arasında yükün bölüşdürülməsi üçün istifadə edilir. Bu halda bizim DNS serverlərimiz üçün bir neçə PUBLIC IP ünvan tələb ediləcək. Misal üçün vacib olan WEB server ola bilər hansı ki, onun dayanıqlıq üçün bir neçə server tələb edilir. Deyək ki, biz WEB server-i 3 maşında işə salmışıq(Məsələn **www.company.com**). Birincisinin IP ünvanı 195.1.1.1, ikincisinin IP ünvanı 195.1.1.2 və üçüncüsünün IP ünvanı 195.1.1.3-dur. DNS Serverimizdə www.company.com üçün 3 yazı olacaq və onların hər birində ayrı IP ünvan olacaq. Round Robin texnikasında cavab aşağıdaki kimi olacaq:

1. Ilk istifadəçi üçün, ilk müraciətdə WEB server üçün qayıdan cavab 195.1.1.1, 195.1.1.2 və 195.1.1.3 cavabını qaytaracaq
2. Ikinci istifadəçi üçün olan növbəti müraciətdə WEB servere aid olan cavab 195.1.1.2, 195.1.1.3 və 195.1.1.1 qayıdacaq
3. Üçüncü istifadəçi üçün olan növbəti müraciətdə WEB Server-ə aid olan cavab 195.1.1.3, 195.1.1.1 və 195.1.1.2 qayıdacaq
4. Bu procedur ilk müraciətdən başlayaraq sonadək eyni formada davam edəcək.

Resolverlər

Resolver sistemin bir hissəsidir hansı ki, IP ünvan transilyasiyası ilə əlaqəlidir. Resolver clientdir ancaq, o konkret program kimi təyin edilmir. O sadəcə olaraq müəyyən bir kitabxana yığmasından ibarətdir hansı ki, **telnet**, **FTP**, **browser**lər və bəzi programların tətbiqində istifadə edilir. Misal üçün əgər telnet programına kompüterin adını IP ünvana çevirmək lazım olsa, o lazımi kitabxanaya müraciət edəcək. Client isə(bizim halda telnet programıdır) kitabxana funksyalarını(**gethostbyname**) çağırır hansı ki, müraciəti formulyasiya edir və onları name serverə oturur. Vaxt məhdudiyyətlərinə də həmçinin baxmaq lazımdır. Həmçinin ola bilər ki, resolver öz ilk müraciətinin cavabını ala bilmədi ancaq, o ikinci müraciətin cavabını ala bildi(server ilk müraciətin cavabını gözlədiyi halda ola bilər ki, o ikinci müraciətin cavabını başqa bir name serverdən aldı. Bu ona görə olur ki, ilk name server müraciətə daha gec cavab verir). Istifadəçi nöqtəyi nəzərdən buna baxdıqda elə gəlir ki, ilk müraciətə cavab qayıtmadı və ikinci müraciətdə buna cavab qayıtdı. Həmçinin UDP protokolun istifadəsi eyni nəticə verə bilər. Gəlin diqqətli olaq ona görə ki, elə hallar ola bilər ki, UDP protokolu istifadə edilir və şəbəkə yüklü olduğuna görə cavab yolda itmişdir.

UNIX OS tipli serverlərdə resolver-in quraşdırılması

Adətən **UNIX OS** tipli maşınlarda resolver faylı **'/etc/resolv.conf'** faylında olur və iki sətiri təşkil edir. Bu sətirlər aşağıdakilardır(ikinci sətir bir neçə dəfə təkrarlana bilər):

```
domain LOCAL_Domain-in_adi
nameserver Name_serverinizin_IP_adresi
```

Əgər istifadəçi yazdığı domain-in sonunda nöqtə yazmasada belə, resolver özü həmin domain-in sonuna nöqtə simvolunu əlavə edir və sonra cavabın qayıtması üçün müraciəti name serverə yollayır. Əgər translyasiya yerinə yetirilmədisə(cavab negative olarsa), resolver cavabı suffix olmadan qaytarmağa çalışacaq. Bəzi resolverlər özündə axtarış əmrini aktiv edirlər. Bu əmr sayəsində bir neçə local domain təyin eləmək olar. Name serverlərin IP ünvanları, resolver tərəfindən nameserver əmri ilə təyin edilirlər. Məsləhətdir ki, bir neçə nameserver əmri istifadə edəsiniz çünki, name serverlərdən hansısa biri düşəndə digərinə keçid edə biləsiniz.

Qeyd: Unutmayın ki, resolver faylında nameserver əmrinin qarşısında həmişə IP ünvan təyin edilməlidir. Domain adı yazmaq qəti şəkildə olmaz.

Əgər siz NameServer və **resolver** maşını elə serverin özünü təyin eləmək istəsəniz, onda **resolv.conf** faylında sadəcə **127.0.0.1** nameserver-ni təyin etməniz yetər. Resolverin içində **nameserver**-in sayını limitləmək istəsək isə kernelin parametrini dəyişmək lazımdır. Bu fayl adətən **'/usr/include/resolv.h'** ünvanında olur. Ancaq mümkündür ki, istənilən yeni compu DNS-siz istifadə edəsiniz. Ancaq bu halda lazımi resolv siyahısını **Linux** maşınlarında **'/etc/hosts'** faylında, **Windows** maşınlarında isə **'%System_Root%/System32/Drivers/etc/hosts'** faylında yazmalısınız. Ancaq bu faylda olan təyinatlarla ehtiyatlı olun çünki, siz səhv olaraq real domain adlarını burda qeyd edə bilərsiniz. Həmçinin bütün maşınlar **DNS**-ə müraciət etməzdən öncə ilk olaraq **/etc/hosts** faylına müraciət edirlər.

Windows maşında resolver-in quraşdırılması

Windows maşında siz resolver tərkibini çap etmək üçün **ipconfig /displayDNS** əmrini daxil etməniz yetər. Silmək üçün isə **ipconfig /flushDNS** əmrini daxil etməniz yetər. Ancaq bu əmrdən sonra **%System Root%/System32/Drivers/etc/hosts** faylında olan tərkibin çıxışında heç bir dəyişiklik olmayacaq. **Windows** maşında cache parametrlərini **HKEY_LOCAL_MACHINE/SYSTEM/CurrentControlSet/Services/Dnscache/Parameters** registrində dəyişə bilərsniz. Misal üçün **NegativeCacheTime key** parametri ilə biz negative cavabların cache-də nə qədər müddət qalacağını təyin edə bilərik.



Windows-un köhnə versiyalarında resolver-in quraşdırılması **UNIX** maşınlardakı kimi idi. Yalnız fərq onda idi ki, config text quraşdırma faylında deyildi. Ancaq yeni versiyalarında dahada yeni imkanlar artırıldı. Misal üçün LAN Manager System(NETBIOS-a əsaslanır). Windows **TCP/IP** protocolunu istifadə elədikdə, resolver adı IP ünvana translyasiya eləməyə çalışacaq. **LAN Manager** isə Windows-un özünün ad sistemi kimi qurulub. Və bu **%SystemRoot%/System 32/Drivers/etc/lmhosts** faylından təyin edilir. Sonra isə **Windows DNS** prinsipinə əsaslanan **WINS**(**Windows Internet Name Service**) adlı bir database yaratdı.

  [no]:  yes

Enter key password for <srccodes>
        (RETURN if same as keystore password):
```

Beləliklə **/etc/tomcat7/server.xml** faylında göstərilən **keystoreFile="/etc/tomcat7/srccodes.jks"** fayl ünvanı və şifrəni dəqiq təyin etməyi unutmayın.

BÖLÜM 12

Proqramçıların effektiv iş mühitləri

- **Mercurial Active Directory ilə inteqrasiyası**
- **GitLAB Active Directory inteqrasiyası**

Əgər şirkətinizin daxili proqramlaşdırma şöbəsi varsa və proqramçıların bir neçəsi eyni zamanda eyni layihə üzərində işləyirsə, müəyyən mübahisələr yarana bilər. Məsələ ondan ibarətdir ki, proqramçılardan biri hansısa kodu dəyişdikdə, bir neçə vaxtdan sonra onun kimin tərəfindən dəyişildiyi və əvvəlki vəziyyəti haqqında olan məlumatı tapmaq əsl problemə çevrilir. Bu tip problemlərin aradan qaldırılması üçün mərkəzi sistemlər olur və kodlar həmin mərkəzdə qalır. Hər bir şəxs öz hesabı ilə daxil olub fərqi qeyd edir və fərqin kimin tərəfindən dəyişildiyi görünür. Bu başlıqda uyğun sistemlərin qurulması haqqında danışılacaq.

Mercurial Active Directory ilə inteqrasiyası

Mercurial - Eynilə HG, çox böyük kod repositoriyalarla effektiv işləmək, versiyaların idarə edilməsi üçün yaradılan çox platformalı paylaşılmış sistemdir. Konsol proqramıdır. Proqramçılar üçün tələb edilir.

Nəzərdə tutulur ki, Domain controller artıq qurulub və aşağıdakı verilənlərlə yaradılmışdır.

FreeBSD9.2 x64(10.10.10.210 - VmNet4)
FreeBSD maşında DNS resolver kimi Active Directory istifadə edilir.

```
cat /etc/resolv.conf
nameserver  10.10.10.200
```

DC: **mercurial.lan** **(10.10.10.200 - Vmnet4)**
OU: **mercurial**
Group: **mercurial**
2 ədəd istifadəçimiz var: **jamal** və **salman** (Istifadəçilər **mercurial** organization unit-indədirlər və **mercurial** qrupunun üzvüdürlər).
Istifadəciləri mercurial qrupunun üzvü ona görə edirik ki, apache22 yalnız bu qrupun üzvlərinə mercurial səhifəsinə girişə izin verəcək.

```
portsnap fetch extract update                # Ilk öncə portları yeniləyək.
reboot                                       # sistemi restart edirik ki, portlar bazası yenilənsin

root@mercuri:~ # cd /usr/ports/www/apache22  # Apache22-nin port ünvanına daxil oluruq.
root@mercuri:/usr/ports/www/apache22 # make config   # Lazımi modulları seçirik.
```






```
root@mercuri:/usr/ports/www/apache22 # make install          # yükləyirik
```

Yüklənmə prosedurunda həmçinin **apr1** modulunuda seçirik.



Mercurial-i hazırlayaq

```
root@mercuri:/ # cd /usr/ports/devel/mercurial && make install clean    #
                                                                        Mercurial-ı
                                                                        yükləyək

root@mercuri:/ # cd /usr/ports/devel/py-mercurialserver && make install clean
                                                  # Lazımi componentləri yükləyirik

root@mercuri:/ # cd /usr/ports/www/mod_wsgi3 && make install clean      #
                                                                    wsgi işləməsi
                                                                    üçün apache modul
```

Qovluq yaradaq hansı ki, merkurialın quraşdırma fayları saxlanılacaq.

```
root@mercuri:/ # mkdir /usr/local/www/hg
```

```
root@mercuri:/ # cp /usr/local/share/mercurial/www/hgweb.wsgi
/usr/local/www/hg/


hgweb.cgi-ın quraşdırmalarını redakte edirik.
ee /usr/local/www/hg/hgweb.wsgi
config = "/usr/local/www/hg/hgweb.config" # Config fayl üçün yolu dəyişirik.

ee /usr/local/www/hg/hgweb.config    # hgweb.config faylının tərkibini
                                     aşağıdakı kimi edirik.
[web]
allow_push = *
push_ssl = false

[trusted]
users = *

[collections]
/usr/local/www/hg/repos = /usr/local/www/hg/repos


mkdir /usr/local/www/hg/repos              # Repos üçün qovluq yaradırıq

chown -R www:www /usr/local/www/hg         # Lazımi yetkiləri veririk


Apache-i quraşdırırıq.
echo 'apache22_enable="YES"' >> /etc/rc.conf     # Startup-a əlavə edirik
echo "Include /usr/local/domen/*" >> /usr/local/etc/apache22/httpd.conf
                                                 # Yeni Include əlavə edirik.
root@mercuri:/ # mkdir /usr/local/domen/         # Include üçün qovluq
                                                 yaradırıq.

root@mercuri:/ # cat /usr/local/domen/mercuri.az       # Virtual mercuri.az
domain
                                                       contenti aşağıdakı kimi
                                                       edirik
<VirtualHost *>
        ServerName mercuri.az
        ServerAlias www.mercuri.az
        DocumentRoot /usr/local/www/hg
        ErrorLog /var/log/mercuri-error.log
        CustomLog /var/log/mercuri-access.log common
        WSGIScriptAlias / /usr/local/www/hg/hgweb.wsgi
<Directory "/usr/local/www/hg">
        AllowOverride None
        order allow,deny
        Allow from all
</Directory>
<Location />
        AuthType Basic
        AuthBasicProvider ldap
        AuthBasicAuthoritative off
```

```
        AuthName "ENTER YOUR AD LOGIN & PASSWD"

        AuthLDAPURL
"ldap://mercurial.lan:389/DC=mercurial,DC=lan?sAMAccountName?sub?(objectClass
=*)"
        AuthLDAPBindDN  "administrator@mercurial.lan"
        AuthLDAPBindPassword "Zumrud123"
        Require ldap-group cn=mercurial,ou=mercurial,dc=mercurial,dc=lan
</Location>
<FilesMatch "\.(cgi|shtml|phtml|php)$">
    SSLOptions +StdEnvVars
</FilesMatch>
</VirtualHost>
```

```
touch /var/log/mercuri-error.log /var/log/mercuri-access.log # Lazımi jurnal
                                                              faylları yaradırıq.

root@mercuri:/ # chown -R www:www /usr/local/domen/    # Lazımi yetkiləri
                                                       veririk.
```

Sonda **/usr/local/etc/openldap/ldap.conf** faylında aşağıdakı sətiri əlavə edirik və **apache22**-ni işə salırıq.

```
echo "REFERRALS off" >> /usr/local/etc/openldap/ldap.conf
```

```
root@mercuri:/ # /usr/local/etc/rc.d/apache22 start    # Apache-ı işə salırıq.
```

Sonda eyni şəbəkədə olan client-də **c:\windows\system32\drivers\etc\hosts** faylına aşağıdakı sətiri əlavə edib browserdə **mercuri.az** domain-i **jamal** adlı istifadəçi ilə test etməyiniz yetər.

Debug etmək üçün isə **/usr/local/etc/apache22/httpd.conf** faylının içinə **LogLevel debug** əlavə edib daemonu restart etdikdən sonra **/var/log/mercuri-error.log** faylını araşdırmanız lazımdır.

GitLAB Active Directory inteqrasiyası

Məqsədimiz proqramçılar üçün Ubuntu 14.04 x64 OS üzərində source code-ların yerləşməsi və sinxronizasiyası üçün server qurmaqdır. Bu WEB serverdir və idarəetməsi çox asandır. Proqramçılar öz mənbə kodlarını bu serverə git client ilə sinxronizasiya edir. Code-lar diff və checksum-a görə yoxlanısh edilir. WEB portalda qrup yaradılır və bu qrupa proqramistlər təyin edilir. Eyni code-da edilən deyişikliklərin yalnız dəyişmiş hissəsi sinxronizasiya edilir və jurnallanır. Bir sözlə proqramçılar üçün can dərmanıdır ☺.

GitLab - Web bazalı wiki və hadisələrin izlənilməsi imkanı ilə olan Git repository idarəedicisidir. Proqram Ukrainalı Dmitriy Zaporozhets tərəfindən Ruby-də yazılmışdır.

Qurulmasına başlayaq. Öncədən aşağıdakı verilənləri nəzərə alaq:

```
DC: DOMAIN.LAN
port: 636
bind_dn: 'CN=DCADM,CN=Users,DC=domain,DC=lan'
password: 'DC_PASSWORD'
user_filter: '(memberOf=CN=GITUsers,OU=DOMAINTech
Groups,OU=DOMAINTech,DC=domain,DC=lan)'
```

Ubuntu 14.04 x64 üçün virtual mühitdə 2 CPU 2 Core, 4GB DDR ve 200GB HDD ayrılmışdır.

1. Paketlər və asılılıqlar

```
apt-get update          # Sistem yüklənikdən sonra apt reposları yeniləyirik
apt-get dist-upgrade    # Sistem yüklənikdən sonra sistem paketləri və
                        kerneli yeniləyirik
```

Sənədə diqqətlə baxın və mütləq **sudo** olan yerlərdə, yüklənməli **root** adından etməyin.

```
sudo apt-get install -y vim          # VIM-i yükləyirik
sudo update-alternatives --set editor /usr/bin/vim.basic   # VIM-i susmaya
                                                            görə olan fayl
                                                            editor təyin
                                                            edirik
```

```
# Ruby və Ruby GEMS genişlənmələri üçün tələb edilən paketləri yükləyək.
sudo apt-get install -y build-essential zlib1g-dev libyaml-dev libssl-dev
libgdbm-dev libreadline-dev libncurses5-dev libffi-dev curl openssh-server
redis-server checkinstall libxml2-dev libxslt-dev libcurl4-openssl-dev
libicu-dev logrotate python-docutils pkg-config cmake libkrb5-dev


sudo apt-get install -y git-core          # GIT-i yükləyirik
git --version     # GIT versiyasına baxırıq, mütləq 1.7.12 yuxarı və 2.0.0
                  aralığında olmalıdır
git version 1.9.1
```

Yox əgər siz yenede kohnelmish GIT-i silib yeniden source code-lardan yüklənməsini isteseniz, onda aşağıdakı addimlarla once giti silirik ve code-lardan yükləyirik.

```
sudo apt-get remove git-core  # Öncə yüklənmiş GIT-core-u silirik
```

Tələb edilən asılılıq paketlərini yükləyirik.

```
sudo apt-get install -y libcurl4-openssl-dev libexpat1-dev gettext libz-dev
libssl-dev build-essential

cd /tmp      # Qaynaq kodu yükləyib kompilyasiya etmək üçün /tmp qovluğuna
             daxil oluruq
```

Qaynaq kodu dartırıq və açırıq

```
curl -L --progress https://www.kernel.org/pub/software/scm/git/git-
2.1.2.tar.gz | tar xz

cd git-2.1.2/            # GIT code-ların qovluğuna daxil oluruq
./configure              # Kompilyasiya üçün quraşdırırıq
make prefix=/usr/local all     # mənsəb ünvanı olaraq /usr/local təyin edilir

sudo make prefix=/usr/local install        # /usr/local/bin ünvanına
                                           yüklənilir GIT
```

Qeyd: **5-ci hissədə** olan quraşdırmalarımızda **config/gitlab.yml** config faylında git başlığını **bin_path** üçün aşağıdakı kimi etməyi unutmayın:

```
git:
    bin_path: /usr/local/bin/git
```

```
sudo apt-get install -y postfix            # mail server yükləyirik ki, mail
                                           yollaya bilək. Aşağıdakı kimi
                                           quraşdırırıq. Internet site seçirik
                                           və domain adını daxil edirik
```



2. Ruby-ni yükləyək

GitLab Shell OpenSSH ilə çağırılır və mövcud olan versiya manager-in SSH ilə ötürüb qəbul edilməsinin qarşısını almaq olur. Versiya managerləri dəstək edilmir və buna görə məsləhət görülür ki, mütləq ruby istifadə edəsiniz. Əgər köhnə ruby varsa onu silirik.

```
sudo apt-get remove ruby1.8          # köhnə ruby-ni silirik

mkdir /tmp/ruby && cd /tmp/ruby      # Ruby-ni dartıb kompilyasiya etmək üçün
                                     qovluq yaradırıq və içinə daxil oluruq
```

Dartırıq və yerləşdiyimiz qovluqda açırıq

```
curl -L --progress http://cache.ruby-lang.org/pub/ruby/2.1/ruby-2.1.5.tar.gz
| tar xz

cd ruby-2.1.5/           # Açdığımız qovluğa daxil oluruq
./configure --disable-install-rdoc  # Compilyasiya üçün quraşdırırıq
make                     # Kompilyasiya edirik
sudo make install        # yükləyirik

sudo gem install bundler --no-ri --no-rdoc      # Bundler GEM-i yükləyək
```

3. Sistem istifadəçiləri

```
sudo adduser --disabled-login --gecos 'GitLab' git    # GitLab üçün git adlı
                                                       istifadəçi yaradaq
```

4. Verilənlər bazasi

GitLAB özu baza olaraq PostgreSQL məsləhət görur. Genişlənmələrin istifadə edilməsi üçün isə PostgreSQL9.1 tələb edilir. PostgreSQL yükləyək, baza və istifadəçi yaradaq.

```
sudo apt-get install -y postgresql postgresql-client libpq-dev    # Baza üçün
                                                                  paketləri
                                                                  yükləyək

sudo -u postgres psql -d template1              # PostgreSQL-le daxil oluruq
template1=# CREATE USER git CREATEDB;           # git adlı baza istifadəçisi
                                                yaradırıq (template1=#
                                                console prompt-dur və o əmr
                                                kimi daxil edilə bilməz)

template1=# CREATE DATABASE gitlabhq_production OWNER git;        # Gitlab
                                                                  production
                                                                  bazası
                                                                  yaradılır
                                                                  və bu baza
                                                                  üçün tam
                                                                  yetki
                                                                  verilir

template1=# \q          # Bazadan çıxırıq

sudo -u git -H psql -d gitlabhq_production      # Yeni bazaya yeni istifadəçi
                                                ilə qoşulmağa calışırıq

gitlabhq_production=> \q      # Baza sessiyasından çıxırıq
```

5. Redis

```
sudo apt-get install redis-server   # Redis serverin paketini yükləyirik
```

```
sudo cp /etc/redis/redis.conf /etc/redis/redis.conf.orig          # Redis-i
                                                                  socket-
                                                                  lərin
                                                                  istifadə
                                                                  edilməsi
                                                                  üçün izin
                                                                  veririk


# Redis-in TCP-də qulaq asmasını dayandırmaq üçün portunu 0-ir təyin edirik.
sed 's/^port .*/port 0/' /etc/redis/redis.conf.orig | sudo tee
/etc/redis/redis.conf

# Susmaya görə olan Debian/Ubuntu üçün Redis socket-i işə salırıq
echo 'unixsocket /var/run/redis/redis.sock' | sudo tee -a
/etc/redis/redis.conf

# Redis qrup-da olan hər kəs üçün socket-ə yetki veririk
echo 'unixsocketperm 770' | sudo tee -a /etc/redis/redis.conf

# Socket-in yerləşməsi üçün qovluq yaradaq, lazımi istifadəçi və qrupa
mənimsədib, yetkini verək
sudo mkdir /var/run/redis
sudo chown redis:redis /var/run/redis
sudo chmod 755 /var/run/redis/

# Əgər özündə socket saxlayan qovluq varsa, saxla
if [ -d /etc/tmpfiles.d ]; then
   echo 'd  /var/run/redis  0755  redis  redis  10d  -' | sudo tee -a
/etc/tmpfiles.d/redis.conf
fi

sudo service redis-server restart          # redis.conf-da olan dəyişiklikləri
                                           servisi restart edərək işə salaq

sudo usermod -aG redis git          # git useri redis qrupa əlavə edək
```

6. GitLab(yükləyək ve config edek)

```
cd /home/git      # GitLab-ı git istifadəçisinin ev qovluğuna yükləyəcəyik.
                  Buna görə də bu qovluğa daxil oluruq

Source code-u clone edirik
# GitLsb reposu Clone edək
sudo -u git -H git clone https://gitlab.com/gitlab-org/gitlab-ce.git -b 7-6-
stable gitlab


Config edek
cd /home/git/gitlab           # GitLab yüklənməsi qovluğuna gedək
sudo -u git -H cp config/gitlab.yml.example config/gitlab.yml # nüsxə
                                                        faylından 1 nüsxə
```

çıxarırıq

```
sudo -u git -H editor config/gitlab.yml          # Quraşdırma faylının
                                                 əvvəlində quraşdırmaları
                                                 aşağıdakı kimi edirik. Nəzərə
                                                 alaq ki, HTTPS üçün nginx-i
                                                 birazdan quraşdıracayıq.
  gitlab:
    host: git.domain.lan
    port: 443
    https: true
    email_from: jamal.shahverdiev@gmail.com


# Əmin olaq ki, log/ və tmp/ qovluqlarına yazmaq yetkisi var
sudo chown -R git log/
sudo chown -R git tmp/
sudo chmod -R u+rwX,go-w log/
sudo chmod -R u+rwX tmp/

# Satellite üçün qovluq yaradaq və yetki verek.
sudo -u git -H mkdir /home/git/gitlab-satellites
sudo chmod u+rwx,g=rx,o-rwx /home/git/gitlab-satellites

# Əmin olaq ki, tmp/pids/ ve tmp/sockets/ qovluqlarina GitLab yazma yetkisinə
sahibdir.
sudo chmod -R u+rwX tmp/pids/
sudo chmod -R u+rwX tmp/sockets/

# Əmin olaq ki, public/uploads/ qovluğuna GitLab yazmaq yetkisinə sahibdir
sudo chmod -R u+rwX  public/uploads

sudo -u git -H cp config/unicorn.rb.example config/unicorn.rb  # Unicorn
                                                               nüsxə faylını
                                                               nüsxələyək

nproc       # CPU-da olan core-ların sayını tapırıq
4

# Əgər siz çox böyük yük bölgüsü edirsinizsə, cluster mode-u aktivləşdirin
# Əgər sizdə RAM 4GB-dirsə, onda worker_processes-in sayını sizdə olan CORE-
ların sayına bərabər edin
sudo -u git -H editor config/unicorn.rb

# Rack attack quraşdırma faylını nüsxələyək
sudo -u git -H cp config/initializers/rack_attack.rb.example
config/initializers/rack_attack.rb

# Git global konfigləri git istifadəçi üçün quraşdıraq, web üzərindən
dəyişiklik edəndə lazım olur,
# user.email-i gitlab.yml faylında təyin etdiyiniz kimi edin.
sudo -u git -H git config --global user.name "GitLab"
sudo -u git -H git config --global user.email "jamal.shahverdiyev@gmail.com"
```

```
sudo -u git -H git config --global core.autocrlf input

# Redis qoşulmasını quraşdıraq
sudo -u git -H cp config/resque.yml.example config/resque.yml

# Əgər siz Debian/Ubuntu-da susmaya görə olan socket istifadə etmirsinizsə,
ünvanı aşağıdakı faylda dəyişə bilərsiniz.
```
Vacib qeyd: Əmin olun ki, **gitlab.yml** və **unicorn.rb** configləri eyni edilib.

GitLab DB configlerini edek

```
# Yalnız PostgreSQL üçün quraşdırma faylı nüsxələyək
sudo -u git cp config/database.yml.postgresql config/database.yml

# PostgreSQL və MySQL üçün aşağıdakı quraşdırma faylında lazımi
dəyişiklikləri etmək lazımdır:
# config/database.yml faylında istifadəçi_adı/şifrə quraşdırmaq lazımdır.
# Biz yalnız 1-ci hissədə etdiyimiz baza, istifadəçi və şifrəni eynilə burada
da təyin etməliyik.
# Əgər siz şifrə dəyişmisinizsə onu password: sətirinin qarşısına
yazmalısınız və şifrə
# tək dirnaqların '' daxilində yazila bilər
sudo -u git -H editor config/database.yml

# PostgreSQL ve MySQL üçün:
# config/database.yml faylını git istifadəçi üçün oxunan edirik.
sudo -u git -H chmod o-rwx config/database.yml
```

GEMS-i yükləyirik

Qeyd: Bundler 1.5.2 üçün siz **bundle install -jN** əmrindən istifadə edə bilərsiniz(**N** - CPU-da olan core-ların sayıdır. Core-ların sayını isə **nproc** əmri ilə yoxlaya bilərsiniz). Bu işi **60%** daha sürətli edir. Ancaq əmin olun ki, sizin bundler **1.5.2**-dən yuxarı versiyadır. Siz bunu **bundle -v** əmri ilə yoxlaya bilərsiniz.

```
bundle -v                    # Mənim halımda aşağıdakı versiya idi
Bundler version 1.7.9

# PostgreSQL üçün (nəzərə alın ki, opsiya deyir ki, MySQL-siz yüklə)
sudo -u git -H bundle install --deployment --without development test mysql
aws
```

GitLab Shell-i yükləyək

```
GitLab Shell spesifik GitLab-ın özu üçün yazılmış program təminatıdır hansı
ki, SSH-a yetki və repository idarəetməsi üçün istifadə edilir.
# gitlab-shell yüklənməsi üçün aşağıdakı əmri daxil edirik (əgər `redis
ünvanı` dəyişmisinizsə
# burda da dəyişmək lazımdır). Əmri tam bir sətirdə yazmaq lazımdır
```

```
sudo -u git -H bundle exec rake gitlab:shell:install[v2.4.0]
REDIS_URL=unix:/var/run/redis/redis.sock RAILS_ENV=production

# Susmaya görə gitlab-shell konfigi sizin əsas Gitlab konfiginizdən
generasiya edilib.
# siz GitLab-shell konfiginizə aşağıdakı əmrlə baxa və ya dəyişə bilərsiniz.
sudo -u git -H editor /home/git/gitlab-shell/config.yml      # Əmrin nəticəsi
                                                             aşağıdakı kimidir
user: git
gitlab_url: https://git.domain.lan/
http_settings:
  self_signed_cert: true
repos_path: "/home/git/repositories/"
auth_file: "/home/git/.ssh/authorized_keys"
redis:
  bin: "/usr/bin/redis-cli"
  namespace: resque:gitlab
  socket: "/var/run/redis/redis.sock"
log_level: INFO
audit_usernames: false
```

Bazanı inisializasiya edək və geniş imkanları aktivləşdirək

```
sudo -u git -H bundle exec rake gitlab:setup RAILS_ENV=production

# Baza cədvəllərinin yaranması üçün yes daxil edin və ENTER düyməsini sıxın
# Sonda aşağıdakı sətirləri görəcəksiniz:
Administrator account created:

login.........root
password......5iveL!fe
```

Qeyd: Siz Administrator şifrəsini **GITLAB_ROOT_PASSWORD** mühit dəyişəni ilə dəyişə bilərsiniz. Həmçinin WEB üzərindən etmək mümkündür.

```
sudo -u git -H bundle exec rake gitlab:setup RAILS_ENV=production
GITLAB_ROOT_PASSWORD=newpassword
```

Init scripti yükləyək

```
sudo cp lib/support/init.d/gitlab /etc/init.d/gitlab         # Init skripti
                                                             startup skriptlər
                                                             yerləşən ünvana
                                                             nüsxələyək

# Əgər siz susmaya görə olan qovluqdan kənara yükləmisinizsə onda aşağıdakı
fərqli ünvandan
# lazımi ünvana nüsxələmək lazımdır. Bizim halda susmaya görədir
sudo cp lib/support/init.d/gitlab.default.example /etc/default/gitlab
```

Və əgər siz GitLab-ı susmaya görə olandan fərqli istifadəçi ilə və fərqli qovluğa yüklənmisinizsə onda, **/etc/default/gitlab** faylında bu dəyişiklikləri etmək lazımdır. Nəzərə alın ki, **/etc/init.d/gitlab** faylında dəyişiklik etmək olmaz çünki, yenilənmədə bu fayl özu yenilənir.

sudo update-rc.d gitlab defaults 21 # GitLab-ı startup-a əlavə edirik

LogRotasiyasını işə salırıq
sudo cp lib/support/logrotate/gitlab /etc/logrotate.d/gitlab # Lograte nüsxələyirik

Programın statusunu yoxlayırıq
Yoxlayaq görək GitLab və onun mühiti düzgün işləyirmi:
sudo -u git -H bundle exec rake gitlab:env:info RAILS_ENV=production

Aktivləri kompilyasiya edək
sudo -u git -H bundle exec rake assets:precompile RAILS_ENV=production

GitLab servisini işə salaq
sudo service gitlab start
Yada
sudo /etc/init.d/gitlab restart

7. nGinx yüklənməsi və quraşdırılması

Rəsmi olaraq nGinx web server GitLab tərəfindən dəstəklənir. Əgər siz nGinx web server yox başqasını istifadə etmək istəsəniz onda GitLab portalından məsləhətlər alın.

Yuklenme
sudo apt-get install -y nginx

Site quraşdırılması
#Nüsxə sayt konfigini düzgün ünvana nüsxə və link edək(**HTTP** üçün **gitlab HTTPS** üçün isə **gitlab-ssl**)
Http üçün
sudo cp lib/support/nginx/gitlab /etc/nginx/sites-available/gitlab
sudo ln -s /etc/nginx/sites-available/gitlab /etc/nginx/sites-enabled/gitlab

HTTPS üçün isə aşağıdakı kimi edirik:
sudo cp lib/support/nginx/gitlab-ssl /etc/nginx/sites-available/gitlab-ssl
sudo ln -s /etc/nginx/sites-available/gitlab-ssl /etc/nginx/sites-enabled/gitlab-ssl

```
# öz quruluşumuza əsasən öz konfig faylımızda dəyişiklik edək:
sudo editor /etc/nginx/sites-available/gitlab   # HTTP üçün bu fayl
sudo editor /etc/nginx/sites-available/gitlab-ssl      # Mənim halımda HTTPS
                                                      olduğu üçün bu fayl

Əsas quraşdırma sətirləri aşağıdakılardır hansı ki, düzgün quraşdırılmalıdır
ki, DNS-də bu host üçün əlavə etdiyiniz A yazısı düzgün resolve edə
biləsiniz.
upstream gitlab {
  server unix:/home/git/gitlab/tmp/sockets/gitlab.socket fail_timeout=0;
}
server {
  listen 10.50.3.206:80;
  server_name git.domain.lan;
  server_tokens off;
  return 301 https://$server_name$request_uri;
  access_log  /var/log/nginx/gitlab_access.log;
  error_log   /var/log/nginx/gitlab_error.log;
}
server {
  listen 10.50.3.206:443 ssl;
  server_name git.domain.lan;
  server_tokens off;  root /home/git/gitlab/public;
  client_max_body_size 20m;
  ssl on;
# Sertifikatlari aşağıdakı yaradacayiq
  ssl_certificate /etc/nginx/ssl/gitlab.crt;
  ssl_certificate_key /etc/nginx/ssl/gitlab.key;
  ssl_ciphers "ECDHE-RSA-AES256-GCM-SHA384:ECDHE-RSA-AES128-GCM-SHA256:DHE-
RSA-AES256-GCM-SHA384:DHE-RSA-AES128-GCM-SHA256:ECDHE-RSA-AES256-
SHA384:ECDHE-RSA-AES128-SHA256:ECDHE-RSA-AES256-SHA:ECDHE-RSA-AES128-SHA:DHE-
RSA-AES256-SHA256:DHE-RSA-AES128-SHA256:DHE-RSA-AES256-SHA:DHE-RSA-AES128-
SHA:ECDHE-RSA-DES-CBC3-SHA:EDH-RSA-DES-CBC3-SHA:AES256-GCM-SHA384:AES128-GCM-
SHA256:AES256-SHA256:AES128-SHA256:AES256-SHA:AES128-SHA:DES-CBC3-
SHA:HIGH:!aNULL:!eNULL:!EXPORT:!DES:!MD5:!PSK:!RC4";
  ssl_protocols TLSv1 TLSv1.1 TLSv1.2;
  ssl_prefer_server_ciphers on;
  ssl_session_cache shared:SSL:10m;
  ssl_session_timeout 5m;
  access_log  /var/log/nginx/gitlab_access.log;
  error_log   /var/log/nginx/gitlab_error.log;
  location / {
      try_files $uri $uri/index.html $uri.html @gitlab;
  }
  location @gitlab {
    gzip off;
    proxy_read_timeout      300;
    proxy_connect_timeout   300;
    proxy_redirect          off;
    proxy_set_header    Host                $http_host;
    proxy_set_header    X-Real-IP           $remote_addr;
    proxy_set_header    X-Forwarded-Ssl     on;
    proxy_set_header    X-Forwarded-For     $proxy_add_x_forwarded_for;
```

```
    proxy_set_header    X-Forwarded-Proto   $scheme;
    proxy_set_header    X-Frame-Options     SAMEORIGIN;
    proxy_pass http://gitlab;
  }
  location ~ ^/(assets)/ {
    root /home/git/gitlab/public;
    gzip_static on;
    expires max;
    add_header Cache-Control public;
  }
  error_page 502 /502.html;
}

# Sertifikatları düzgün ünvanda yaratdıqdan sonra, aşağıdakı əmr ilə nGinx-in
statusunu
# yoxlayırıq. Görünən cavab qayıtmalıdır
sudo nginx  -t
nginx: the configuration file /etc/nginx/nginx.conf syntax is ok
nginx: configuration file /etc/nginx/nginx.conf test is successful


# nGinx-in servisini restart edirik
sudo service nginx restart
```

HTTPS üçün sertifikatlarimizi yaradaq.

Bunun üçün aşağıdakı addımları dəqiq etmək lazımdır.

1. **gitlab.yml** faylında
   a. **port**-u **443** etmək lazımdır
   b. 1-ci seksiyada **https**-i **true** etmək lazımdır
2. **config.yml** faylında
   a. **gitlab_url** opsiyasını **https** üçün təyin etmək lazımdır(**https://git.domain.lan**)
   b. Sertifikatların istifadəsinə **ca_file** və **ca_path** təyin etmək olar
3. nGinx-in quraşdırma faylında **gitlab** faylı əvəzinə **gitlab-ssl** istifadə etmək lazımdır
   a. Serverin **FQDN**-ni düzgün yazın
   b. **ssl_certificate** və **ssl_certificate_key** ünvanlarını dəqiq yazın
   c. Config-ə dəqiq baxın və diger təhlukəsizlik quraşdırmalarını edin

Özümüz tərəfimizdən generasiya edilən və imzalanan sertifikat üçün isə aşağıdakı addımları edirik:

1. Self-Signed SSL sertifikatını generasiya edək:

```
sudo mkdir -p /etc/nginx/ssl/

cd /etc/nginx/ssl/

sudo openssl req -newkey rsa:2048 -x509 -nodes -days 3560 -out gitlab.crt -
keyout gitlab.key
```

```
Country Name (2 letter code) [AU]:AZ

State or Province Name (full name) [Some-State]:Baku

Locality Name (eg, city) []:YeniYasamal

Organization Name (eg, company) [Internet Widgits Pty Ltd]:DOMAIN

Organizational Unit Name (eg, section) []:IT

Common Name (e.g. server FQDN or YOUR name) []:git.domain.lan

Email Address []:jamal.shahverdiyev@domain.az
```

```
sudo chmod o-r gitlab.key
```

2. gitlab-shell-ində istifadə etdiyimiz **config.yml** faylında **self_signed_cert** opsiyasını **true** edin.

Program statusunu yenidən yoxlayaq
Bütün quraşdırmalarımızın qaydada olmasını yoxlamaq üçün aşağıdakı əmri yenidən daxil edirik:

```
cd /home/git/gitlab
sudo -u git -H bundle exec rake gitlab:check RAILS_ENV=production
```

```
Nəticə səhvsiz, yaşıl və aşağıdakı kimi olmalıdır:
Redis version >= 2.0.0? ... yes
Ruby version >= 2.0.0 ? ... yes (2.1.5)
Your git bin path is "/usr/bin/git"
Git version >= 1.7.10 ? ... yes (1.9.1)

Checking GitLab ... Finished
```

Qeyd: **SANITIZE=true** mühit dəyişənin təyinatı ilə siz **gitlab:check** əmrinin çıxışında proyektlər haqqında çıxışın nəticəsinin çap edilməsinin qarşısını almış olacaqsınız.

https://git.domain.lan ünvanına aşağıdakı istifadəçi adı, şifrə ilə daxil olun və şifrəni dəyişin.
login: **root**
pass: **r00tpass**



Sonra **Sign in** düyməsini sıxırıq və aşağıdakı şəkildəki kimi şifrəni dəyişirik.



Siz servisləri aşağıdakı əmrlər ilə **restart** və ya **stop, start** edə bilərsiniz.

```
sudo service gitlab restart
[sudo] password for jamal:
Shutting down both Unicorn and Sidekiq.
GitLab is not running.
Starting both the GitLab Unicorn and Sidekiq.
The GitLab Unicorn web server with pid 28862 is running.
The GitLab Sidekiq job dispatcher with pid 28904 is running.
GitLab and all its components are up and running.
```

Redis qoşulmasını istəyimizə görə dəyişə bilərik:

Əgər siz Redis-ə fərqli host və port ilə qoşulmaq istəsəniz onda **config/resque.yml** quraşdırma faylında dəyişiklik etməlisiniz.

```
# nüsxə
production: redis://redis.example.tld:6379
```

Əgər siz redis-ə "**unix:**" socket ilə qoşulmaq istəsəniz onda **config/resque.yml** faylında aşağıdakı quraşdırmanı etməlisiniz.

```
# nüsxə
production: unix:/path/to/redis/socket
```

Fərqli SSH qoshulması

Əgər siz SSH-ın qulaq asdığı portu dəyişmisinizsə, onda siz GitLab istifadəçisinin SSH konfigini dəyişməlisiniz.

/home/git/.ssh/config faylına aşağıdakı sətirləri əlavə etməlisiniz

```
host localhost          # hostname
    user git            # remote git istifadəçi adı
    port 2222           # SSH port rəqəmi
    hostname 127.0.0.1; # Server adı yada IP
```

Həmçinin siz düzgün configləri **ssh_user**, **ssh_host**, **admin_uri** opsiyaları üçün **config/gitlab.yml** faylında dəyişməlisiniz.

MSLDAP authentifikasiya

Əgər biz GitLAB-ı öz müəssisəmizə aid olan domain controller ilə inteqrasiya etmək istəsək, onda **config/gitlab.yml** faylında düzgün dəyişiklikləri etməliyik ki, DC-yə qoşulub istifadəçiləri yoxlanış edə bilək.

```
cd /home/git/gitlab                          # Konfig qovluğuna daxil oluruq
sudo -u git editor config/gitlab.yml         # Konfig faylımızın LDAP başlığında
                                             lazımi dəyişiklikləri aşağıdakı
                                             kimi edirik.

  ldap:
    enabled: true
    servers:
      main:
        label: 'LDAP'
        host: 'domain.lan'
        port: 636
        uid: 'sAMAccountName'
        method: 'ssl' # "tls" or "ssl" or "plain"
        bind_dn: 'CN=DCADM,CN=Users,DC=domain,DC=lan'
        password: 'DC_PASSWORD'
        active_directory: true
        allow_username_or_email_login: false
        base: 'DC=domain,DC=lan'
        user_filter: '(memberOf=CN=GITUsers,OU=DOMAINTech
Groups,OU=DOMAINTech,DC=domain,DC=lan)'


sudo /etc/init.d/gitlab restart      # Gitlab servisi yenidən işə salırıq


# LDAP konfigimizi yoxlayırıq və istifadəçiləri görməliyik artıq
sudo -u git -H bundle exec rake gitlab:ldap:check RAILS_ENV=production
Checking LDAP ...

LDAP users with access to your GitLab server (only showing the first 100
results)
```

```
Server: ldapmain
DN: CN=Eldaniz Ibrahimov,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: eldaniz
DN: CN=Jamal Shahverdiyev,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: jamal
DN: CN=Sukur Rzayev,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
        sAMAccountName: SukurR
DN: CN=Musaqil Musabeyli,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: MusaqilM
DN: CN=Hidayat Soltanzade,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: HidayatS
DN: CN=Alakbar Velizade,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: AlakbarV
DN: CN=Rufat Babakishiyev,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: RufatBa
DN: CN=Javid Ismayilzade,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: JavidI
DN: CN=Yunis Babayev,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: YunisB
DN: CN=Rovshan Baghirov,OU=DOMAINTech Users,OU=DOMAINTech,DC=domain,DC=lan
sAMAccountName: RovshanB

Checking LDAP ... Finished
```

Sonra yenidən https://git.domain.lan ünvanına daxil oluruq və DC istifadəçisi ilə şəkildə göstərilən kimi daxil oluruq.



Artıq proqramçılar desktoplarından istənilən git client vasitəsilə öz mənbə codelarını bizim qurduğumuz serverə sinxronizasiya edə bilərlər.

Sonda bir daha qeyd edim ki, 1-ci başlıqda qeyd edilmiş, **/home/git/gitlab/config/gitlab.yml** faylında **bin_path** opsiyası üçün **git**(**/usr/local/bin/git**) binar faylının düzgün ünvanını təyin etməyi unutmayın.

BÖLÜM 13

İnternet üzərindən canlı iclaslar

- **OpenMeetings qurulması və istifadəsi**
- **BigBlueButton qurulması və istifadə edilməsi**

Böyük müəssisələrin tələbləri yarana bilər ki, şirkətlərinin və ya filiallarının arasında danışıq onlayn şəkildə olsun. Bunun üçün onlayn iclaslar keçirmək imkanına sahib olan spesifik avadanlıqlar və bahalı proqram təminatları mövcuddur. Yalnız bu başlığımızda açıq qaynaqlı proqramların vasitəsilə bütün pullu distributivlərin bacardıqları eyni funksionallığı və hətta artığının qurulmasından danışacıyıq.

OpenMeetings qurulması və istifadəsi

Məqsədimiz WEB üzərindən onlayn şəkildə şəxslərin bir-biri ilə kamera və səs ilə iclas keçirməsi, yaza bilməsi, ekranın yayımlanması, ekranın video/audio yazılması və DOC/PDF sənədin birgə baxılması imkanlarına malik olan bir sistemin qurulmasıdır.

Öncədən qeyd edim ki, testlərinizdə surprizlərlə qarşılaşmayasınız. Windows7/8/8.1, Ubuntu Desktop 14.04 və MacOS-da problemsiz hər şey işlədi. Ancaq windows XP-de işləmir. Bundan bashqa flash-da işlədiyi üçün Windows-da IE browserdə tamamilə problem olmadı. Amma hər hal üçün bütün testlərinizi fərqli browserlərdə etsəniz düzgün nəticə əldə etmiş olacaqsınız.

OpenMeetings - Bu proqram təminatı prezentasiyaların edilməsi, onlayn təhsil, web konfrans, ümumi şəkil lövhəsi və sənədlərin redaktə edilməsi funksionallığına sahibdir. Bu başlığımızda quracağıq.

İşə başlayaq.

```
portsnap fetch extract update        # Öncə portları yeniləyək
```

OpenMeetings istifadə edəcəyi üçün sendmail-i söndürürük və postfix-i yükləyib işə salırıq:

```
cd /usr/ports/mail/postfix           # Port ünvanına daxil oluruq
make config                          # Lazımı modulları seçirik
```




```
make install                                 # Yükləyirik
```

SIP dəstəklənməsi üçün Asterisk-i öncədən yükləyirik.

```
cd /usr/ports/net/asterisk                   # Port ünvanına daxil oluruq
make config                                  # Lazımı modulları seçirik
```




```
make install                                    # Yükləyirik
```

OpenMeetings BASH ilə işlədiyinə görə bash-ı serverimizə yükləyirik:

```
cd /usr/ports/shells/bash                       # Port unvanına daxil oluruq
make config                                     # Lazımı modulları susmaya görə seçirik
make install                                    # yükləyirik(/usr/local/bin/bash binar
                                                faylı yaranacaq)
```

Ofis programların və ImageMagick-ın işləməsi üçün cairo tələb edilir. Ona görə də onu X11 dəstəklənməsi ilə yükləyirik.

```
cd /usr/ports/graphics/cairo                    # Port ünvanına daxil oluruq
make config                                     # Şəkildə görünən moduları seçirik
```




```
make install                                    # Yükləyirik
```

Şəkillərlə işləyə bilmək üçün ImageMagick yükləmək lazımdır.

```
cd /usr/ports/graphics/ImageMagick              # Port ünvanına daxil oluruq
make config                                     # Lazımı modulları seçirik
```


```
make -DBATCH install                                    # Yükləyirik
```

OpenMeetings-i startup-a əlavə etmək üçün expect lazım olacaq. Bunun üçün onu yükləyirik.

```
cd /usr/ports/lang/expect                               # Port ünvanına daxil oluruq
make install                                            # Yükləyirik
```

PFD sənədlərin import edilə bilməsi üçün swftools-u yükləyirik.

```
cd /usr/ports/graphics/swftools                         # Port unvanına daxil oluruq
make config                                             # lazımı modulları seçirik
```




```
make install                                            # Yükləyirik
```

.doc, **.docx**, **.odp**, **.xls**, **.xlsx**, **.ppt**, **.pptx** tipli sənədlərin import edilə bilməsi üçün **libreoffice**-i yükləyirik.

```
cd /usr/ports/editors/libreoffice                       # Port ünvanına daxil oluruq
make config                                             # Lazımı modulları
                                                        seçirik(Hər şəy susmaya görə
                                                        olmalıdır, əks halda
```

yüklənməyəcək)



make -DBATCH install # Yükləyirik(yüklənmə həddən artıq çox vaxt alacaq)

Yüklənmə müddətində **ffmpeg** menyusu açılacaq ki, seçim edək. Orda mütləq **LAME** və **FDK_AAC** seçirik. Əgər yüklənmə müddəti çıxmasa, mütləq özünüz **/usr/ports/multimedia/ffmpeg** port ünvanına daxil olub əlinizlə seçib yükləyin.



Əgər yüklənmə müddətində freetype2 menyusu açılmasa ki, seçim edib yükləyək onu aşağıdakı qaydada portuna daxil olub yükləmək lazımdır:

cd /usr/ports/print/freetype2 # Port ünvanına daxil oluruq

make config # Lazımı modulları seçirik



make install # Yükləyirik

```
cd /usr/ports/audio/sox     # Audio convert və qulaq asmaq üçün sox yükləyirik
make config                 # lazımı modulları seçirik(Mutləq Lame olmalıdır)
```




```
make install                # Yükləyirik
```

/etc/rc.conf startup quraşdırma faylımız aşağıdakı kimi olacaq:

```
hostname="om.domain.az"
ifconfig_em0="inet 98.97.96.140 netmask 255.255.255."
defaultrouter="98.97.96.1"
sshd_enable="YES"
dumpdev="NO"

#### Disabled Local Services ####
sendmail_enable="NO"
sendmail_submit_enable="NO"
sendmail_outbound_enable="NO"
sendmail_msp_queue_enable="NO"
sendmail_rebuild_aliases="NO"
syslogd_enable="NO"
syslogd_program="/usr/sbin/syslogd"
syslogd_flags="-ss"
mysql_enable="YES"

#### Third party Services ####
postfix_enable="YES"

/usr/local/etc/rc.d/postfix start          # Mail serverimizi işə salırıq
```

OpenMeetings üçün MySQL bazası tələb edilir ona görə də onu yükləyək və konfiq edək:

```
cd `whereis mysql55-server | awk '{ print $2 }'` # MySQL port unvanına daxil
                                                 oluruq
make config                                      # lazımı modulları seçirik
```




```
make install                                          # Yükləyirik

echo 'mysql_enable="YES"' >> /etc/rc.conf             # Starup-a əlavə edirik
/usr/local/etc/rc.d/mysql-server start                # Işə salırıq

/usr/local/bin/mysql_secure_installation              # Bu əmr ilə MySQL-i
                                                      tehlükəsiz
                                                      quraşdırırıq. Aşağıdakı
                                                      addimları eynilə
                                                      edirik.

Enter current password for root (enter for none):
OK, successfully used password, moving on...
Set root password? [Y/n] Y
New password: Yeni_şifrə
Re-enter new password: Təkrar_Yeni_şifrə
Password updated successfully!

Remove anonymous users? [Y/n] Y
 ... Success!

Disallow root login remotely? [Y/n] Y
 ... Success!

Remove test database and access to it? [Y/n] Y
 - Dropping test database...
... Success!
 - Removing privileges on test database...
 ... Success!

Reload privilege tables now? [Y/n] Y
 ... Success!

cp /usr/local/share/mysql/my-large.cnf /etc/my.cnf    # Quraşdırma faylını
                                                      nüsxələyirik

/etc/my.cnf faylının [mysqld] bashlığında aşağıdakı dəyişiklikləri
edirik(Kodlaşdırma UTF8 edirik):
collation-server = utf8_unicode_ci
init-connect='SET NAMES utf8'
character-set-server = utf8
bind-address = 127.0.0.1
log = /var/log/mysql.log

Həmçinin /etc/my.cnf faylında [client] bashlığında aşağıdakı sətri mütləq
əlavə etmək lazımdır:
default-character-set=utf8
```

```
touch /var/log/mysql.log                          # Jurnal faylını yaradırıq

chown mysql:mysql /var/log/mysql.log              # mysql istifadəçi və qrup
                                                  üçün həmin fayla yetki
                                                  veririk

mysql -uroot -p'freebsd'                          # MySQL-in console-una daxil
                                                  oluruq və aşağıdakı əmrlərlə
                                                  openmeetings baza, istifadəçi
                                                  adı, şifrə və hansı host ilə
                                                  qoshulmanı təyin edirik

CREATE DATABASE IF NOT EXISTS `openmeetings`;     # Əgər yoxdursa, bazanı
                                                  yaradırıq

GRANT ALL PRIVILEGES ON `openmeetings`.* TO 'openmeetings'@'localhost'

IDENTIFIED BY 'freebsd';

FLUSH PRIVILEGES;                                 # Yetkiləri yenidən oxuyuruq
exit;                                             # çıxırıq
```

Javani yükləyirik

Ümumiyyətlə java müxtəlif versiyalarda fərqli işləyir və elə ola bilər ki, siz openmeetings-in işləməsi üçün fərqli versiya Java yükləyə bilərsiniz. Mənim halımda openjdk6-jre, openjdk8-jre yüklədim işləmədi və sonda hamısını silib, openjdk7-jrə yüklədim işlədi. Ona görə də openjdk7-jre-ni yükləyirik.

```
cd /usr/ports/java/openjdk7/                      # Port ünvanında daxil oluruq
make config                                       # Lazımı modulları seçirik
```




```
make install                                      # Yükləyirik
```

Java yükləndikdən sonra öz işləməsi üçün **procfs** və **fdescfs** fayl sistəmlərinin mount edilməsini və startup-a əlavə edilməsini tələb edir. Bunun üçün aşağıdakı sətirləri **/etc/fstab** faylına əlavə edirik.

```
echo "fdesc   /dev/fd       fdescfs         rw      0       0" >> /etc/fstab
echo "proc    /proc         procfs          rw      0       0" >> /etc/fstab

mount -a          # Lazımı fayl sistemlərinin /etc/fstab faylından mount
                  edirik və startup-u yoxlayırıq
```

```
java -version                # Java versiyasını yoxlayırıq. Çıxış aşağıdakı
                                                    kimi olacaq
openjdk version "1.7.0_71"
OpenJDK Runtime Environment (build 1.7.0_71-b14)
OpenJDK 64-Bit Server VM (build 24.71-b01, mixed mode)

OpenMeetings-i dartaq və yükləyek
mkdir /usr/local/om          # Yükləmək üçün qovluq yaradırıq
cd /usr/local/om             # həmin qovluğa daxil oluruq

# Lazımı versiyanı yerləşdiyimiz qovluğa dartırıq(Ümumiyyətlə ən son
versiyanı
# https://builds.apache.org/view/M-R/view/OpenMeetings/ linkindən əldə edə
bilərsiniz)
fetch http://apache-mirror.rbc.ru/pub/apache/openmeetings/3.0.3/bin/apache-
openmeetings-3.0.3.tar.gz

tar zxf apache-openmeetings-3.0.3.tar.gz  # Paketi yerləşdiyimiz ünvana
                                          açırıq
```

Qeyd: Paketi **/usr/local/om** ünvanına açdıqdan sonra **.sh** genişlənməli bütün Scriptlərin içində, bash-ın ünvanını **/usr/local/bin/bash** təyin etmək lazımdır. Həmçinin **/usr/local/om/red5.sh** scriptinin içində **OS** dəyişəni üçün **FreeBSD** şərti yazmaq lazımdır. Ona görə ki, bu deyişənin sayəsində, OpenMeetings üçün **JAVA_HOME** mühiti tanınır. Eynilə **root** istifadəçisinin ev qovluğunda **.bashrc** faylının içinə də

```
JAVA_HOME=/usr/local/openjdk7/jre
export JAVA_HOME
```

sətirlərini əlavə etmək lazımdır. Aşağıdakı sətirləri uyğun olaraq, **/usr/local/bin/red5.sh** faylında dəyişmək lazımdır(**Darwin case**-i silinir və yerinə **FreeBSD** yazılır. Aşağıdakı kimi☺)

```
OS=`uname`
case "$OS" in
  CYGWIN*|MINGW*) # Windows Cygwin or Windows MinGW
  P=";" # Since these are actually Windows, let Java know
  ;;
  FreeBSD*)
        if [ -z "$JAVA_HOME" ]; then
                export JAVA_HOME=/usr/local/openjdk7/jre;
        fi
  ;;
```

Javanın MySQL-ə qoşulması üçün connectoru download edirik və serverdə **/usr/local/om/webapps/openmeetings/WEB-INF/lib/** ünvanına yerləşdiririk. http://dev.mysql.com/downloads/file.php?id=454396 linkində MySQL connectoru endirmək üçün qeydiyyatdan keçirik və MySQL connector-u http://dev.mysql.com/downloads/connector/j/ linkindən endiririk.

```
# Connectoru nüsxələyirik kitabxanalar olan ünvana
cp /home/jamal/mysql-connector-java-5.1.34.tar.gz
/usr/local/om/webapps/openmeetings/WEB-INF/lib/
```

```
cd /usr/local/om/webapps/openmeetings/WEB-INF/lib/     # Connector olan ünvana
                                                       daxil oluruq
tar zxf mysql-connector-java-5.1.34.tar.gz             # sıxılan faylı
                                                       yerləşdiyimiz ünvana
                                                       açırıq

Ancaq jar faylı lib-ə atırıq və qovluğu silirik
mv mysql-connector-java-5.1.34/mysql-connector-java-5.1.34-bin.jar .
rm mysql-connector-java-5.1.34.tar.gz                  # Sıxılmış faylın özünü
                                                       də silirik

cd /usr/local/om/webapps/openmeetings/WEB-INF/classes/META-INF/    # Sonra bu
                                                       ünvana daxil oluruq

cp persistence.xml old_persistence.xml     # Sonra persistence.xml faylını
                                           köhnə adla nüsxələyirik

rm persistence.xml      # Sonra original persistence.xml faylını silirik

cp mysql_persistence.xml persistence.xml               # Sonra MySQL ilə olan
                                                       konfiq faylını original
                                                       fayla nüsxələyirik

Sonra persistence.xml faylında Url=jdbc:mysql://localhost:3306/ sətrini
tapırıq və Username=, Password= sətirlərində bazada yaratdığımız istifadəçi
ilə şifrə təyin edirik. Aşağıdakı kimi:
    , Username=openmeetings
    , Password=freebsd" />

cd /usr/local/om        # Yükləməyə başlamaq üçün bu ünvana daxil oluruq

# Aşağıdakı əmr ilə yükləməyə başlayırıq(Ardınca əmri açıqlayırıq).
Ümumiyyətlə yüklənmə
# proseduruna http://openmeetings.apache.org/installation.html rəsmi
linkindən baxa bilərsiniz
# ancaq burdakı qədər detallı və açıq yazılmayıb.
sh ./admin.sh -i -v -tz Asia/Baku -email jamal.shahverdiyev@domain.az -group
Users -user admin --smtp-server localhost --db-type mysql --db-user
openmeetings --db-pass freebsd --db-name openmeetings --db-host localhost --
skip-default-rooms --password rumburak

-tz - Time Zone dəməkdir(Bizim halda Asia/Baku)
-email - inizibatçının email ünvanıdır(Mənim halımda öz emailim)
-group - Istifadeçilər yerləşdiyi susmaya görə olan qrup(Mənim halımda Users)
-user  - inzibatçı logini(Bizim halda elə admin)
--smtp-server - localhost(Ancaq əvvəldə yazdığım kimi, postfix-i yükləməyi
unutmayın)
--db-type - Bazanın tipini seçirik(Bizim halda MySQL)
--db-user - Baza istifadəçi adı(bizim halda openmmetings)
--db-pass - Baza istifadəçisinin şifrəsi(Bizim halda freebsd)
--db-name - Bazanın adı(openmeetings)
--db-host - Bazaya qoshulan host(Bizim halda localhost özüdür)
--password - inzibatçı şifrəsi(Bizim halda rumburak)
```

Sonda hər şey uğurlu olarsa aşağıdakı sətirlər çap edilməlidir:

```
[INFO] [main] org.apache.openmeetings.db.dao.user.UserDao - [get] Info: No
USER_ID given
[INFO] [main] org.apache.openmeetings.db.dao.user.UserDao - [get] Info: No
USER_ID given
[INFO] [main] org.apache.openmeetings.db.dao.user.UserDao - [get] Info: No
USER_ID given
[INFO] [main] org.apache.openmeetings.db.dao.user.UserDao - [get] Info: No
USER_ID given
... Done
```

Qeyd: Yüklənmə müddətincə çıxan səhvlərdən narahat olmayın çünki, siz **openmeetings** bazasını asanlıqla silib yenidən yarada bilərsiniz və yüklənməni yənidən edə bilərsiniz. Aşağıdakı qaydada:

```
drop database openmeetings;
CREATE DATABASE openmeetings DEFAULT CHARACTER SET utf8 COLLATE
utf8_general_ci;
```

Işə salmaq üçün isə eynilə **/usr/local/om** ünvanına daxil olub **red5.sh** scriptini işə salmaq lazımdır:

```
cd /usr/local/om/       # OpenMeetings yerleşən ünvana daxil oluruq
sh ./red5.sh            # Sevisi işə salırıq(Nəticə aşağıdakı kimi olacaq)
        ###################################################
        #               Openmeetings is up                #
        #     3.0.3-RELEASE 1621852 2-September-2014      #
        #                and ready to use                 #
        ###################################################
```

Yuxarıda görünən nəticəni aldqıdan sonra, SSH ilə əmri işə saldiğımız sessiyanı bağlamırıq çünki, bağladıqda servis-də sönəcək. Bunun üçün birazdan startup script yazacağıq və onu cron-da təyin edəcəyik ki, reboot-dan sonra avtomatik işə düşsün. Sessiyamız açıq vəziyyətdə qalaraq serverimizin http://98.97.96.140:5080/openmeetings/install linkinə müraciət edirik. Aşağıdakı şəkildəki kimi istifadəçi adı və şifrəni daxil edirik. Daxil edilən istifadəçi adı və şifrə **admin.sh** scriptində yazdiğımızdır.



Aşağıdakı şəkilə uyğun olan bir nəticə əldə etməlisiniz:



Yüklənmədə istifadə etdiyimiz bütün quraşdırmaları **Administration -> Configuration** bolümündə görə bilərsiniz:



Aşağıdakı şəkildəki kimi configləri görə bilərsiniz:



Indi isə OpenMeetings-in avtomatik işə düşməsi üçün quraşdırmalarımızı edək. Bunun üçün **/usr/local/etc/rc.d** ünvanında **red5.sh** adlı script yaradaq. Bu scriptin sayəsində bizim OpenMeetings servisi restartdan sonra avtomatik olaraq işə düşəcək. Bunu aşağıdakı qaydada edirik.
/usr/local/etc/rc.d/red5.sh faylının içinə aşağıdakı sətirləri elavə edirik:

```
#!/bin/sh

RED5_DIR=/usr/local/om
test -x $RED5_DIR/red5.sh || exit 5

case "$1" in
	start)
		cd "$RED5_DIR"
		"$RED5_DIR"/red5.sh &
		sleep 2
		;;
	stop)
		echo Shutting down Red5
		killall java
		sleep 2
		;;
	restart)
		$0 stop
		$0 start
		;;
esac


chmod +x /usr/local/etc/rc.d/red5.sh	# Scripti yerinə yetirilən edirik

/etc/rc.conf faylının sonuna aşağıdakı sətri əlavə edirik:
red5_enable="YES"

reboot	# Serveri reboot edirik ki, görək servis özü avtomatik işə düşürmü
```

```
netstat -na | grep 5080        # reboot-dan sonra işə düşməsini
                               yoxlayırıq(nəticə aşağıdakı kimi olmalıdır)
tcp46      0      0 *.5080                  *.*                    LISTEN

ps waux | grep -v "grep" | grep red5      # Processlərdə olmasını yoxlayırıq
root    1103   1.0  9.5 1394160 397072  -  I     8:55PM 1:46.39
/usr/local/openjdk7/bin/java -Dred5.root=/usr/local/om -
Dlogback.ContextSelect
```

Indi isə əlavə quraşdırmaları edək

Paketleri yüklədikdə **swftools** var idi. O susmaya görə **/usr/local/bin** ünvanına yüklənir. Aşağıdakı əmr ilə yoxlaya bilərik. Həmçinin bu qovluqda **/usr/local/bin/pdf2swf** olmalıdır.

```
ll /usr/local/bin/swf*
-r-xr-xr-x  1 root  wheel  636848 Dec 23 15:41 /usr/local/bin/swfbbox*
-r-xr-xr-x  1 root  wheel  986832 Dec 23 15:41 /usr/local/bin/swfc*
-r-xr-xr-x  1 root  wheel  111312 Dec 23 15:41 /usr/local/bin/swfcombine*
-r-xr-xr-x  1 root  wheel  653344 Dec 23 15:41 /usr/local/bin/swfdump*
-r-xr-xr-x  1 root  wheel  676464 Dec 23 15:41 /usr/local/bin/swfextract*
-r-xr-xr-x  1 root  wheel  787120 Dec 23 15:41 /usr/local/bin/swfrender*
-r-xr-xr-x  1 root  wheel  628624 Dec 23 15:41 /usr/local/bin/swfstrings*
```

http://98.97.96.140:5080 linkimizdə **Administration -> Configuration** bölümündə **swftools_path /usr/local/bin** ünvanı təyin edirik. Aşağıdakı şəkildəki kimi:



Sonra yazı otağında daxil oluruq. Bunun üçün **Rooms -> My rooms** ünvanına daxil oluruq.

Sonra isə **My conference room -> Enter** düyməsini sıxırıq



Əgər Java-nın avadanlıqlarımızın driverlərini istifadə edilməsi ilə bağlı Browserimiz və ekranımıza xəbər çıxsa mütləq **allow** edirik. Sonra isə **Start conference** düyməsinə sıxırıq.



Həmçinin test üçün səsi yoxlaya bilərsiniz. Şəkildə göstərilir:



Sonra danışıq otağımızın içində **Files -> File upload** düyməsinə sıxırıq.



Sonra **Select file ->** Sistemdə PDF yerləşən ünvanda **PDF** faylı seşirik və **Open** düyməsinə sıxırıq.



Sonra aşağıdakı şəkildəki kimi **Start upload** düyməsinə sıxırıq.



File Upload bitdikdən sonra isə faylın convert edilməsi başlayacaq(Şəkildəki kimi):



Convert bitdikdən sonra mənim halımda aşağıdakı səhv çap edildi. Bu Code səhvidir rəsmi saytından araşdırdım.



Ancaq PDF sənəd normal şəkildə convert edildi və **Files** bölümündə list edildi. Upload edilmiş PDF sənədləri **Files** bölümündə görə bilərsiniz.



Sonra ofis sənədlərinin import edilməsı üçün Libreoffice-i quraşdırırıq. Öncə paketi yükləmişdik. Mütləq **JodConverter** yükləmək lazımdır. Bunun üçün aşağıdakı likndən onu serverimizə dartırıq
https://code.google.com/p/jodconverter/downloads/detail?name=jodconverter-core-3.0-beta-4-dist.zip&can=2&q=

```
cd /usr                    # WinSCP ilə bu ünvana upload edirik.
cd /usr/ ; tar zxf jodconverter-core-3.0-beta-4-dist.zip     # Upload
                                                  etdiyimiz qovluqda açırıq
```

Sonra http://94.20.19.140:5080 serverimizdə **Administration -> Configuration** bölümündə **jod.path value**-sini **/usr/jodconverter-core-3.0-beta-4/lib** edirik və **save** düyməsini sıxırıq.



Sonra serverimizdə yüklənən ofisin binary ünvanını axtarıb tapırıq.
find / -name soffice.bin # Binar ünvanı axtarırıq və aşağıdakı ünvandır.
/usr/local/lib/libreoffice/program/soffice.bin

Sonra yenede **Administration -> Configuration** və **office.path** value-si olaraq **/usr/local/lib/libreoffice** təyin edirik. Şəkildə göstərildiyi kimi:



Qeyd: Diqqət əlavə edilən **PDF**, **.doc** və ya hansısa sənədlərin açılması və silinməsi üçün düymələr yox **Drag & Drop** işləyir. Nəzərə alın ki, onları istifadə edəsiniz.

Sonra yenə də danışıq otağımız **Rooms -> My Rooms -> My Conference room -> Enter**, ardınca **Files -> MyFiles** və sol tərəfdə küncdə **Upload file** düyməsini

sıxırıq. Ancaq mənim halımda doc və docx sənəd convert edilə bilmədi ama PDF işlədi.

Həmçinin **Administration -> Configuration** bölümünün altında **sox, ffmpeg** və **imagemagick** üçün **keyvalue**-ları aşağıdakı kimi axtarıb sonra da şəkildəki kimi təyin etmək lazımdır.

```
which ffmpeg                          # ffmpeg ünvanını tapırıq
/usr/local/bin/ffmpeg

which sox                             # Sox ünvanını tapırıq
/usr/local/bin/sox

which /usr/local/bin/image_to_j2k     # ImageMacgik ünvanı
/usr/local/bin/image_to_j2k
```

Şəkildəki kimi ünvanlar olur:



Sonda isə öz ekranımızı paylaşaq və baş vərən bütün hadisələri **record** edib test edək. Yenə gedirik **Rooms → My Rooms → My conference room → Enter** və Java-nı accept edib **Start Conference** düyməsinə sıxırıq. Sonra **Actions → Share/Record** screen düymesinə sıxırıq, bundan sonra java fayl yüklənəcək və biz onu açmaq istədikdə Java təhlükəsizlik menyusu açılacaq ki, izin verilmir. Bunun üçün siz **Java Control Panel**-de **Security** bölümündə http://om.domain.az:5080 -i **Add** edib inamlı siyahiya əlavə etməlisiniz.



Həmin java faylı açırıq və işə saldıqda aşağıdakı səhifə çap ediləcək:



Start sharing və **Start recording** düymələrinə sıxırıq və ekranımız yazılmağa başlayır. Sonra **Exit** düyməsini sıxırıq. Şəkildəki kimi, **Recordings -> Recordings(Watch recording and interviews) -> My recordings** düyməsinə sıxıb aşağıdakı şəkildə olan nəticəni əldə etmiş olacaqsınız:



BigBlueButton qurulması və istifadə edilməsi

BBB - web-konfransın keçirilməsi üçün açıq qaynaqlı proqram təminatıdır. Sistem ilk növbədə distans təhsil üçün hazırlanmışdır. OnlineMeetings-də olan bütün funksionallığa sahibdir lakin, BBB(BigBlueButton) öz API-larını md5 və salt alqoritmi ilə şifrələnmiş kanal üzərindən istənilən serverə qaytarır. Yəni birbaşa inzibatçı idarəetməsi üçün interfeysə sahib deyil.

Qeyd: Mütləq bu serverdə PUBLIC IP uzerində işləməlidir.

BBB serverin işləməsi üçün Ubuntu serverin tələbləri aşağıdakı kimi optimal sayılır:
DDR: 8GB
CPU: 2, Core2(2.6Ghz yada daha çox)
TCP portlar: 80, 1935 və 9123 açıq olmalıdır
UDP portlar: 16384-32768 aralığı açıq olmalıdır
HDD: 500GB
NIC: 1(Internet üzərində 100Megabit simmetric)

```
apt-get update                  # Bütün reposları yeniləyirik
apt-get dist-upgrade            # Kernel və system paketlərini yeniləyirik

reboot                    # Sistemə restart edirik ki, paketlər mənimsənsin

cat /etc/default/locale         # Sistemin daxili dili və kodlaşdırması belə
                                olmalıdır(susmaya görə belədir)
LANG="en_US.UTF-8"              # Qeyd: faylda yalnız bir sətir olmalıdır
```

Əgər daxili dil **en** və kodlaşdırma **UTF8** olmazsa, aşağıdakı əmr ilə bunu edə bilərsiniz:

```
apt-get install language-pack-en
update-locale LANG=en_US.UTF-8

uname -m                  # Ubuntu aşağıdakı tip platformada olmalıdır
x86_64
```

Həmçinin Ubuntu-nun 14.04 versiyası olmalısını mütləq yoxlayın.

```
cat /etc/lsb-release            # Əmri daxil etdikdə aşağıdakı nəticə çap
                                edilməlidir.
DISTRIB_ID=Ubuntu
DISTRIB_RELEASE=14.04
DISTRIB_CODENAME=trusty
DISTRIB_DESCRIPTION="Ubuntu 14.04.1 LTS"
```

BigBlueButton üçün açarı yükləyək yəni repos əlavə edək və bütün reposları yeniləyək.

```
wget http://ubuntu.bigbluebutton.org/bigbluebutton.asc -O- | sudo apt-key add
-
echo "deb http://ubuntu.bigbluebutton.org/trusty-090/ bigbluebutton-trusty
main" | sudo tee /etc/apt/sources.list.d/bigbluebutton.list

apt-get update            # Reposları yeniləyirik
```

```
cat /root/install-ffmpeg.sh          # Fayla gördüyümüz kimi aşağıdakı
                                     sətirləri əlavə edirik
apt-get install build-essential git-core checkinstall yasm texi2html
libvorbis-dev libx11-dev libvpx-dev libxfixes-dev zlib1g-dev pkg-config
netcat libncurses5-dev

FFMPEG_VERSION=2.3.3

cd /usr/local/src
if [ ! -d "/usr/local/src/ffmpeg-${FFMPEG_VERSION}" ]; then
  wget "http://ffmpeg.org/releases/ffmpeg-${FFMPEG_VERSION}.tar.bz2"
  tar -xjf "ffmpeg-${FFMPEG_VERSION}.tar.bz2"
fi

cd "ffmpeg-${FFMPEG_VERSION}"
./configure --enable-version3 --enable-postproc --enable-libvorbis --enable-
libvpx
make
checkinstall --pkgname=ffmpeg --pkgversion="5:${FFMPEG_VERSION}" --backup=no
--deldoc=yes --default

chmod +x /root/install-ffmpeg.sh          # Scripti yerinə yetirilən edirik
                                          ki, işə sala bilək

/root/install-ffmpeg.sh                   # Scripti işə salırıq və ffmpeg
                                          paketi avtomatik olaraq yüklənəcək


ffmpeg -version          # Yüklənmə bitdikdən sonra ffmpeg versiyasını
                         yoxlayırıq. Aşağıdakı kimi olmalıdır.
ffmpeg version 2.3.3 Copyright (c) 2000-2014 the FFmpeg developers
built on Jan 24 2015 16:07:33 with gcc 4.8 (Ubuntu 4.8.2-19ubuntu1)
configuration: --enable-version3 --enable-postproc --enable-libvorbis --
enable-libvpx
libavutil      52. 92.100 / 52. 92.100
libavcodec     55. 69.100 / 55. 69.100
libavformat    55. 48.100 / 55. 48.100
libavdevice    55. 13.102 / 55. 13.102
libavfilter     4. 11.100 /  4. 11.100
libswscale      2.  6.100 /  2.  6.100
libswresample   0. 19.100 /  0. 19.100

apt-get update                # Reposları yenidən yeniləyirik
apt-get install bigbluebutton # Paketi yükləyirik

Bir dəfə səhv çap ediləcək. Fikir verməyin və yenidən əmri təkrarlayın.
apt-get install bigbluebutton        # Paketi yükləyirik(Bu dəfə səhv çap
                                     edilməyəycək)

apt-get install bbb-demo             # Test üçün bbb-demo-nu yükləyirik
```

Qeyd: Nəzərə alın ki, **bbb-demo** paketi yükləndikdən sonra public-də

hamı tərəfindən istifadə edilə biləcək. Onu silmək üçün isə **apt-get purge bbb-demo** əmrindən istifadə etmək lazımdır.

```
bbb-conf --enablewebrtc              # WebRTC audio işə salırıq və aşağıdakı
                                     nəticə əldə edilir
WebRTC audio enabled.  To apply settings to your server, do

      sudo bbb-conf --clean
```

Öncə IPv6-ni söndürürük. **/etc/sysctl.conf** faylına aşağıdakı sətirləri əlavə edirik:

```
net.ipv6.conf.all.disable_ipv6 = 1
net.ipv6.conf.default.disable_ipv6 = 1
net.ipv6.conf.lo.disable_ipv6 = 1
```

/etc/default/grub faylında aşağıdakı sətri uyğun formaya gətiririk:

```
GRUB_CMDLINE_LINUX="ipv6.disable=1"
```

/etc/nginx/sites-enabled/default faylında mütləq aşağıdakı sətri silirik:

```
listen [::]:80 default_server ipv6only=on;
```

```
reboot            # Sonda server restart edirik
```

BigBlueButton-un normal işə düşməsini yoxlamaq üçün isə öncə təmizlik işləri edirik.

```
bbb-conf --clean              # Bu əmri daxil edirik
Doing a restart of BigBlueButton and cleaning out all log files...
 * Stopping daemon monitor monit                                    [ OK ]
 * Stopping Red5 Server red5                                 [ OK ]
 * Stopping Tomcat servlet engine tomcat7                    [ OK ]
Killing: 925
 * Stopping bbb-record-core

Cleaning Log Files ...
 * nginx is not running
 * Red5 Server is not running.
 * Tomcat servlet engine is not running.

1791 Backgrounding.
1791 (process ID) old priority 19, new priority -10
Waiting for FreeSWITCH to start: ......................
 * Starting Red5 Server red5                                 [ OK ]
 * Starting Tomcat servlet engine tomcat7                    [ OK ]
 * Starting daemon monitor monit                                   [ OK ]

Note: monit will automatically start bbb-record-core and LibreOffice within
60 seconds.

Waiting for BigBlueButton to finish starting up (this may take a minute):
.............. done


** Potential problems described below **
```

```
# Warning: The API demos are installed and accessible from:
#
#    http://188.99.88.76/
#
# These API demos allow anyone to access your server without authentication
# to create/manage meetings and recordings. They are for testing purposes
only.
# If you are running a production system, remove them by running:
#
#    sudo apt-get purge bbb-demo
```

Öncəki sətirlərdə gördüyümüz kimi yoxlanışın nəticəsi bizə bildirdi ki, bbb çölə açıqdır və hər kəs onu istifadə edə bilər. Və bunun qarşısını almaq üçün hansı əmrdən istifadə etmək lazım olduğu da çap edildi. Ancaq hələ ki, test edəcəyimiz üçün **bbb-demo** paketini silmirik.

http://bbb.domain.az/ linkinə daxil olduqda aşağıdakı səhifə açılacaq. Test üçün öz istifadəçi adını daxil edib giriş etdim(Aşağıdakı şəkildəki kimi). Sizdə sual yaranmasın ki, jamal adlı istifadəçi öncədən yaranmamışdı, bəli elədir axı öncə yazdığım kimi, demo hər kəs üçün açıqdır.



Bütün driverlərin düzgün işləməsi üçün browserimizdə çıxan hər bir suala **allow** cavabı veririk və nəticədə aşağıdakı oxşar səhifəni əldə edirik:



Serverimizin heç bir səhv olmadan normal yüklənib quraşdırılmasını yoxlanış edirik:

```
bbb-conf --check                    # Bu əmr ilə quraşdırmaları yoxlayırıq

BigBlueButton Server 0.9.0-beta (571)
                    Kernel version: 3.13.0-44-generic
                      Distribution: Ubuntu 14.04.1 LTS (64-bit)
                            Memory: 7984 MB
/var/www/bigbluebutton/client/conf/config.xml (bbb-client)
                 Port test (tunnel): 188.99.88.76
                                Red5: 188.99.88.76
              useWebrtcIfAvailable: true
/opt/freeswitch/conf/sip_profiles/external.xml (FreeSWITCH)
                    websocket port: 5066
                    WebRTC enabled: true

/etc/nginx/sites-available/bigbluebutton (nginx)
                       server name: 188.99.88.76
                              port: 80
                    bbb-client dir: /var/www/bigbluebutton

/var/lib/tomcat7/webapps/bigbluebutton/WEB-
INF/classes/bigbluebutton.properties (bbb-web)
                       bbb-web host: 188.99.88.76

/var/lib/tomcat7/webapps/demo/bbb_api_conf.jsp (API demos)
                             api url: 188.99.88.76

/usr/share/red5/webapps/bigbluebutton/WEB-INF/red5-web.xml (red5)
                   voice conference: FreeSWITCH
                      capture video: true
                    capture desktop: true
```

```
/usr/local/bigbluebutton/core/scripts/bigbluebutton.yml (record and playback)
                    playback host: 188.99.88.76

** Potential problems described below **
# Warning: The API demos are installed and accessible from:
#
#    http://188.99.88.76/
#
# These API demos allow anyone to access your server without authentication
# to create/manage meetings and recordings. They are for testing purposes
only.
# If you are running a production system, remove them by running:
#
#    sudo apt-get purge bbb-demo
```

Ümumiyyətlə mümkün olan biləcək əmrlərin sıyahısına aşağıdakı kimi baxa bilərsiniz:

```
bbb-conf -h              # Mövcud əmrlərin siyahısını əldə edirik.
BigBlueButton Configuration Utility - Version 0.9.0-beta
http://code.google.com/p/bigbluebutton/wiki/BBBConf

   bbb-conf [options]

Configuration:
   --version                        Display BigBlueButton version (packages)
   --setip <host>                   Set IP/hostname for BigBlueButton
   --setsecret <secret>             Change the shared secret in
bigbluebutton.properties

Monitoring:
   --check                          Check configuration files and processes
for problems
   --debug                          Scan the log files for error messages
   --watch                          Scan the log files for error messages
every 2 seconds
   --secret                         View the URL and shared secret for the
server
   --lti                            View the URL and secret for LTI (if
installed)

Administration:
   --restart                        Restart BigBueButton
   --stop                           Stop BigBueButton
   --start                          Start BigBueButton
   --clean                          Restart and clean all log files
   --zip                            Zip up log files for reporting an error

Testing:
   --enablewebrtc                   Enables WebRTC audio in the server
   --disablewebrtc                  Disables WebRTC audio in the server
```

Serverdə qulaq asılan portların sıyahısına baxaq:

```
netstat -na|grep -i LISTEN | grep -v unix
tcp        0      0 188.99.88.76:5090   0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:9123        0.0.0.0:*       LISTEN
tcp        0      0 127.0.0.1:8100      0.0.0.0:*       LISTEN
tcp        0      0 188.99.88.76:5060   0.0.0.0:*       LISTEN
tcp        0      0 127.0.0.1:8005      0.0.0.0:*       LISTEN
tcp        0      0 188.99.88.76:5066   0.0.0.0:*       LISTEN
tcp        0      0 127.0.0.1:6379      0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:5070        0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:9998        0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:1935        0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:9999        0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:80          0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:8080        0.0.0.0:*       LISTEN
tcp        0      0 127.0.0.1:8081      0.0.0.0:*       LISTEN
tcp        0      0 127.0.0.1:8021      0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:22          0.0.0.0:*       LISTEN
tcp        0      0 0.0.0.0:5080        0.0.0.0:*       LISTEN
```

Client WebRTC error code-ları:

1001: !Websocket disconnected - WebSocket uğurla qoşuldu və indi qoşulmadan ayrıldı ona görə ki:
* Internet yoxdur
* Nginx-in restart edilməsinə səbəb ola bilər

1002: Websocket qoşulmasını etmək mümkün deyil - WebSocket qoşulması uğursuz oldu ona görə ki:
* Firewall tərəfindən ws protocol bağlıdır
* Server sönülüdür ya da düzgün quraşdırılmayıb

1003: Browser versiyası dəstəklənmir - Browser tələb edilən WebRTC API methodlarını istifadə etmir ona görə ki:
* Köhnəlmiş browserdir

1004: Zəngdə səhv baş verdi – Zəng edildi ancaq səhv baş verdi:
* Səhvlərin tam siyahısına bu linkdən -> **http://sipjs.com/api/0.6.0/causes/** baxa bilərsiniz

1005: Zəng səbəbsiz sona çatdı – Zəng uğurlu oldu ancaq, istifadəçi müraciət etmədən sona yetdi. Səbəbi:
* Bəlli deyil

1006: Zəng vaxtı bitdi - Kitabxanadan asılı olaraq baş verir:
* Firefox 33beta-da Mac-da səhv baş veriridi.

1007: ICE razılaşma uğursuz oldu - Browser və !FreeSWITCH portların razılaşmasına cəhd edir hansı ki, görüntü və axının istifadəsi üçün nəzərdə tutulur və uğursuz oldu ona görə ki:
* NAT qoşulmanı block edir
* UDP qoşulma/port-larını Firewall block edir

BÖLÜM 14

İP üzərindən səsin ötürülməsi

- **Asterisk VoIP serverin qurulması və sınaqdan keçirilməsi**
- **FreeSWITCH VoIP serverin qurulması və sınaqdan keçirilməsi**

Artıq gündəmin tələbi elə bir vaxta gəlib çatıb ki, telefon sisteminin qurulması üçün mini ATS və ya fiziki avadanlıq tələb edilmir. Əksər şirkətlər artıq zəngə kompyüterində olan proqram təminatından və ya mobil telefonundan cavab vermək istəyir. Bunun üçün xeyli proqram təminatları və hətta voice over İP-ni dəstəkləyən avadanlıqlar da mövcuddur. Yalnız bütün bu bahalı həlləri istifadə eləmək əvəzinə, başlığımızda açıq qaynaqlı Asterisk/FreeSWITCH haqqında danışacayıq və bir neçə telefon üçün quraşdırmalar edəcəyik.

Asterisk VoIP serverin qurulması və sınaqdan keçirilməsi

Asterisk — kompüterlər üçün açıq qaynaqlı telefon həllidir. Mark Spencer tərəfindən hazırlanmışdır. Proqram Linux, FreeBSD, OpenBSD və Solaris əməliyyat sistemlərində işləyir. Layihənin adı "*" simvolundan yaranmışdır. (asterisk — "ulduz"). Daha ətraflı http://asterisk.ru/ linkindən oxuya bilərsiniz.

Asterisk istənilən avadanlıqla(server və ya PC) klassik ATS-ın bütün imkanlarına malikdir. Bir çox VoIP-protokolları dəstəkləyir və onların arasında zəngləri idarə etmə funksiyaları da var. Aşağıdakı bacarıqları sadalaya bilərik:

- Səsli məktub
- Konfrans əlaqə
- İVR(İnteraktiv səs menyusu)
- Zənglərin emalı mərkəzi(fərqli alqoritmlər istifadə edərək, zənglərin növbəli təyinatı və abonentlərə görə paylaşdırılması)
- Call Detail Record(zəng haqqında ətraflı məlumat)

Qurulmasına başlayaq.
asterisk.opensource.az adlı serverimiz var.
FreeBSD 10.1 x64 üzərində Asterisk13-ü aşağıdakı əmrlərlə yükləyirik:

```
# cd /usr/ports/net/asterisk13/      - Port ünvanına daxil oluruq
# make config                        - Lazımi modulları seçirik
```

```
qqqqqqqqqqqqqqqqqqqqqqqqqq asterisk13-13.5.0_1 qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq
lqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqk
x+[ ] BACKTRACE  Stack backtrace support via (lib)execinfo                    x
x [x] CURL        Data transfer support via cURL                             x
x [x] DAHDI       DAHDI support                                              x
x [ ] EXCHANGE    Exchange calendar support                                  x
x [x] FREETDS     FreeTDS library support                                    x
x [ ] LDAP        LDAP protocol support                                      x
x [x] LUA         Lua scripting language support                             x
x+[x] MP3PLAYER   Install MP3 Player for Music-On-Hold (mpg123)              x
x [x] OOH323      ooh323 support                                             x
x [x] PJSIP       Build the PJSIP based SIP channel                          x
x [x] PORTAUDIO   PortAudio library support                                  x
x [x] RADIUS      RADIUS protocol support                                    x
x [x] SNMP        SNMP network protocol support                              x
x [ ] SPANDSP     SpanDSP faxing support                                     x
x [x] SRTP        SecureRTP support                                          x
x [ ] SYSINFO     Use devel/libsysinfo to get system information             x
x [x] XMPP        XMPP/GTALK support                                         x
xqqqqqqqqqqqqqqqqqqqqq Encoder/Decoder (Codec) Support qqqqqqqqqqqqqqqqqqqqx
x [x] GSM         GSM codec support                                          x
x [x] NEWG711     New G711 Codec                                             x
x [x] SPEEX       Speex audio format support                                 x
x [x] VORBIS      Ogg Vorbis audio codec support                             x
xqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq Database Support qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqx
x [ ] MYSQL       MySQL database support                                     x
x [x] ODBC        ODBC database backend                                      x
x [ ] PGSQL       PostgreSQL database support                                x
x [ ] SQLITE2     SQLite 2 database support                                  x
xqqqqqqqqqqqqqqqqq Core and Music-on-Hold (MoH) Sound Files qqqqqqqqqqqqqqqqx
x+[ ] G729                                                                   x
xqqqqqqqqqqqqqqqqqqqqqqqq Menuselect Interface Backend qqqqqqqqqqqqqqqqqqqqx
x+[x] NCURSES     Console (text) interface support                           x
x+[x] NEWT        Newt User Interface                                        x
xqqqqqqqqqqqqqqqqqqqqqqqq Compiler to use qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqx
x ( ) BASE        Use base compiler (experimental)                           x
x (*) GCC         Use gcc from ports                                         x
mqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqj
qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq
                      < OK >                  <Cancel>
```

```
# make -DBATCH install               - Yükləyirik
```

```
# echo 'asterisk_enable="YES"' >> /etc/rc.conf  - StartUP-a əlavə edirik
# /usr/local/etc/rc.d/asterisk start            - Işə salırıq
```

/usr/local/etc/asterisk/sip.conf faylında yalnız aşağıdakı sətirlərdə dəyişiklik etmişik:

```
transport=udp,tcp
tcpenable=yes
```

/usr/local/etc/asterisk/sip.conf faylının sonuna aşağıdakı sətiri əlavə edib yadda saxlayaraq çıxırıq(Bununla **sip_additional.conf** faylının da yüklənmə zamanı oxunmasını deyirik):

```
#include sip_additional.conf
```

Eynilə **/usr/local/etc/asterisk/extensions.conf** faylının sonuna aşağıdakı sətiri əlavə edirik ki, yüklənmədə **extensions_fs.conf** faylı da oxunsun:

```
#include extensions_fs.conf
```

/usr/local/etc/asterisk/sip_additional.conf faylında iki ədəd genişlənmə(**7000** və **7001**) və **fsar** adlı SIP Trunk quraşdırması olacaq. faylının tərkibi aşağıdakı kimi olacaq:

```
[7000]
defaultuser=7000
secret=freebsd
host=dynamic
context=phones
qualify=yes
transport=udp,tcp
insecure=port,invite
canreinvite=no
disallow=all
allow=alaw
type=friend

[7001]
defaultuser=7001
secret=freebsd
host=dynamic
context=phones
qualify=yes
transport=udp,tcp
insecure=port,invite
canreinvite=no
disallow=all
allow=alaw
type=friend
```

/usr/local/etc/asterisk/extensions_fs.conf faylının tərkibi aşağıdakı kimidir:

```
[incoming]
exten => _7XXX,1,Dial(SIP/${EXTEN})
```

```
exten => _7XXX,n,Hangup()

[outgoing]
exten => _1XXX,1,Dial(SIP/${EXTEN})
exten => _1XXX,n,Hangup()

[phones]
include => incoming
include => outgoing
```

/usr/local/etc/rc.d/asterisk restart – Asteriski yenidən yükləyirik ki, dəyişikliklər işə düşsün.

Ya da etdiyimiz dəyişikliklərin dərhal işə düşməsi üçün asterisk console-da aşağıdakı əmri daxil etməniz yetər:

```
asterisk*CLI> sip reload
```

Sonda Asterisk console-a verbose rejimdə daxil oluruq və uğurlu SIP qoşulmalarına baxırıq:

```
# asterisk -rvvv
asterisk*CLI> sip show peers
Name/username Host            Dyn Forcerport Comedia ACL Port  Status  Description
7000/7000     85.132.57.60    D   Auto(No)   No      53945    OK (11 ms)
7001/7001     (Unspecified)   D   Auto(No)   No      0        UNKNOWN
2 sip peers [Monitored: 1 online, 1 offline Unmonitored: 0 online, 0 offline]
```

SİP Debug eləmək üçün aşağıdakı əmrdən istifadə edə bilərsiniz:

```
snort*CLI> sip set debug on
```

Phones adlı yaratdığınız yeni dialplan-a aşağıdakı əmrlə baxa bilərsiniz:

```
snort*CLI> dialplan show phones
[ Context 'phones' created by 'pbx_config' ]
  Include =>        'incoming'
[pbx_config]
  Include =>        'outgoing'
[pbx_config]

-= 0 extensions (0 priorities) in 1 context. =-
```

Sonda isə iki SİP client proqramı ilə **7000** və **7001** qeydiyyatdan keçirib bir-birlərinə çox rahatlıqla zəng edə bilərsiniz.

FreeSWITCH VoIP serverin qurulması və sınaqdan keçirilməsi

FreeSWITCH - açıq qaynaqlı VoİP proqram təminatıdır. VoİP-lə ağlınıza gələcək istənilən imkana sahibdir. APİ mövcuddur və Event prinsipi ilə işləyir. Haqqında daha ətraflı https://ru.wikipedia.org/wiki/FreeSWITCH linkindən oxuya bilərsiniz.

Məqsədimiz **FreeBSD 10.1** x64 maşının üzərində FreeSWITCH serverin yüklənməsi və WEB ilə quraşdırılmasıdır. Bunun üçün öncə **FAMP**(**FreeBSD Apache MySQL PHP**) quraşdırmaq lazımdır. Ancaq php5-extensions-da mütləq aşağıdakı modulları seçmək lazımdır:

```
qqqqqqqqqqqqqqqqqqqqqqqqq php5-extensions-1.7 qqqqqqqqqqq
lqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqk
x+[ ] BCMATH         bc style precision math functions
x+[x] BZ2             bzip2 library support
x+[ ] CALENDAR        calendar conversion support
x+[x] CTYPE           ctype functions
x+[x] CURL            CURL support
x+[ ] DBA             dba support
x+[x] DOM             DOM support
x+[x] EXIF            EXIF support
x+[ ] FILEINFO        fileinfo support
x+[x] FILTER          input filter support
x+[x] FTP             FTP support
x+[x] GD              GD library support
x+[x] GETTEXT         gettext library support
x+[ ] GMP             GNU MP support
x+[x] HASH            HASH Message Digest Framework
x+[x] ICONV           iconv support
x+[ ] IMAP            IMAP support
x+[ ] INTERBASE       Interbase 6 database support (Firebird)
x+[x] JSON            JavaScript Object Serialization support
x+[ ] LDAP            OpenLDAP support
x+[ ] MBSTRING        multibyte string support
x+[ ] MCRYPT          Encryption support
x+[ ] MSSQL           MS-SQL database support
x+[x] MYSQL           MySQL database support
x+[x] MYSQLI          MySQLi database support
x+[ ] ODBC            ODBC support
x+[x] OPENSSL         OpenSSL support
x+[ ] PCNTL           pcntl support (CLI only)
x+[ ] PDF             PDFlib support (implies GD)
x+[x] PDO             PHP Data Objects Interface (PDO)
x+[ ] PDO_DBLIB       PDO DBLIB-DB driver
x+[ ] PDO_FIREBIRD    PDO Firebird driver
x+[x] PDO_MYSQL       PDO MySQL driver
x+[ ] PDO_ODBC        PDO ODBC driver
x+[ ] PDO_PGSQL       PDO PostgreSQL driver
x+[ ] PDO_SQLITE      PDO sqlite driver
x+[ ] PGSQL           PostgreSQL database support
x+[x] PHAR            phar support
x+[x] POSIX           POSIX-like functions
x+[ ] PSPELL          pspell support
x+[ ] READLINE        readline support (CLI only)
x+[ ] RECODE          recode support
x+[x] SESSION         session support
```

```
x+[ ] SHMOP          shmop support                    :
x+[x] SIMPLEXML      simplexml support
x+[ ] SNMP           SNMP support
x+[ ] SOAP           SOAP support
x+[ ] SOCKETS        sockets support
x+[ ] SQLITE3        sqlite3 support
x+[ ] SYBASE_CT      Sybase database support
x+[ ] SYSVMSG        System V message support
x+[ ] SYSVSEM        System V semaphore support
x+[ ] SYSVSHM        System V shared memory support
x+[ ] TIDY           TIDY support
x+[x] TOKENIZER      tokenizer support
x+[ ] WDDX           WDDX support (implies XML)
x+[x] XML            XML support
x+[x] XMLREADER      XMLReader support
x+[x] XMLRPC         XMLRPC-EPI support
x+[x] XMLWRITER      XMLWriter support
x+[x] XSL            XSL support (Implies DOM)
x+[x] ZIP            ZIP support
x+[x] ZLIB           ZLIB support
```

```
cat /usr/local/domen/fussip.domain.az     # VirtualHost-un quraşdırması
                                          aşağıdakı kimi olacaq
<VirtualHost *:80>
        ServerAdmin jamal.shahverdiyev@domain.az
        ServerName fussip.domain.az
        AcceptPathInfo On
        DocumentRoot /usr/local/www/fusionpbx/
<Directory "/usr/local/www/fusionpbx">
        AllowOverride All
        Require all granted
</Directory>
</VirtualHost>
```

Qeyd: Əgər biz FreeSWITCH-in core səviyyədə ODBC dəstəklənməsini istəsək onda,
ODBC-ə aid olan paketləri yükləməliyik. Bunu aşağıdaki kimi edə bilərsiniz.

```
root@frfs:~ # cd /usr/ports/databases/unixODBC
root@frfs:/usr/ports/databases/unixODBC # make config
```

```
qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq unixODBC-2.3.4 qqqqqqq
lqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq
x+[x] DOCS  Build and/or install documentation
mqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq
qqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqqq
                    <  OK  >            <Cancel>
```

```
root@frfs:~ # make -DBATCH install

MySQL üçün  MySQL connector-dan istifadə edilir
root@frfs:~ # cd /usr/ports/databases/mysql-connector-odbc
```

```
root@frfs:~ # make config
```




```
root@frfs:~ # make -DBATCH install
```

PostgreSQL üçün PostgreSQL connector-dan istifadə edilir:

```
root@frfs:~ # cd /usr/ports/databases/postgresql-odbc/
root@frfs:~ # make config
```




```
root@frfs:~ # make -DBATCH install
```

Sonra isə FreeSWITCH-in yüklənməsinə başlayırıq. Öncə kompilyasiya mühiti yaratmalıyıq. Məhz bunun üçündə lazımi paketləri yükləyirik.

```
pkg install autoconf automake curl git gmake jpeg ldns libedit libtool
openssl pcre pkgconf speex sqlite3 wget sudo
```

```
mkdir ~/src        # Mənbə kodları endirəcəyimiz ünvanı yaradırıq
cd ~/src           # Source kod-ların ünvanına daxil oluruq
```

Mənbə kodları local qovluğumuza sinxronizasiya edirik:

```
git clone -b v1.5.final https://stash.freeswitch.org/scm/fs/freeswitch.git
```

```
cd freeswitch           # clone edilən qovluğa daxil oluruq
./bootstrap.sh -j       # Kompilyasiya mühitini hazırlayırıq
```

Qeyd: Biz FreeSWITCH-in core səviyyədə ODBC dəstəklənməsini istəsək, mütləq onu aşağıdakı göstərilən şəkildə kompilyasiya etməliyik.

```
./configure --enable-core-odbc-support
```

```
./configure  # Quraşdırırıq(Bitdikdən sonra aşağıdakı sətirləri görməliyik)
------------------------- FreeSWITCH configuration ------------------------
  Locations:
      FHS enabled:      no

      prefix:           /usr/local/freeswitch
      exec_prefix:      ${prefix}
```

```
      bindir:          ${exec_prefix}/bin
      sysconfdir:      /usr/local/freeswitch/conf
      libdir:          ${exec_prefix}/lib

      certsdir:        /usr/local/freeswitch/certs
      dbdir:           /usr/local/freeswitch/db
      grammardir:      /usr/local/freeswitch/grammar
      htdocsdir:       /usr/local/freeswitch/htdocs
      logfiledir:      /usr/local/freeswitch/log
      modulesdir:      /usr/local/freeswitch/mod
      pkgconfigdir:    ${exec_prefix}/lib/pkgconfig
      recordingsdir:   /usr/local/freeswitch/recordings
      runtimedir:      /usr/local/freeswitch/run
      scriptdir:       /usr/local/freeswitch/scripts
      soundsdir:       /usr/local/freeswitch/sounds
      storagedir:      /usr/local/freeswitch/storage
      cachedir:        /usr/local/freeswitch/cache
-----------------------------------------------------------------------------
```

gmake # Kompilyasiyaya başlayırıq

sudo gmake install cd-sounds-install cd-moh-install # səsləri və imkanları yükləyirik

/usr/local/etc/rc.d/freeswitch faylı yaradırıq və içinə aşağıdakı sətirləri əlavə edirik. Bu fayl freeswitch üçün startup scriptdir hansı ki, reboot-dan sonra işə salınması üçündür.

```
#!/bin/sh
#
# PROVIDE: freeswitch
# REQUIRE: LOGIN cleanvar
# KEYWORD: shutdown
#
# Add the following lines to /etc/rc.conf to enable freeswitch:
# freeswitch_enable:       Set it to "YES" to enable freeswitch.
#                          Default is "NO".
# freeswitch_flags:        Flags passed to freeswitch-script on startup.
#                          Default is "".
#
. /etc/rc.subr
name="freeswitch"
rcvar=${name}_enable
load_rc_config $name
: ${freeswitch_enable="NO"}
: ${freeswitch_pidfile="/usr/local/freeswitch/run/freeswitch.pid"}
start_cmd=${name}_start
stop_cmd=${name}_stop
pidfile=${freeswitch_pidfile}
freeswitch_start() {
        /usr/local/freeswitch/bin/freeswitch ${freeswitch_flags}
        echo -n "Starting FreeSWITCH: "
}
```

```
freeswitch_stop() {
        /usr/local/freeswitch/bin/freeswitch -stop
}
run_rc_command "$1"
```

chmod u-w,ugo+x /usr/local/etc/rc.d/freeswitch # Scripti yerinə yetirən edirik

/etc/rc.conf faylına lazımi sətirləri əlavə edirik ki, reboot-dan sonra freeswitch-i işə salsın:

freeswitch_enable="YES"
freeswitch_flags="-nc"

Hal-hazırda root adlı istifadəçimizin SHELL mühiti **CSH** olduğuna görə, **/root/.cshrc** faylıda path dəyişənini aşağıdakı formaya gətiririk(freswitch-in binary faylları **/usr/local/freeswitch/bin** ünvanında yerləşir):

set path = (/sbin /bin /usr/sbin /usr/bin /usr/local/freeswitch/bin /usr/local/sbin /usr/local/bin $HOME/bin)

-nc - no console deməkdir ancaq, siz sonra **fs_cli** əmri ilə console-a daxil ola biləcəksiniz

-nonat – Əgər sizin freeswitch-in PUBLIC IP ünvanı varsa və o NAT arxasında işləmirsə, bu parametr istifadə edilir(Bu freeswitch üçün NAT traversal parametrini söndürür).

Sonra fusionpbx üçün baza, istifadəçi adı və şifrə yaradırıq:

mysql -uroot -pfreebsd # Bazamıza daxil oluruq
CREATE database freeswitch;

GRANT ALL PRIVILEGES ON freeswitch.* TO 'freeswitch'@'localhost' IDENTIFIED BY 'freebsd';

FLUSH PRIVILEGES; # Bu əmri daxil edirik ki, son dəyişikliklər dərhal işə düşsün

Indi isə FusionPBX-i yükləyək və quraşdıraq. Əvvəl portlardan yükləyək və sonra WEB quraşdırmasını edək.

cd /usr/ports/www/fusionpbx/ # Port ünvanına daxil oluruq
make config # lazımi modulları seçirik(Baza Mysql olduğu üçün PDO-MYSQL seçirik)



make install # Yükləyirik

Freeswitch-n quraşdırma fayllarına və WEB serverə yetki alması üçün lazımi hüquqları veririk:

chown -R www:www /usr/local/www/fusionpbx/
chmod -R 770 /usr/local/www/fusionpbx/
chown -R root:www /usr/local/freeswitch/

chmod -R 770 /usr/local/freeswitch/

Yüklənmə bitdikdən sonra isə WEB-dən fusionPBX linkinə daxil oluruq. Sənədi yazdığım vaxtda public DNS-lərim mövcud idi və **fussip.domain.az** adında subdomain yaradıb A yazısında PUBLIC IP-mi qeyd etmişdim. Ona görə də **http://fussip.domain.az** ünvanına müraciət edirik və şəkildəki səhifə açılır. WEB Administrator girişi üçün istifadəçi və şifrəsini daxil edib, **Next** düyməsinə sıxırıq:



Baza verilənləri, istifadəçi adı və şifrəni daxil edib **Next** düyməsinə sıxırıq:



Sonda login düyməsinə sıxıb, yaratdığımız WEB administrator istifadəçi adı və şifrəni aşağıdaki şəkildəki kimi daxil edirik:



Nəticədə aşağıdaki səhifəni əldə etmiş olmalıyıq:



BÖLÜM 15

Şəbəkə və resurslarnın təhlükəsizliyi

- **FreeBSD Tacacs yüklənməsi və quraşdırılması.**
- **Linux-da Tacacs-ın Domain Controller ilə inteqrasiya edilməsi**
- **SSH Domain controller İnteqrasiyası**
- **Snort İDS**
- **OpenSSL RSA imzalanması və yoxlanılması qaydası**
- **OpenSSL şifrələnmə və deşifrələmə**
- **OpenSSL RSA açarlar və sertifikatlar**
- **OpenSSL imzalama və şifrələmə**
- **OpenSSL OCSP Responder**

Hər bir orta ölçülü və böyük ölçülü kompaniyanın daxilində şəbəkə avadanlıqları mövcud olur. Bunlar switch-lər,router-lər,ASA Firewall və digər şəbəkə səviyyəsində işləyən avadanlıqlar da ola bilər. Bu avadanlıqlar bir neçə şəbəkə inzibatçısı tərəfindən administrasiya edilirsə, onların arasında müəyyən bir konflikt və problem yarana bilər ki, hər kəs dəyişdiyi konfiqurasiya haqqında məlumatlı deyil və digəri bununla razılaşmır. Bu səbəbdən ortaq bir yerə gəlmək üçün tələbə uyğun olan TACACS adlı bir imkan var. Bu başlığımızda TACACS-ın özünün ayrıca qurulması və onun domain controllerlə inteqrasiyasından danışılacaq. Şəbəkə təhlükəsizliyi üçün Snort İDS-dən və şifrələnmə üçün OpenSSL haqqında ətraflı danişacayıq.

FreeBSD Tacacs yüklənməsi və quraşdırılması.

TACACS+ - (Terminal Access Controller Access Control System plus) — seans protokoludur, Cisco-u tərəfindən TACACS-ın təkmilləşdirməsinin nəticəsidir.

Protokolun (şifrələmə) təhlükəsizliyi yaxşılaşdırılmışdır, həmçinin ayrı-ayrılıqda istifadə edilə bilməsi üçün, müəyyənləşdirilmə, avtorizasiya və hesab funksiyaları əlavə edilmişdir.

TACACS+ seanslar anlayışlarından istifadə edir. TACACS+ anlayışında **AAA** (authentication, authorization, accounting) seanslarına üç müxtəlif tipin təyin edilməsi mümkündür. Ümumi mənada seansın bir tipinin qurulması hər hansı başqasının ilkin müvəffəqiyyətli qurmasını tələb etmir. Protokolun spesifikasiyası avtorizasiya seansın açılışı üçün, öncədən müəyyənləşdirilmə seansı açmağı tələb etmir. TACACS+ serveri müəyyənləşdirilməni tələb edə bilər, amma protokol bu şərti qoymur.

Istifadə edilən resurslar.

1. FreeBSD_Tacacs x64 (VM, IP: 10.0.0.10)
2. GNS3 (Router 3700, IP: 10.0.0.100)
3. Windows LoopBACK_Adapter (IP: 10.0.0.1)

Struktur aşağıdakı formada olacaq.
FreeBSD x64 10.0.0.10 => LoopBACK Adapter (10.0.0.1)
=> GNS Cloud => Cisco Router 10.0.0.100

Şəbəkə quruluşu aşağıdakı şəkildəki kimi olacaq:



Serverimizin qurulmasına başlayaq

Qeyd: Virtual maşın kimi VmWare-dən istifadə edilmişdir(VirtualBox-la Işləmədi. Şəbəkə karltarında ciddi problemləri var).

Ilk olaraq FreeBSD Əməliyyat sisteminin işlərinə başlayaq.

```
portsnap fetch extract update # LoopBack adapteri qoşmazdan öncə,internetə
                              cıxışımız olmalıdır ki, program portlarını
                              yeniləyək(Sonra reboot mütləq edin.)

cd /usr/ports/net/tac_plus4   # tac_plus4 paketini yükləyirik ki, tacacs-i
                              işlədə bilək.
make install clean

rehash                        # Yüklədikdən sonra binar bazanı yeniləyirik
                              ki, əmrlər rebootsuz sistemdə tanınsın.

ee /etc/rc.conf               # Tacacs-ı Startup-a əlavə edirik ki, yenidən
                              yüklənmədən sonra işləsin.
ifconfig_em0="inet 10.0.0.10  netmask 255.255.255.0"
hostname="tacacs.az"
sshd_enable="YES"
tac_plus_enable="YES"   # Tacacsın startupda işləməsini aktivləşdiririk
tac_plus_flags="-d 8 -d 16 -d 32 -d 64 -C /usr/local/etc/tac_plus.conf"
                  # Lazımı flaglar təyin edirik ki, startup-da özü yoxlasın.
                  '-d' - debug elə deməkdir, qarşısındakı rəqəmlər isə
                  müxtəlif rejimlərdir.
                  8  - authorization debugging
                  16 - authentication debugging
                  32 - şifrə faylının işə düşməsini debug
                  64 - accounting debugging
                  '-C' - '/usr/local/etc/tac_plus.conf' quraşdırma faylı ilə
                              yoxlanış elə.

ee /usr/local/etc/tac_plus.conf     # Quraşdırma faylını aşağıdakı
                                    sintaksislə yazırıq.
# Accounting faylının ünvanını təyin edirik.
accounting file = /var/log/tac_plus.acct

# Cisco avadanlıqla TACACS server arasında istifadə edilən Pre-Shared açar
key = "freebsd"

# Groups
# Qruplar yaradırıq 'admin' və 'service' adında. Tələb olunan yetkiləri də
veririk.

group = admin {
    default service = permit              # Susmaya görə hər şey açıqdır.
    service = exec {                      # Idarəetme səviyyəsi
    priv-lvl = 15                         # 15-ci səviyyədir
    }
}

group = service {
    default service = deny                # Susmaya görə hər şey bağlıdır.
    service = exec {                      # Idarəetme səviyyesi 15-dir
    priv-lvl = 15
    }
}
```

```
# Users
# Istifadəçilər yaradıb lazımı qruplara əlavə edirik, həmdə istifadəçiləri
əmrlərə görə idarə edirik.

user = camal {                  # 'camal' adında istifadəçi yaradırıq və
    member = admin              # 'admin' qrupuna əlavə edirik.
    login = des NQU3rObo2Ntoc # şifrəmizi 'des' alqoritmlə şifrələyirik.
                                (Şifrənin kodlaşdırılması haqqında aşağıda
                                'tac_pwd' əmrinin açıqlanmasında danışacayıq)
}

user = auditor {                # 'auditor' adlı istifadəçi yaradıb,
    member = admin              # 'admin' qrupuna əlavə edirik. Aşağıda
                                sıralanan əmrləri istifadə eləmək yetkisindən
                                məhrum edirik.
    cmd = configure {
        deny .*
        }
    cmd = enable {
        deny .*
        }
    cmd = clear {
        deny .*
        }
    cmd = reload {
        deny .*
        }
    cmd = write {
        deny .*
        }
    cmd = copy {
        deny .*
        }
    cmd = erase {
        deny .*
        }
    cmd = delete {
        deny .*
        }
    cmd = archive {
        deny .*
        }
    login = cleartext secret        # Burda isə 'auditor' istifadəçisinin
                                    şifrəsini açıq'cleartext' şəkildə
                                    yazmışıq.
}
user = event_manager {              # 'event_manager' adlı istifadəçi,
    member = service                # 'service' qrupunun üzvüdür. (qrupda isə
                                    susmaya görə hər şey bağlıdır)
    cmd = clear {                   # Burda isə yalnız sadalanan əmrlərin
                                    istifadəsinə izin veririk.
        permit .*
```

```
        }
    cmd = tclsh {
        permit .*
        }
    cmd = squeeze {
        permit .*
        }
    cmd = event {
        permit .*
        }
    cmd = more {
        permit .*
        }
    cmd = show {
        permit version
        }
    cmd = delete {
        permit .*
        }
    cmd = "delete /force" {
        permit .*
        }
    cmd = "enable" {
        permit .*
        }
    login = des 07xU3lvh1hC3I # Həmçinin burda da şifrəni 'des' alqoritmlə
                              kodlaşdırırıq.
}
```

Qeyd: Şifrələrimizin cleartext yox **'des'** aqloritmi ilə şifrələnmiş formada Görünməsini istəyirsinizsə, onda çox rahat **'tac_pwd'** əmrindən istifadə edin.

```
tac_pwd     # Əmri daxil etdikdən sonra 'ENTER'-i sıxın və lazım olan şifrəni
            daxil edib yenə də 'ENTER'-i sıxın, yeni sətirdə çıxan nəticə isə
            daxil etdiyimiz şifrənin 'des' alqoritmi ilə şifrələnmiş forması
            olur. Həmin kodları nüsxələyib 'login = des'-in qarşısına
            yerləşdiririk ki, şifrəmiz crypt görunsun.

touch /var/log/tac_plus.acct        # tacacs-in accounting faylını yaradırıq
                                    accounting jurnallarını görə bilək.

chown tacacs /var/log/tac_plus.acct # öz istifadəçisi üzvlüyündə təyin edirik

chmod 755 /var/log/tac_plus.acct    # Və yetkiləri veririk.

/usr/local/etc/rc.d/tac_plus start  # servisi işə salırıq

netstat -a | grep tac               # Daemonun qalxmasını test edirik.
tcp4       0      0 *.tacacs                *.*                    LISTEN
```

Indi isə GNS3-də acılmış Routeri config edək.

```
conf t                                  # global rejimə keçirik.
interface fastEthernet 0/0              # GNS3-ün Cloud-na birləşmiş
                                        interfeysi quraşdırırıq.
ip address 10.0.0.100 255.255.255.0 # IP adress təyin edirik.

aaa new-model                                   # AAA modelinə daxil oluruq
tacacs-server host 10.0.0.10 key 0 freebsd      # Və deyirik ki, tacacs
                                                server '10.0.0.10'-dur və
                                                aramızda olan açar 'freebsd'
                                                sözüdür.

